Kamal Abdulla, Rafiq Əliyev,
Ziya Səlcuq

# Uşaqlar üçün qeyri-səlis məntiq

qanun nəşriyyatı

Kitab qeyri-səlis məntiqin banisi, dahi Azərbaycan-amerikan alimi Lütfi Zadənin arzusunu həyata keçirmək məqsədini güdür. Görkəmli alim bu nəzəriyyənin ən ümumi şəkildə məktəblərdə tədrisini arzu edirdi. Müəlliflər xəyali məktəbdə, xəyali sinif şagirdlərinin qeyri-səlis məntiq fənnini necə mənimsəmələrindən bəhs edir. Bu proses çətin və dolambaclı yollardan keçir. Nəhayətdə, oxucu şagirdlərin bu fənni sevdiklərinin şahidi olur. Qeyri-səlis məntiqin demokratiya prosesi ilə bağlı, süni intellekt sahəsində və bir çox başqa istiqamətlərdə özünü göstərən prinsipləri, müasir həyatımızda tutduğu yer, müxtəlif elm sahələrinə tətbiq mümkünlüyü və perspektivləri təkcə orta məktəb şagirdləri üçün deyil, həm də ayrı-ayrı elm sahələrində çalışan mütəxəssislər üçün maraqlı olacaq. Bu mənada kitabı oxuyanlar üçün yaş məhdudiyyəti yoxdur.

**Kamal Abdulla, Rafiq Əliyev, Ziya Səlcuq**
**Uşaqlar üçün qeyri-səlis məntiq**

Janr:
Yaş qrupu:
Ölçü:130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 224

Naşir: Şahbaz Xuduoğlu
Korrektor: Aytən Səadəti
Mətn dizaynı: Aytac Abdulova
Qapaq dizaynı: Kənan Enullayev

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi Bakı,
AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN

© Qanun Nəşriyyatı, 2025
© Kamal Abdulla, Rafiq Əliyev, Ziya Səlcuq, 2025

# Mündəricat


Maraqlı səyahət (Giriş əvəzi).......................................7
1-ci fəsil. Əhməd ya ölüdür, ya diri!...........................13
2-ci fəsil. Şübhələr və bəlkələr....................................21
3-cü fəsil. Obyektiv aləmdəki və həyatımızdakı
əks qütblər və aradakı çalarlar ....................................31
4-cü fəsil. Rafiq müəllimlə görüş................................43
5-ci fəsil. Demokratik yanaşım və yaxud
Volterixatırlarkən ..........................................................64
6-cı fəsil. "Gənc demokratlar" .....................................69
7-ci fəsil. Fasetlər. Sənin dostun nə qədər
yaxşı adamdır?!..............................................................73
8-ci fəsil. Qeyri-səlis məntiq faseti.
Aristotel və Zadə.............................................................83
9-cu fəsil. Epistemik faset. Axillesin dostu
Patrokl və Bəkilin oğlu İmran.....................................87
10-cu fəsil. Sorit paradoksu və yaxud
epistemik fasetin davamı...............................................92
11-ci fəsil. Qeyri-səlis münasibətlər faseti və yaxud
Monika Belluçini miniatür qadın kimi qəbul edə
bilirsinizmi?! ...................................................................97
12-ci fəsil. Qeyri-səlisliyin tikinti materialı:
hedclər..............................................................................99
13-cü fəsil. Yenə də "hedc"lər.....................................106
14-cü fəsil. Zadəyə qədər və Zadədən
sonra qeyri-səlis məntiq ............................................112

15-ci fəsil. Ziya Səlcuq 8 “B” sinfində ....................121
16-cı fəsil. Qeyri-səlislik və
“Kitabi-Dədə Qorqud” .............................................128
17-ci fəsil. Süni intellekt və qeyri-səlis məntiq ....... 139
18-ci fəsil. Qeyri-səlisliyin tətbiqi. Son dərs ........... 151

**Əlavələr**

Əlavə 1. Qeyri-səlis çoxluqlar haqda
simvollarla qısa izah..................................................155
Əlavə 2. Qeyri-səlis məntiq haqda
simvollarla qısa izah ................................................ 168
Əlavə 3. Qeyri-səlis münasibətlər haqda
simvollarla qısa izah ................................................ 174
Əlavə 4. Qeyri-səlis məntiqin müxtəlif fənlərdə
izlərinin müəllimlər üçün qısa izahı......................... 178
Əlavə 5. Kamal Abdulla, Rafiq Əliyev.
“Kitabi-Dədə Qorqud” dastanı – bildiklərimiz
və bilmədiklərimiz .................................................. 193
Əlavə 6. Kamal Abdulla, Rafiq Əliyev.
“Kitabi-Dədə Qorqud”da
ilkin demokratik prinsiplər...................................... 217

## Maraqlı səyahət
## (Giriş əvəzi)

Əslində, bu kitabda söhbət təkcə uşaqlardan, yaxud daha dəqiq desək, burada təsvir edilən 8 “B” sinfindəki şagirdlərdən getmir. İstənilən yaş dövrünün, istənilən ixtisasın sahibi bu kitabdan özünə lazım olan informasiyanı ala bilər. Ona görə də müəlliflər inanırlar ki, bu kitabın oxunuşu təkcə səkkizincilər, yaxud orta məktəb uşaqları üçün deyil, bu oxunuş yaşından və maraq dairəsindən asılı olmayaraq hər kəs üçün faydalı olacaq.

Qeyri-səlis məntiqin yaradıcısı Lütfizadə azərbaycanlı idi və bu qürurdoğurucu hissi həyatının sonuna qədər harada yaşamağından asılı olmayaraq, fəxrlə ürəyində qoruyub saxladı. Həyatının sonlarına yaxın o, Bakıya gəldi, vətənini son dəfə gördü. Azərbaycan Prezidenti onu yüksək dövlət ordeni ilə təltif etdi. Onun müxtəlif ölkələrdə aldığı çoxsaylı təltiflərə Vətən təltifi də əlavə edildi. Öləndə onu Azərbaycan ziyalılarının təşəbbüsü və ailəsinin razılığı ilə Bakıda torpağa tapşırdılar. L.Zadənin Azərbaycan eşqi uzaq Amerikada, eləcə də dünyanın müxtəlif elm mərkəzlərində gördüyü, tanış olduğu həmvətənlərinə isti münasibətilə yadda qaldı.

Bu gün professor Zadənin tələbələri və elmi ardıcılları onun ideyalarını müxtəlif ölkələrdə inamla təqdim və inkişaf etməyə davam edir. Bəzi ölkələrin orta məktəb

və kolleclərində qeyri-səlis məntiqin tədris olunması ilə uşaqlarda obyektiv aləmin rəngarəngliyi barədə təsəvvür yaratmaq cəhdi öz gözəl nəticələrini verir. Bu ölkələrdə, konkret desək, Yaponiyada, Koreyada, Çində, Sinqapurda qeyri-səlis məntiq prinsiplərilə işləyən texnoloji yeniliklər get-gedə artır və müasir dünyamızı artıq bu yeniliklərsiz təsəvvür etmək çətin olur.

İlkin olaraq "Qeyri-səlis məntiq nədir?" sualına cavab verməyə çalışaq. Amma əvvəlcə gərək "səlis, yaxud formal məntiq nədir?" sualı ətrafında düşünək.

Məlumdur ki, məntiq elmi təfəkkürün formaları və nəticə çıxarma haqqında elmdir. Məntiq elminin banisi Aristotel qəbul edilir. Klassik Aristotel binary məntiqinə görə hər hansı bir müddəa ya doğrudur, ya da yalandır. 2000 ildən artıq bir zaman çərçivəsində geniş istifadə edilən bu məntiq mürəkkəbləşmiş dünyamızda yaranan problemlərin öhdəsindən gələ bilirmi?! Yoxsa Aristotel məntiqi daha geniş bir məntiqə transformasiya olmalıdır?! Bu suala cavabı professor Lütfi Zadə verdi. Bu genişləndirilmiş məntiq qeyri-səlis məntiq oldu.

Qeyri-səlis məntiq iki cür təsvir edilir: geniş və dar mənalarda. Aristotelin formal məntiqinə görə, hər hansı verilmiş müddəa ya "doğru", ya da "yalan" kimi həqiqət qiymətinə malikdir. Bu məntiqə əsaslanan nəzəriyyələr təxminən 2000 il ərzində elmin və elmlərin inkişafına müəyyən mənada öz faydasını verdi. İnsan oğlu Aya uçdu. İnsan zəkasının bəzi mürəkkəbliklərini, məsələn, yüksək sürətlə hesablamanı, problemlərin həllini və s. kimi funksiyaları əvəz edən kompüterlər yarandı və s. və i.a.

Lakin etiraf edək ki, bugünkü mürəkkəbləşmiş dünyamızda elə yeni problemlər üzə çıxmışdır ki, artıq simvolların emalına söykənən və birinci tərtibdəki, başqa sözlə desək, adi məntiqə söykənən nəzəriyyələr bu problemlərin həllinə kömək edə bilmir. Məsələn, məlumdur ki, bu gün süni intellekt nəzəriyyəsi insan fəaliyyətinin ən müxtəlif sahələrində tətbiq olunur. Müasir süni intellekt nəzəriyyəsinin əsas istiqaməti odur ki, qeyri-dəqiq və qeyri-müəyyən şəraitdə mövcud olan mürəkkəb problemləri həll edə bilsin.

Hər şeydən əvvəl qeyd edilməlidir ki, qeyri-səlis məntiqin əsasında qeyri-səlis çoxluqlar konsepsiyası dayanır. Çoxluqlar ilk dəfə formal olaraq Georq Kantor tərəfindən öyrənilmişdir. "Qeyri-səlis çoxluqlar" çoxluqlar nəzəriyyəsinin riyazi konsepsiyasının sonrakı inkişafıdır. Və qeyri-səlis çoxluqlar 1965-ci ildə Lütfi Zadə tərəfindən təklif edilmişdir. Bu qeyri-səlis çoxluqlar nəzəriyyəsi klassik çoxluqlar nəzəriyyəsini o baxımdan ümumiləşdirir ki, obyektin çoxluğa mənsubluq dərəcəsi 0 və 1 tam ədədləri ilə məhdudlaşmır, əksinə, (0,1) intervalında istənilən qiyməti ala bilir. Klassik çoxluqlar nəzəriyyəsində isə çoxluq həmişə kəskin sərhəddə malikdir, çoxluğa mənsubluq "ağ-qara" anlayışı kimidir, yəni obyekt ya tamamilə çoxluğa aiddir, ya da ümumiyyətlə, çoxluğa aid deyil.

Amma o da var ki, bəzi çoxluqların kəskin sərhədlərə malik olmasına (məsələn, evli insanlar çoxluğu) baxmayaraq, bir çoxlarının kəskin sərhədləri olmur (məsələn, xoşbəxt evli cütlüklər, yaxşı məzunlar, uzunboylu insanlar çoxluğu və s.). Qeyri-səlis çoxluqlar nəzəriyyəsi isə

çoxluğa mənsubiyyət dərəcə məsələsi olmasına rəğmən bu məhdudiyyəti birbaşa həll edir. Çoxluğa mənsubiyyət dərəcəsi 0-dan 1-ə qədər istənilən rəqəmlə ifadə edilir: 0 çoxluqda tamamilə yoxdur, 1 çoxluqda tamamilə var. Onların arasındakı hər hansı ədəd isə çoxluqda qismən var deməkdir.

Albert Eynşteynin belə bir fikri var: "Riyaziyyat qanunları real dünyanı nə qədər ehtiva edirsə, onlar bir o qədər qeyri-müəyyən olur və əksinə, onlar nə qədər müəyyən olursa, bir o qədər real dünyanı əks etdirə bilmirlər". Göründüyü kimi qeyri-səlis riyaziyyat real dünyanı daha adekvat əks etdirməyə qadirdir.

Zadənin 1994-cü ildə "Azerbaijan İnternational" jurnalına verdiyi müsahibəni yada salaq. Jurnalın əməkdaşı ona belə bir sual verir:

– Sizcə qeyri-səlis məntiq ilk olaraq harda istifadə olunacaq?

Professor Zadənin bu suala cavabı belə olur:

– Bu, bir çox sahələri əhatə edəcək. Mən iqtisad elmində çalışan insanların, psixoloqların, fəlsəfə sahəsində, linqvistika sahəsində, siyasətdə, sosiologiyada, dində və saysız-hesabsız başqa sahələrdə çalışanların bundan faydalanacağına inanıram.

Biz də bu kitabın müəllifləri olaraq belə bir inamla yola çıxdıq. Və gələcək tədqiqatların müəlliflərinə yeniyetmə yaşlarında ikən qeyri-səlislik barədə ilkin anlayışları təqdim etmək niyyətinə düşdük. Təqdimat maraqlı olsun deyə bir oyun qurmaq istədik.

Əziz oxucu, bu kiabda təsvir edilən hadisələr, guya ki, Bakıdakı məktəblərin birində baş verir. Hansısa 8 "b" sinfində qeyri-səlis məntiq dərsləri tədris edilməyə baş-

layır. Şagirdlər əvvəlcə istəməyə-istəməyə bu dərslə tanış olmağa başlayırlar. Yavaş-yavaş onlar qeyri-səlislik prinsiplərinə bələd olduqca bu nəzəriyyənin tərəfdarlarına çevrilirlər. Onlar bu fənni sevməyə başlayırlar. Müəllimləri onları səbirlə bu nəzəriyyənin əsasları ilə tanış edir, şagirdlərlə onların başa düşəcəkləri şəkildə elmi təmas qurur, onların  görüşünə hətta bu kitabın müəllifləri də ayrı-ayrılıqda gəlir və hər gəliş qeyri-səlislik prinsiplərinin daha da adekvat şəkildə qəbul edilməsinə səbəb olur…

Əlbəttə ki, bütün bunlar bir arzu, fantastik təsvirdir. Müəlliflər çox istərdilər ki, belə bir halı biz bütün Bakı, Azərbaycan məktəblərində, eyni zamanda, Türkiyə okullarında müşahidə edək. Yuxarı sinif şagirdlərimiz bizi əhatə edən dünyamızı sadəcə ağ-qara rənglərdə deyil, rəngli televizorda olan kimi görsün. Bilsin ki, *ağ-qara, isti-soyuq, təmiz-çirkli, gözəl-çirkin, diri-ölü* və başqa binar qütblər arasında uçurum yox, saysız keçid xətləri var. Bilsin ki, bu keçid xətləri bütün elm sahələrini ehtiva edir. Bilsin ki, hətta süni intellektin həyatı bu keçid xətlərindən asılıdır. Çünki süni intellektin əsasında qeyri-səlis məntiq prinsipləri durur. Məsələn, süni intellektin əsas tətbiqlərindən biri olan və hamının geniş şəkildə istifadə etdiyi  "ChatGPT" platforması təbii dildə "var-gəl" edə bilir, yəni "işləyir. Klassik məntiq isə təbii dildə işləyə bilmir. Onun canı riyazi rəqəmlər dilidir.

Biz hətta belə deyə bilərik. Bütün həyatımız qeyri-səlis məntiqin dəmir toru içindədir. O bizim dilimizi, davranışımızı, düşüncə tərzimizi tənzim edir. Hətta belə də düşünə bilərik ki, dilimiz başdan-başa qeyri-səlis məntiqin tikinti materialı olan *hedclərdən* ibarətdir. "Hedc"

terminini elmə məhz Lütfizadə gətirmişdir. O elə düşünürdü ki, bu terminin köməyilə qeyri-səlisliyin anlamı daha da asanlaşacaq. Amma indi, tutalım ki, qeyri-səlis məntiqi dilimizə tətbiq etdikdə biz *hedc* anlayışını xeyli genişlənmiş şəkildə görürük. Fikrimizi bir qədər də dəqiq desək, "dilimiz bütövlükdə böyük bir hedcdir" fikrinə gəlib çıxırıq. Biz ona dilin üzünə tutulmuş mənəvi niqab kimi də baxa bilirik. Bizim 8 "b" dilimizə bu cür yanaşma necə olur – bunu artıq bilir.

Onu da hökmən qeyd etmək lazımdır ki, oxucunun əlində tutduğu bu kitab qeyri-səlis məntiqi öyrənən tədris proqramı şəklində nəzərdə tutulmamışdır. Onun missiyası bir qədər başqadır. Bu kitab uşaqlarda (və ümid edirik ki, bəzi böyüklərdə) qeyri-səlislik və qeyri-səlis məntiq barədə bütöv və ümumi ilkin təsəvvür yaratmaq məqsədilə yazılmışdır. Müəlliflər güman edir ki, yaxın gələcəkdə belə bir proqramın yazılmasına ehtiyac duyularsa, onların bu xırda zəhməti bu işə öz töhfəsini verəcəkdir. Amma yenə də qeyd edək ki, müxtəlif sahələrdə çalışan "böyüklər" üçün də kitab maraqlı və hətta faydalı ola bilər.

Əziz oxucu! Səni bu kitab maraqlı bir səyahətə dəvət edir. Bu səyahətə səninlə bir yerdə kitabın müəllifləri də qatılacaq. Bu səyahətə kitabdakı digər həmyaşıdların da qoşulacaq. Biz müəlliflər olaraq bir də ona əminik ki, bu səyahət başlayacaq, amma bu səyahət bitməyəcək. Ona yeni-yeni ideyalar, yeni-yeni problemlər əlavə ediləcək. Səyahətin yeni-yeni sinergetik istiqamətləri üzə çıxacaq. Və sabah bu kitabın oxucuları hansı elm, yaxud sənət yolu ilə irəliləsələr də, indi oxuyacaqları və mültəfit olacaqları mətləblər onların beyinlərində və ürəklərində daim onlarla olan intellektual bayram kimi qalacaqdır.

## 1-ci fəsil

## Əhməd ya ölüdür, ya diri!

Əhməd orta məktəbin 8-ci sinfində oxuyurdu. Yay tətilindən sonra məktəbdə ilk dəfə idi ki, sinif yoldaşları ilə görüşürdü. Həmən gün son dərs bitdikdən sonra dostlar məktəb həyətində, sevdikləri bir guşədə oturub yeni dərs ilinin ilk gününün necə keçdiyini müzakirə edirdilər. Hər kəsi bir məsələ maraqlandırırdı. Onların məktəb proqramına yeni fənn daxil etmişdilər. Fənnin adı “Qeyri-səlis məntiq” idi. Əhməd, Hüseyn, Mina, Zaur arasında söhbət bu yeni fəndən gedirdi.

– Bu yeni dərs mənim heç xoşuma gəlmədi. Qeyri-səlis məntiqi deyirəm, – Hüseyn narazı bir halda fikrini həmişə olduğu kimi birbaşa ortaya qoydu.

– Mənim də… amma bəlkə… – Əhməd tərəddüd içində idi.

Hüseyn dediyindən dönmədi:

– Necə yəni bu fənnin adından belə çıxır ki, indiyə qədər biz məntiqsiz yaşamışıq?!

– Hə, elə çıxdı. Bizə yeni məntiq öyrədəcəkmişlər. Bizə lazımdırmı bu?! – bu sözləri dilə gətirən isə Mina idi.

– Canım, mənə mənim məntiqim yetər. Hələ ki bir çətinliyim yox idi, – Hüseyn Minanın dediklərini tələsik dəstəklədi. Daha doğrusu, belə də demək olar: Hüseyn

Minanın münasibətinə qoşuldu. Çünki Minanın sözlərində yeni fənnə qarşı bir etiraz hiss edilirdi.

Zaur hələ ki susmuşdu.

Bu gün uşaqlara təzə dərs ilindən başlayaraq yeni fənn keçəcəklərini elan etmişdilər. İlk dərs artıq baş tutmuşdu. Onların dərs proqramına yeni bir fənn əlavə edilirdi. Deyilənlərə görə, bunu isə onlara məktəbin direktoru Sona müəllimənin özü bəyan eləmişdi, həyata, ətraf mühitə, dünyaya baxışları bu fənnin köməyilə daha cilalı, daha aydın və səlis olacaqdı. İndiyə qədər bu niyə belə olmamışdı – bunu onlara izah edən, başa salan yox idi.

Bu fənnin birinci dərsini Fərhad müəllim adlı elmi bir İnstitutdan gəlmiş müəllim apardı. Təkcə birinci dərsi yox, bu yeni fənnin bütün digər dərslərini də həmən Fərhad müəllim tədris edəcəkdi. Fərhad müəllim ilk dərsindəcə, ümumiyyətlə, məntiq və qeyri-səlis məntiq mütəxəssisi olduğunu qeyd elədi. Yeni fənnin mütəxəssisi Fərhad müəllim dərs boyu dediklərini çox aydın şəkildə təqdim etməyə çalışdı.

Məktəb bağçasında isə dərs bitdikdən sonra başlanan qızğın mübahisələr davam edirdi. Dostlar bağçadakı Taxtalı şüşəbənd adlanan bir yerə yığışmışdılar. Müzakirə masası ətrafında idilər. Uşaqlar sinif otağında deyə bilmədiklərini indi burada sıxılmadan bir-birinə deyirdilər.

– Sanki bizim dünyaya baxışımızda, ətrafı qavramamızda qeyri-dəqiqlik var imiş?! – Hüseyn yeni fənlə heç cür “barışa” bilmirdi.

Mina bu dəfə daha kəskin danışdı:

– Biz indiyə qədər nəyi doğru, düzgün etmədik?! Bizim bu günə qədərki mətiqimiz niyə təftiş edilir?! Edilməsin.

Əhmədə aydın oldu ki, indi bağçada mübahisə edən, fikirlər söyləyən sinif yoldaşlarından heç biri bu yeni fənnin tədrisini bəyənməyib. O düşündü ki, dostlar bu fənnə, bəlkə də, bir qədər tələsik münasibət bəsləyirlər. Amma, bəlkə, bu yeni fənnin onların anlamadığı bir özəlliyi var?! Bu yeni məntiq köhnə məntiqimizə, bəlkə, yeni impulslar verəcək?! Amma digər tərəfdən niyə də bəyənməli idilər?! Niyə onlar alışdıqları köhnə məntiqin onların həyatına hopmuş qanunlarından yaxa qurtarmalı idilər? Nə üçün bu məntiq köhnə sayılmalı idi? Bunu onlara hələ ki düz-əməlli başa salmamışdılar. Fərhad müəllim, ola bilər ki, bu vacib məsələləri növbəti dərslərdə şərh edəcəkdi. Hələlik isə uşaqlar özləri bəzi suallara cavablar axtarmağa məcbur olurdular. Əhmədə görə, onlar tələsməməli idilər. Hüseynə və Minaya görə isə... Onlar üçün məsələ bəri başdan tam aydın idi.

– Mənim bu günə qədərki məntiqim məni əməlli-başlı qane edir. Bax, mən deyirəm, Əhməd ya mənim dostumdur, ya da deyil. Başqa bir durum varmıdır Əhməd üçün? O ya dostdur, ya da yox, dost deyil. Düzmü deyirəm? – Hüseyn dostu Əhməddən soruşdu.

Bu misalı dərsdə Fərhad müəllim səsləndirmişdi. Doğrudur, o, başqa bir ad çəkmişdi, “Sokrat ya dostumdur, ya dostum deyil” demişdi. Sonra da əlavə eləmişdi ki, bunu vaxtilə dahi qədim dünya filosofu Aristotel irəli sürürdü. Və Aristotel Sokrat üçün üçüncü halı istisna edirdi.

– Düzdür! – Əhməd bu dəfə Hüseynin dediklərini birmənalı şəkildə təsdiq etdi. – Əlbəttə ki, məsələ kəskin şəkildə qoyulursa, mən bu iki durumdan birindəyəm. Mən ya Hüseynin dostuyam, ya da dostu deyiləm. Amma... lakin...

– Sənin bu "amma"ların, lakinlərin qurtarmadı ki, qurtarmadı. Yenə də "amma!" Yenə də "lakin". Bunun daha nəyi "amma" oldu? Sən ya dostsan, ya da deyilsən. Birmənalı və kəskin! – Hüseynin səsində bu dəfə narazılıq ahəngi var idi. O, az qala inciyəcəkdi.

Bu yerə qədər Zaur susmuşdu, daha susub dura bilmədi. O da söhbətə qarışdı:

– Yadınızda Sadıq müəllimin bizə Aristotel barədə dedikləri?! Yadınızdamı?

Sadıq müəllim onların riyaziyyat müəllimi idi. Sinifdə həmişə uşaqlara dərsdən əlavə özünün lazım bildiyi bilikləri verməyə çalışırdı.

Mina tələsik Zaurun sualına cavab vermək istədi:

– Bu adam ya ölüdür, ya da diridir. Hələ Sadıq müəllim yadınızdasa, Əhmədi misal gətirdi. Bütün sinifdən soruşdu ki, bax bu Əhmədi görürsünüz?

– Görürük dedik ... – Zaur cavab verdi.

– O diridir? – Mina soruşdu.

– Diridir dedik, – Zaur yenə də eyni cavabı verdi.

– Əstəğfurullah, o ölü deyil ki? Sadıq müəllim elə bu cür də dübarə soruşdu, – bunu xatırlayan yenə də Mina idi.

– Mənim yadımdadı, bütün sinif xorla bağırdı: yox, müəllim, ölü deyil, diridir! Diridən də diridir, – Zaur gülümsəyərək Zakirin əlavəsini yada saldı.

– Bəs Sadıq müəllim nə dedi?! Dedi ki, Aristotel də siz deyəni deyir. Adam ya ölüdür, ya diridir. O başqa bir halətdə ola bilməz.

– Ola bilməzmiş... – Əhməd fikirli-fikirli söylədi. – Amma...

– Yenə də amma! Daha bunun nə "amma"sı?! Min illərdi hamı bunu deyib durur ki, bir adamın ya ölü, ya da diri olmasından başqa bir halı yoxdur. Yeni məntiq, nəydi adı, hə, qeyri-səlis məntiq bunun qarşısında nə deyəcəkdir? Deməyə bir sözü qaldımı, qalmadı daha, – Hüseyn öz fikrində hələ də qəti idi.

– Amma mənim bu iki haldan əlavə onların arasında daha bir halın da ola bilməsinə... inanmağım gəlir. Nə isə mən tərəddüd edirəm. Mənim...

– Hə, nəyin var? De, biz də bilək... – Mina artıq hövsələdən çıxmaqdaydı. – Bizim bir-birimizdən sirrimiz gərək olmasın.

Əhməd, elə bil hansısa uyğun bir sözü itirmişdi, indi onu axtarırdı. Gözləri qıyılmış, diqqəti uçub harasa getmişdi. Harda itmişdi o söz?! Əhməd axtarırdı, amma tapa bilmirdi.

Dostlar söhbət edə-edə məktəbin bağçasından çıxıb evlərinə tərəf yol aldılar. Onların yolu eyni idi, çünki bir-birilə qonşuluqda, eyni məhəllədə yaşayırdılar. Əhmədin fikri birdən aydınlaşdı.

– Tapdım, tapdım! – Əhməd qəflətən ayaq saxlayıb sevincək dilləndi.

Hamı maraqla Əhmədə baxdı. "Nəyi?! Nəyi tapdın?" Bütün baxışlarda bu sual yazılmışdı. Onlar artıq Əhmədin bir qədər əvvəlki tərəddüdlərini unutmuşdular.

– Tapdım. Şübhə!! Əlbəttə, şübhə! Şübhə edirəm. “Şübhə” sözünü tapdım, – Əhmədin çiyinlərindən sanki yük götürüldü. O, rahat nəfəs aldı.

– Eh, mən də dedim, görəsən, nəyi tapıb? – Mina güldü. – Şübhəsi varmış...

– Sən hər şeydən şübhəlisən, oğlum. Keçən səfər sinifə topu kimin gətirməsini Etibar boynuna aldı, amma sən şübhə etdin. Dedin ki, topu, bəlkə, Zakir gətirib. Yox, belə dedin: topu, deyəsən, Zakir gətirib...

– Nooldu? Kim gətirmişdi topu? “Deyəsən” yerinə düşdü, ya yox?! – Əhməd gülə-gülə soruşdu.

– Zakir gətirmişdi, sən haqlı idin. Amma məsələnin həlli bu deyildi ki. Ortada nəticə vardı. Bu nəticə də göz qabağında idi. Top vurub sinif pəncərəsinin şüşəsini qırmışdı. Məsələnin canı bu idi. Sən şübhə etdin, ya etmədin, nə dəyişdi? – Zaur soruşdu.

– Yox, dəyişdi, – Əhməd xeyli ciddiləşdi. – Etibar gətirsə idi, bəlkə də, biz sinifdə futbol oynamayacaq idik. Pəncərə də qırılmayacaqdı. Şübhənin mənası var idi. Hüseyn Cavid bilirsiz nə deyir?

– Nə deyir? – hamı ayaq saxlayıb dayandı və maraqla Əhmədə baxdı. Onlar bilirdilər ki, Əhməd böyük şairimiz Hüseyn Cavidin vurğunudur, saatlarla bu böyük və faciəli həyat yaşamış şairin şeirlərini əzbər deyə bilər.

Əhməd dediklərinə Hüseyn Cavidin sözlərilə davam etdi:

– Hüseyn Cavid deyir:
“Şübhədir hər həqiqətin atası,
Şübhədir əhli-hikmətin anası.
Şübhə etməkdə həqlidir insan...”

– Ay Zərbəli müəllim, hardasan? Bu Əhməd ki var, sənin bütün dediklərini əzbərləyib, – Zaurun gülə-gülə dediyi və digər dostların da gülüşünə səbəb olan bu sözlərdə hər şeydən əvvəl ədəbiyyat müəllimləri Zərbəli müəllimə sevgiləri əks olunmuşdu.



**Hüseyn Cavid**

Zərbəli müəllim onların sevimli ədəbiyyat müəllimi idi. Onlara öyrətməyə çalışırdı ki, həyatda aydın və izahı var kimi görünən hər məsələyə şübhə ilə yanaşmaq, beləliklə də, məsələnin dərininə varmaq onların bir şagird kimi "vətəndaşlıq" borcudur. Hər məsələnin məğzinə nüfuz etmək, "niyə?", "nə üçün?", "səbəb nədir?" kimi suallar təkcə bilmədiklərinə deyil, bildiklərinə qarşı da yönəlməlidir, həqiqət bundan yalnız uda bilər.

– Yaxşı, bəs şübhənin "ya dostdur, ya dost deyil" hökmünə nə dəxli var? – gülüş səsləri kəsilən kimi Zaur ciddi şəkildə soruşdu.

– "Dost – dost olmayanı" hələ saxla, bəs Əhmədin şübhəsinin "ölü, ya diri" qütblərinə nə dəxli var?! Sənin şübhən varmı ki, hər hansı bir adam ya ölü, ya diri deyil?! Bu iki halətdən birində deyil?! – Hüseyn məsələni kökündən həll etməyə çalışırdı. Ona elə gəlirdi ki, Əhmədin bu möhtəşəm məntiqə qarşı deyiləsi bir sözü olmamalıdı. Bu məntiq Aristoteldən bəri bütün və hər cür həqiqətlərə gedən yolda, sanki yeganə açar idi.

– Bəli, buna mənim şübhəm var! – Əhməd qəti bir inamla cavab verdi.

Dostların təəccübü sonsuz və həm də son dərəcə səmimi idi.

– Sən nə danışırsan???

– Ola bilməz!!!

– Bunu mən sizə sabah deyərəm. Sağ olun, – Əhməd yoldaşlarına gülə-gülə əl edib küçəni keçdi və yaşadığı evə tərəf yönəldi.

– Hara? Qaçma! Dayan. Bu gün. Bu gün söylə ...

Uşaqların gülüş dolu səsləri bir-birinə qarışdı. Onlar Əhmədin arxasınca küçəni qaçaraq keçdilər və çantalarını havada yelləyə-yelləyə hərə öz evinə doğru yol aldı.

***Çalışmalar:***

1. "Ya...ya..." bağlayıcılar qrupu oxuduğunuz bədii əsərlərdə daha hansı əks qütbləri formalaşdıra bilir?

2. Əks qütblər arasındakı keçid çalarları dildə və obyektiv aləmdə necə təzahür edir? Ağ-qara, gözəl-çirkin, doğru-yalan və başqa əks qütblərdəki keçid çalarlarını göstərin.

3. Hüseyn Cavidin "şübhə" ilə bağlı yazdığı misraların qeyri-səlislik müstəvisində yeri ilə bağlı fikirlər irəli sürün.

4. Dünya filosofları arasında əksliklər arasında 3-cü kimi irəli sürülən hal varmı idi və onu kimlər irəli sürmüşdü?

5. Dünya şairlərindən kimlər öz yaradıcılığında "üçüncünün istisnasının istisnasını" təsvir etmişdir?

# 2-ci fəsil

## Şübhələr və bəlkələr



**Lütfi Zadə**

Dostların yeni dərs ilində ilk dəfə tanış olduqları fənnin adı "Qeyri-səlis məntiq" idi. Bu fənni onlara yenicə tanış olduqları Fərhad müəllim tədris edəcəkdi. Özü dediyi kimi o hər şeydən əvvəl məntiq müəllimi idi. O, həmişə davranışda, yazı-pozuda, danışıq zamanı təmiz məntiqin tərafdarı idi. Xaricdə keçirilən konfransların birində gənc Fərhad Uğurlu "qeyri-səlis məntiq"in yaradıcısı Azərbaycan əsilli amerikan alimi Lütfi Zadənin çıxışını dinləmişdi və bu çıxışdan sonra Fərhad müəllimin elmi həyatı öz istiqamətini kökündən dəyişmişdi. Sonra o, Amerikaya L.Zadənin yaşadığı Berkli şəhərinə getmiş, onun çalışdığı məşhur Berkli Universitetinə doktorant olaraq qəbul edilmiş, Zadə ilə birbaşa təmas qurmuş, Zadənin onun yazdığı dissertasiya işinə elmi rəhbər olmasına nail olmuşdu. Daha sonra Fərhad müəllim elə Amerikadaca doktorluq dissertasiyası müdafiə etmişdi. O artıq bu gün bütün dünyada seyri-səlis

məntiqin aparıcı mütəxəssislərindən birinə çevrilmişdi. Səlis məntiqin mütəxəssisindən qeyri-səlis məntiqin qızğın tərəfkeşi olmuşdu.

Böyük bir elmi-tədqiqat institutunda çalışaraq qeyri-səlis məntiqin və qeyri-səlis riyaziyyatın bilicisi kimi uğurlu araşdırmalar aparan Fərhad Uğurlunun düşüncəsinə görə, insanların qeyri-səlis məntiqlə tanışlığı orta məktəbdən başlamalıdır. Bu, sürətlə inkişaf etmiş bir çox ölkələrdə belə idi. Yalnız belə olarsa, onlar bu elm vasitəsilə həyatın, obyektiv aləmin bir çox dərinliklərinə enərək onun sirlərinə daha sıx şəkildə yiyələnə bilərlər. Həm də azyaşlı uşaqlar klassik məntiqlə, onun qanunları və prinsipləri ilə tanışlıq fonunda qeyri-səlis məntiq elminin dərinliklərini daha optimal şəkildə və daha böyük uğurla mənimsəyərlər. Fərhad Uğurlu belə düşünürdü. Elə bu fikir də onu orta məktəbə çəkib gətirmişdi. Dərs dediyi sinif onun fikirlərini ya təsdiq edəcəkdi, ya da...

Amma... yenə də amma! Bəli, amma ilk dərs onun gözlədiyi kimi keçmədi. Uşaqların gözündəki lal etiraz onların alışdıqları çərçivələri pozaraq yeni sferalara daxil olmaq həvəslərinin "sıfır" olmasından xəbər verirdi. İkirəngli dünyadan çoxrəngli dünyanın seyrinə çıxmaq ideyasına gəlmək, uşaqları dünyanın yalnız iki rəngdən deyil, bu iki rəng arasında mövcud olan sonsuz sayda rənglərdən ibarət olduğuna inandırmaq o qədər də asan deyilmiş. Bu uşaqlar rəngsiz televiziya dövrünü yaşamamışdılar. Onlara rəngli televizorun həyata nələr gətirdiyini müqayisə yolu ilə izah etmək mümkün deyildi. Onun sehirli xalçasına oturub əsrarəngiz rənglər dünyasına səyahətə çıxmaq istəyənlər bu sinifdə, deyəsən,

yox idilər. Kim bilir, bəlkə, bu arzu yavaş-yavaş onların beyinlərə girəcək və qəlblərinə hakim kəsiləcəkdi – kim bilir?! Ümid yalnız buna qalırdı. Hər şey onun özünün bu yeni fənni tədris etdiyində tutacağı mövqeyindən asılı olacaqdı. Qeyri-səlisliyin, əslində, səlisliyə xidmət etdiyini səbirlə, addım-addım izah etmək lazım idi.

Hələlik isə Fərhad müəllim ilk dərsdə uşaqları onların alışdıqları məntiqdən savayı bu məntiqi hətta öz içinə yığa biləcək başqa bir məntiqin – qeyri-səlis məntiqin də var olmasına inandırmaq istəmişdi. Asan olmayacaqdı, o bunu bilirdi. Bəlkə də, uşaqlar dərsin bitdiyini bildirən zəng səsindən sonra qışqırışa-qışqırışa dəhlizlərə, ordan da məktəb bağçasına doluşan kimi, onu da, qeyri-səlis məntiqi də unudacaqdılar. Ola bilərdi. Fərhad müəllim belə düşünüb acı-acı gülümsədi. Amma o bilmirdi ki, belə olmadı. O bilmirdi ki, qeyri-səlis məntiqlə ilk dəfə tanış olan bu uşaqlar dərsdən sonra məktəb bağçasında Fərhad müəllimin onların qəlbinə səpdiyi şübhə toxumlarını hərəsi öz bildiyi kimi cücərtməklə məşğuldur. Onlar bir-birilə mübahisə edə-edə bu şəkildə yeni fənnin ağır və mürəkkəb yolu ilə irəliləməyə çalışırlar.

Dostların – Əhmədin, Hüseynin, Minanın, Zaurun öz aralarında əvvəlcədən razılaşdırdıqları qəribə eksperimentləri olurdu. Bir ay əvvəlki son eksperiment bu idi: kim kimi evdə saat neçədə xatırlayacaq?! İstəyirdilər bilsinlər ki, bu xatırlamalar eyni saatdamı olur, yoxsa ayrı-ayrı vaxtlarda?! Onlar bir-birinin yadına nə zaman düşürlər – özlərindən xəbərsizmi, ya ki bu yadasalmalar eyni vaxtda baş verir?! Mina Hüseyni xatırlayan zaman, həmən anda Hüseyn də Minanı xatırlayırmı?! Və yaxud Hüseyn və Əhməd bir-birini eyni vaxtdamı, yoxsa ay-

rı-ayrı vaxtlarda xatırlayırlar?! Bir uzaqdan digər uzağı xatırlamaq hər hansı bilgi ilə, məsələn, yalnız xəbər göndərmə ilə baş tutur, yoxsa bu, bilgidən kənar, intuisiya, yaxud telepatiya vasitəsilə olur?!

Bu "xatırlama" əhvalatı bir aya yaxın davam etdi. Təəssüf ki, onların gözlədikləri alınmadı. Nə qədər arzu etsələr də, eyni vaxtda baş verən xatırlamalar olmadı. Beləliklə, özlərindən də xəbərsiz real bilgi xaricindəki kommunikasiyanın (intuisiyanın) mövcudluğuna dostlar inanmamaq məcburiyyətində qaldılar. İndi isə eksperimentlər üçün tamamilə yeni meydan açılırdı. Bu "şübhə" və "bəlkə"lərin ortaya çıxdığı meydan idi. Onlar bu meydana qasırğa kimi daxil olurdular. Eynən sevdikləri futbol dühaları Ronaldo və Messi kimi.

* * *



**Aristotel**

İki gün sonra dostlar məktəb bağçasında yenə bir yerdə idilər. Onların bir-birilə görüşdükləri yer yenə də Taxtalı şüşəbənd idi. Bu bir dairəvi, üstü bağlı, taxtadan skamyaları olan söhbət yeri idi. Bu dəfə uzun mübahisələrdən sonra onlar belə qərara gəldilər ki, "şübhə" və "bəlkə"lərin işığında qətiyyətli addımlar atsınlar. Onlar artıq şübhələrin özü ilə gətirdiyi həqiqətlərə inanmağa başlamışdılar. Onlara artıq elə gəlirdi ki, belə olarsa, yəni biri həqiqət, o biri yalan olan iki hökmün

(halın) arasında onlar hökmən axtarıb üçüncü bir hal da tapa bilərlər. Hər bir ikili əks qütb arasında orta hal və yaxud hallar hökmən vardır! Hər halda qeyri-səlis məntiq və bu məntiqin yaradıcısı Zadə belə deyirdi. Sadəcə olaraq məsələyə yalnız şübhə ilə yanaşmaq lazımdır. Şübhə qeyri-səlislik meydançasının əsas düyün nöqtəsidir. Əslində, şübhə həyatımızdakı və obyektiv aləmdəki qeyri-səlisliyi tanıma vasitəsidir. Hüseyn Cavid də nahaqdan deməmişdi: "Şübhədir hər həqiqətin babası... şübhə etməkdə həqlidir insan..."

– Aristotel məntiqinə hücum! – Hüseyn bir əlini yuxarı qaldırıb təntənəli şəkildə bəyan elədi. Və Fərhad müəllimin artıq bugünkü dərs zamanı dediyini eyni hərəkət, səs tonu və intonasiya ilə təkrar eləmiş oldu.

– Şübhələrdən, bəlkələrdən ibarət hücüm! – Zaur onun dediyinə bu şəkildə əlavələr etdi.

– Mənim atam danışıq zamanı mən "bəlkə" sözünü işlədəndə həmişə qayıdıb deyir ki, qızım, "bəlkə"ni əkiblər, bitməyib... – Mina ehtiyatla, yavaş səslə "bəlkə" məsələsinə münasibət bildirdi.

– Ooo...

– "Bəlkə"ni əkiblər, bitməyib...

– Bitsəydi, gör nə olardı...

– Nə qədər gözəl deyib... – uşaqlar bir-birinin sözünü kəsə-kəsə Minanın atasının dediyi sözlərə təəccüb dolu münasibət bildirdilər. Hay-küy qalxdı. Amma onlar tez sakitləşib yenə də əsas söhbətlərinə qayıtdılar.

Hüseyn Əhmədə müraciətlə soruşdu:

– Sən nə zaman bizə öz şübhənin nədən ibarət olduğunu deyəcəksən? Biz də axı bunu bilmək istəyirik. O gün evə gedərkən sən bu barədə nə isə demək istədin, amma saxladın, fikrindəkiləri bölüşmədin.

– Bölüşmədi, bölüşmədi.

– Dostlar arasında sirr saxlamaq düzgün deyil.

– Sən bizdən nə isə gizlədirsən? – uşaqlar səs-səsə verdilər və Zaurun yarızarafat, yarıciddi şəkildə verdiyi son sual hamının diqqətini cəlb etdi.

– Zaur doğru deyir. Bu, düzgün deyil... – Mina da dəstədən geri qalmayıb onlara qoşuldu.

– Dostlar, deyəcəm. Gəlin, hər birimiz öz şübhə damarımızla əvvəlcə mövzunun içinə girək. Mən “ya ölü, ya diri” qarşıdurmasına şübhə ilə yanaşacam. Mənə elə gəlir ki, bu iki halın arasında da nə isə ola bilər.

– Yaxşı, o zaman hərəmiz bir qarşıdurma götürək. Fərhad müəllimin ev tapşırığına ciddi yanaşaq. Hər birimiz bir əkslik seçək. Və bu əksliyin arasına üçüncünü daxil eləməyə çalışaq, – deyə Hüseyn təklif etdi. – Mənim əks qütbüm qoy “bişmiş-çiy” olsun. Yadınıza gəlir, bu barədə Zərbəli müəllim bizə demişdi...

– Mənimki “gözəl-kifir” olsun. – Zaur bic-bic qımışıb dedi.

– Mənimki də olsun... – Mina sözünü yarıda kəsdi. O heç cür özü üçün əks qütblü bir quruluş tapa bilmirdi, – Mənimki də...

– Səninki də qoy olsun “isti-soyuq” əksliyi. – Hüseyn Minanın dadına çatdı.

– Yaxşı, qoy mənim əksliyim də olsun “isti-soyuq”. Sağ ol, Hüseyn. – Mina Hüseynə minnətdarlıqla baxdı və düşünmədən onun təklifi ilə razılaşdı.

Fərhad müəllim onlara belə bir tapşırıq vermişdi. Hər bir şagird bir əkslik tapmalıdır. Məsələn, “yaxşı-pis”, “səhər-axşam”, “yer-göy”, “çiy-bişmiş”, “ölü-diri”... Sonra bu əks qütblərin arasına üçüncü halı daxil etmək

lazımdır. Ya da belə deyək: daxil etməyə çalışmalısan. Aristotel deyirdi ki, adam ya ölüdür, ya da diridir. Üçüncü hal mümkün deyil. Qeyri-səlis məntiq isə deyir ki, mümkündür.

– Oldu. Sabah hər birimiz öz şübhəmizlə bu iki əks qütb arasına "bəlkə"lərimizi əkək. Bəlkə, o bəlkələr bu səfər bitdi? – Əhmədin bu sözlərindən sonra hamı gülüşərək Minaya baxdı.

* * *

Ertəsi gün qeyri-səlis məntiq dərsi Fərhad müəllimin gözləntisindən daha canlı keçdi. Dostlar bir-birinin ardınca "ya... ya" bağlayıcılar qrupunun yaratdığı quruluşların əks qütblərində yer tutan halətlərin arasına nə ondan, nə bundan olan semantik hallar daxil edə bildilər. Bunun üçün onlar bu günə qədər öyrəndikləri bütün biliklərini işə saldılar.Köməyə ədəbiyyat, tarix, mədəniyyətşünaslıq gəldi. Nəticədə, şübhə damarı qaynadı və əkilən bütün "bəlkə"lər Minanın atasının dediyinin əksinə olaraq bitdi. Niyə belə oldu?! Nə baş vermişdi?!

Sadəcə o vardı ki, uşaqlar Aristotel prinsipinə uğun olan "ya... ya" əvəzlik qrupunun relsindən çıxıb başqa yola düşə bilmişdilər. Bu tamam başqa olan isə "nə... nə..." əvəzlik qrupunun relsi idi. "Nə... nə..." ilə düşünərkən uşaqlar başa düşdülər ki, "nə... nə..." öz arxasınca "ya... ya..."dan fərqli olaraq "bəs nə?" sualını gətirə bilir. "Ya...ya..." qrupunda bu suala gətirən davam yoxdur. "Ya axşamdır, ya səhər" semantikası belə suala

yer qoymur. “Nə axşamdır, nə səhərdir” cümləsinin isə “bəs nədir?” davamı vardır. Onun cavabı “bəlkə, günortadır” halıdır. “Bəlkə, qürubdur” vəziyyətidir. Fərhad müəllim deyirdi ki, qeyri-səlis məntiq iki qütbün arasına üçüncünü daxil etməklə dünyada, ətraf mühitdə mövcud olan vəziyyəti daha hərtərəfli və daha səlis ifadə etməyə cəhd edir.

Əhməd bu zaman əlini qaldırıb Fərhad müəllimə belə bir sual vermişdi:

– Fərhad müəllim, siz dediniz ki, Aristotelə görə iki əks qütbün ortasına üçüncü hal daxil edilə bilməz. Mən düzmü başa düşdüm?



**Herodot**

– Bəli, elədir. Aristotel bunu üçüncünün istisnası qanunu adlandırmışdı, – Fəxrəddin müəllim Əhmədə belə cavab verdi. Amma elə buradaca bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. Aristotellə təxminən eyni vaxtda yaşamış və tarixin babası ləqəbini qazanmış görkəmli antik tarixçi Herodota şamil edilən belə bir kəlam var. Herodot deyirmiş: “*Ölmüş adamlar var, diri adamlar var, bir də dənizə çıxan adamlar var”*. Ölmüşlər və dirilər iki ayrı-ayrı qütbdürlər, dənizə çıxanlar isə məlumdur ki, üçüncü hal kimi özünü göstərir. Heredotun bu kəlamını, sadəcə, nəzərə almanızı istəyirəm.

– Aydındı, Fərhad müəllim. İcazənizlə, sözümə qayıdım. Siz həm də dediniz ki, üçüncünün mövcudluğunu ortaya qeyri-səlis məntiq atır və beləliklə bu məntiq vəziyyəti daha obyektiv, daha səlis şəkildə canlandırmağa xidmət edir. Belədir?

– Bəli, belədir, – Fərhad müəllim ancaq indi, cavab verəndən sonra qəflətən anladı ki, Əhməd onun üşün hansı "partlayışı" hazırlayır. Amma artıq gec idi. Əhməd içində mina olan sualı "partlatmağa" ləngimədi:

– Bəs o zaman bu məntiqin adı nə üçün qeyri-səlis məntiqdir? Niyə o daha səlis məntiq adlandırılmadı?

Sinifə sükut çökdü və otaqda rəğbət dolu uğultu gəzdi. Fərhad müəllim anlayırdı ki, bu sualın cavabı yavaş-yavaş, addım-addım qalxmalı olduqları pilləkəni, təxminən, əlli addım birdən irəli tullanaraq keçib getməkdir. Buna baxmayaraq o, Əhmədə və Əhmədin sualını rəğbətlə qarşılayan digər uşaqlara səbirlə qeyri-səlisliyin adı ilə məzmunu arasındakı uyğunluqdan və ilk baxışdakı uyğunsuzluqdan söz açmağa başladı. İlk əvvəl müxtəlif dillərdə qeyri-səlis məntiqin müxtəlif şəkillərdə adlandırılmasından danışdı:

– Baxın, ingilis dilində professor Lütfizadə özü yaratdığı bu istiqamətin adını "fazzi logik" qoymuşdu. "Fazzi" ingiliscə "pırpız" deməkdir. Yəni hamar olmayan məntiq. Mən bunu belə başa düşürəm. Türk dilində bu "Bulanık mantıq" adlandı. Yəni qatmaqarışıq məntiq. Rusca onun adı "Neçetkaya logika" oldu. Bu, Azərbaycan dilində olan adın hərfi tərcüməsidir. Mən özüm də əgər sona qədər səmimi olsam deməliyəm ki, "qeyri-səlis" ifadəsini bu istiqamətin adını adekvat şəkildə təsvir edən bir dil vahidi kimi görmürəm. Hardasa Əhmədin

sualında gizlənən etiraz çalarını mən də bölüşürəm. İndilik isə onu deyim ki, Azərbaycan dilindəki “qeyri-səlis məntiq” adı bu sahənin tanınmış mütəxəssisi professor Rafiq Əliyev tərəfindən irəli sürülmüşdür. Rafiq Əliyev Zadənin ardıcılı və elmi işlərini davam etdirən dünyaca tanınmış bir alimdir. Nə üçün Zadə məntiqinə belə bir ad qoyub – məndən daha yaxşı o özü bunu izah edə bilər. Gəlin onu növbəti dərslərimizin birinə dəvət edək və o bizə Zadə məntiqinin özəlliklərindən, bu məntiqin adı ilə bağlı düşüncələrindən, eyni zamanda, alimin həyatından, şəxsiyyətindən danışsın. Nə deyirsiniz?!

Uşaqlar bir səslə Fərhad müəllimin təklifinə razı oldular. Növbəti dərslərin birinə Fərhad müəllim yaxşı tanıdığı və Zadənin yanında ikən dəfələrlə görüşdüyü Rafiq müəllimin özünü dəvət edəcəkdi.

***Çalışmalar:***

1. “Bəlkə” əkiləndə nə bitə bilər? ”Bəlkə”, yaxud “mümkünlük” düş üncə tərzinin “ehtimal etmək” düşüncə tərzindən fərqi nədir?!

2. “Nə...nə...” bağlayıcı qrupunun “ya... ya...” bağlayıcı qrupundan nə fərqi var? Qeyri-səlis məntiq “nə...nə “ bağlayıcısından niyə istifadə edir?!

3. Professor Zadə “qeyri-səlis məntiq” nəzəriyyəsini hansı universitetdə irəli sürdü?! O universitet barədə nə bilirsiniz?

4. Professor Zadə öz məntiqinin adını ingilis dilində necə adlandırmışdı? Və niyə belə adlandırmışdı?!

5. “Qeyri-səlis məntiq” adını Azərbaycan elminə kim gətirdi? “Qeyri-səlis” ifadəsi burada nəzəriyyənin mahiyyətini ehtiva edirmi?!

## 3-cü fəsil

## Obyektiv aləmdəki və həyatımızdakı əks qütblər və aradakı çalarlar

Əhmədin sualı Fərhad müəllimi xeyli düşündürdü. O, sinifdə var-gəl edə-edə Əhmədin bu sualının izahını davam etdirərək məsələyə bir qədər uzaqdan gəlmək istədi:

– Baxın, uşaqlar, Əhmədin sualını təkrar edirəm. Nə üçün qeyri-səlis məntiq adı bu cür adlanır?! Rafiq müəllim ona bu adı verərkən hansı özəlliyi nəzərdə tutmuşdu. Axı biz deyirik ki, bu məntiq formal məntiqdən daha dəqiqdir. O zaman Əhmədi narahat edən nədir?! Amma əvvəlcə gəlin mənim sizə belə sualıma cavab axtaraq. Bizi əhatə edən ətraf mühit sonsuz dərəcədə rəngli və çoxşaxəlidir. Belədir, ya belə deyil? Məsələn, belə bir misal. Ağla qara arasında nə qədər aralıq rəng çalarları var, elə deyilmi?!

– Elədir, elədir... – Yer-yerdən səslər ucaldı.

– Biz bu ətrafımızdakı dünyanı yüzdəyüz dilimizlə ifadə edə bilirkmi? – Fərhad müəllimin bu sualı bir anlıq sükut yaratdı.

– Bilirik! Niyə bilməyək ki... – sonra yenə səslər bir-birinə qarışdı.

– Bilmirik, – deyə Əhməd sakitcə dilləndi.

Fərhad müəllim, sanki bunu gözləyirmiş kimi Əhmədin cavabından bərk-bərk yapışdı:

– Bəli, bilmirik. Əhməd düz deyir. Bu mümkün deyil. Dilimiz qeyri-səlisdir, real həyatımız qeyri-səlisdir, dünyamız isə öz obyektiv varlığında səlisdir, – Fəxrəddin müəllim Əhmədə təqdiredici nəzər salıb fikrinə davam etdi. – Dünyamız rəngli televizor kimidir. Dilimiz isə onun təsviri zamanı "ağ-qara" televizoru xatırladır. Siz iki rəngdən ibarət bir televizor təsəvvür edə bilirsinizmi?! Qeyri-səlis məntiq bizi məcbur edir ki, biz dünyadakı rəngarəngliyi olduğu kimi təsvir edək, onun hər çalarının adını qoyaq. Heç olmasa buna cəhd göstərək. Deyin görüm, siz Cəfər Cabbarlının "Almaz" pyesini oxumusunuzmu?



**Cəfər Cabbarlı**

– Zərbəli müəllim keçən il onu hamımıza az qala əzbərlətdi...

– Oxumuşuq...

– Hacı Əhməd obrazı yadınızdamı? Onu "yaxşı-pis" qütbünün hansı tərəfinə qoyardınız? O, bir adam kimi yaxşıdır, yoxsa pisdir? – Fərhad müəllim sual sual dalınca verdi.

– Əlbəttə, pisdir. Dərslikdə belə də yazılıb. Birmənalı pisdir! Buna kim şübhə edər?! – Zakir məsələni kökündən vurdu.

– Heç vaxt birmənalı "pis" deməyin. Birmənalı "yaxşı" da deməyin.

– Bəs nə deyək, Fərhad müəllim?! O axı dağıdıcılıqla məşğul olurdu. Ziyan vururdu... – Zakirin təəccübü hüdudsuz idi.

– İndi gəlin, Hacı Əhməddən aralanaq və “Sevil” pyesindəki İmamyara baxaq, – Fərhad müəllim tələsmədən lövhənin önünə keçdi. – Özü də bu biri tərəfdən baxaq. Hacı Əhməd kimi o da malı-mülkü əlindən alınmış, həyatın dibinə atılmış bir şəxsdir. O, təbii ki, qisas haqda düşünür. Sovet hakimiyyətinə qarşı fəaliyyət göstərməsi də bununla əlaqəlidir. Sovet ideologiyası da, öz növbəsində, təbii ki, onu düşmən hesab edir və özünün pis bildiyi adamların cərgəsinə atır. Sovet dövrü dərslikləri bunu başqa cür izah edə bilərdimi, bilməzdi.

Sinifdə yenə də sükut hökm sürməyə başladı. Fərhad müəllim bu dedikləri ilə uşaqları düşündürə bilmişdi. Doğrudan da, niyə axı İmamyar pis adam olmalı idi?! Axı o, sovetlər gələnə qədər normal insan kimi yaşayırdı?! Belə deyil?! Belədir!

– Baxın, – Fərhad müəllim hiss etdi ki, uşaqların beynində əksliklər toqquşmağa başlayıb, bundan məmnun oldu və bir qədər də dərinə getmək istədi. – Baxın, başqa birisinin gözündə Hacı Əhməd axı qatı pis olmaya bilər, belədir, ya belə deyil?

– Belədir...

– Əlbəttə...

– Ola bilər...

– Məsələn, mənim gözümdə...

Səslər yavaşdan, amma getdikcə artan qətiyyətlə gəlməyə başladı. 8 “B” yenə də uğuldamağa başladı. Fərhad müəllimin yaratmaq istədiyi şübhə toxumları, deyəsən,

bitməyə başlayırdı. O, sözünə başlayan kimi səslər kəsildi:

– O zaman biz Hacı Əhmədi tam səlis olaraq “yaxşı-pis” qütblərinin hansında yerləşdirə bilərik? Bir az da dəqiq danışsaq, 100-lə ölçülü rəqəmin 50-si müsbət, 50-si mənfi çalarlıdır. Əgər kimsə İmamyarı 30 faiz müsbət sayırsa, o biri 70 faiz də mənfi olacaq.

– Bəli, müəllim, elə çıxır... – sinfə birdən-birə çökmüş sükutun içərisindən Hüseynin zəif səsi eşidildi.

– O zaman “ya pis, ya yaxşı” daha səlisdir, yoxsa “otuz faiz müsbət, yetmiş faiz mənfi?” Qeyri-səlislik, uşaqlar, əslində, daha səlis məntiqdir, daha dəqiq məntiqdir, dəqiqliyə, səlisliyə ən azından can atan məntiqdir. Əgər dilimiz tam olaraq bizə bunun ifadəsini (təsvirini) verə bilmirsə, bu bizim düşüncəmizin günahı deyildir, gəlin boynumuza alaq ki, bu bizim dilimizin, bizim günahımızdır. İndi deyin görək, siz həyatda bu ikili qütblərin hər hansında yüz faiz qərar tutan bir dəyər tanıyırmısız?

– Belə çıxır ki, bu mümkün deyil, – Əhməd cavab verdi.

– Bəli, bizim həyatımızda bu, mümkün deyil. Bizlərdən heç birimiz belə bir mütləq dəyərə malik ola bilmərik. Ancaq aləmləri yaradan Allah 100 faizli dəyərə malik ola bilər... – Fərhad müəllim qətiyyətlə söylədiyi bu fikirdən sonra sinfə diqqətlə göz gəzdirib dediklərinin uşaqlara necə təsir etdiyini anlamağa çalışdı.

Uşaqların diqqəti bir istiqamətə cəmlənmişdi. Onlar Allahla təmasın bu fənn vasitəsilə bu cür mümkün olmasının dadını hiss etmişdilər.

Fərhad müəllim sinif otağına çökən bu sükutdan xüsusi ləzzət ala-ala bugünkü dərsin əsas hissəsinə keçid eləməyə başladı:

– Dediklərimizi heç vaxt unutmayın.

Uşaqlar bir-birilə baxışaraq Fərhad müəllimin dediklərini yaddaşlarına həkk eləməyə hazırlaşdılar.

– Belə... İndi də gəlin dərsimizin sonunda heç olmasa bəzilərinizin iki əks qütbün arasına Aristotelin üçüncünün istisnasını necə yerləşdirməsilə tanış olaq. Keçən dəfə mənim verdiyim tapşırığa kimlər hazırdır?! Kim başlamaq istəyir?

Hüseynin əli hamıdan əvvəl göyə qalxdı. O cavab verməyə tələsirdi. Fərhad müəllim gülümsədi:

– Buyur. Gəlin Hüseyndən başlayaq. Dinləyirik səni, Hüseyn.

Hüseyn ayağa qalxdı. Düşündüklərini dilə olduğu kimi gətirmək, dil vasitəsilə düşündüklərini yüzdə yüz ifadə eləmək, o artıq bilirdi ki, asan olmayacaq. Bəlkə, bu heç mümkün də deyil. Amma Hüseyn yenə də nəzərdə tutduğu ikili əks qütb və onların arasındakı istisnanın özünün istisnası barədə düşündüklərini Fəxrəddin müəllimlə və bütün siniflə bölüşməyə başladı:

– Mənim nəzərdə tutduğum ikili əks qütb "çiy və bişmiş" qütbləridir. Biz hər hansı bir yeməli məhsula bu baxışdan yanaşa bilərik. Meyvələri çiy və ya bişmiş halda yeyə bilərik. Amma əti... bu mümkün deyil. Qədim insanlar isə onların əsas yemək məhsulları olan əti, əlbəttə ki, çiy halda yeyirdilər. Sonralar insanlar mədəniləşdikcə, od kəşf ediləndən sonra onlar əti bişirib yeməyə başladılar. Bununla da mədəniyyət dövrünə qədəm qoymuş oldular.

– Noolsun? – Zakir yerindən danışdı. – Mən Türkiyədə olanda restoranda gördüm ki, menyuda çiy ət var. Qiyməti də bişmiş ətdən ucuz deyil ki, bahadır. Çiy əti bu gün də ləzzətlə yeyənlər var. Ha-ha-ha...

Zakirin bu yersiz atmacasına heç kim fikir vermədi. Hamının diqqəti Hüseyndə idi.

– Zakir düz deyir, – Hüseyn Zakirlə razılaşdı. – Bu gün də müxtəlif xarici ölkələrdə restoranlarda çiy ətə rast gəlmək olar. Amma iki əks qütb üçün bugünkü çiy ətin müxtəlif xalqların menyusunda olmasının mənası yoxdur. Söhbət "çiy" dəyərdən və "bişmiş" dəyərdən gedir. Restoranda əgər siz ət sifariş vermisinizsə, sizdən heç soruşmayıblarmı ət necə bişsin?! Yarıbişmiş, yoxsa tam bişmiş, yoxsa yarıçiy, bir az bişmiş, qanlı, ya da qansız olsun, deyə sual verməyiblərmi? Bu hallar orta hallar ola bilməzmi?! Beləliklə, biz iki əks qütbdən – çiy və bişmiş kimi kəskin qütblərdən bu şəkildə uzaqlaşmış oluruq. Bunların arasında cürbəcür başqa halların da olması, deməli, mümkün imiş...

– Dilimizlə biz bütün bu mümkünləri təsvir edə bilərikmi? – Fərhad müəllim Hüseyndən soruşdu.

– Yox, Fərhad müəllim, təsvir edə bilmərik. Bişmiş, yaxud çiy ətin arasında sonsuz sayda halətlər ola bilər. Onların adı dilimizdə hələ ki yoxdur.

– Doğrudur, – deyə Fərhad müəllim onunla razılaşdı və əli ilə işarə etdi ki, Hüseyn yerinə otursun.

Beləliklə, Hüseyn sözünü bitirərək yerinə oturdu. Gözü ilə ondan iki cərgə irəlidə oturan Əhmədə baxdı. Əhməd yumruq sıxıb baş barmağını qaldırdı, bu, "əla!" demək idi. Hüseyn gülümsədi. Dostunun təqdiri onun üçün çox qiymətli idi.

Fərhad müəllimin üzünün ifadəsindən göründü ki, o, Hüseynin cavabından xeyli razı qalmışdır. Bir qədər otaqda gəzişəndən sonra müəllim yenə də sinfə nəzər saldı. Əli ilə Minaya işarə etdi. Növbə Minaya çatmışdı.

Bu dəfə Mina ayağa qalxıb öz düşüncələrini bölüşməyə başladı:

– Mən əks qütblər olaraq “isti-soyuq” qarşılığını seçmişəm, – Mina dedi. – Bu iki əks qütbün arasında da başqa hallar yerləşdirilə bilər. Məsələn, “ılıq” sözü nə istidir, nə də soyuqdur. Yaxud “sopsoyuq” və “ipisti” sözlərini götürək. Bu sözlər də istilik-soyuqluq xəttində keçici dəyərlər kimi özünü göstərə bilər...

Fərhad müəllim Minanın da çıxışından razı qaldı. O dedi:

– Bəli, Mina, müşahidən doğrudur. “İlıq” sözü iki əks qütb kimi özünü göstərən “isti-soyuq” qütbləri arasında əsl üçüncü haldır. Yaxşı misal tapmısan. İndi də növbə... Zaurundur, – Fərhad müəllim sinfə göz gəzdirib gördü ki, Zaurun əli həyəcandan titrəyə-titrəyə havada qalıb, sözü ona verdi.

Zaur dedi:

– Mən üçüncünün axtarışına “gözəl-kifir” qütbləri arasında çıxmışam.

Sinifdən xəfif gülüş səsləri eşidildi.

– Nolar, “gözəl-kifir” qütbləri də maraqlı əkslikdir, – Fərhad müəllimin dodağı qaçsa da, o, ciddiliyini saxlamağa çalışdı. – Buyur, Zaur, sənin fikrin, görürsən ki, hamımız üçün çox maraqlıdı. Sən buyur, sözünə davam elə.

Zaur sözünə davam elədi:

– Gülmək lazım deyil. Kifir və gözəl dəyərləri, təəssüf ki, bizim aramızda ancaq və ancaq xarici gözəlliyinə görə seçilir. Mənəvi gözəllik və mənəvi kifirlikdən isə, adətən, söhbət getmir, – Zaur çox ciddi bir tərzdə danışırdı.

Sinif sakitləşdi.

– Əgər biz bu iki qütbü, yəni “gözəl və kifir” qütblərini əkslik kimi qəbul etsək, o zaman onların arasında yer tutan “yaraşıqlı” sözünü də nəzərə almalıyıq. “Kifir”ə yaxın “eybəcər” sözü də burada özünü göstərəcək. “Qəşəng” sözünü də yada sala bilərik. Deməli, belə nəticəyə gələ bilirik ki, “gözəl” və “kifir” qütbləri arasına hətta bir yox, bir neçə hal yerləşdirilə bilər. Bu xətti belə düzənləyə bilərik: “gözəl –yaraşıqlı – qəşəng – eybəcər – kifir”. Deməli, Fərhad müəllim, belə çıxır ki, biz əks qütblərin arasına bir söz deyil, bir neçə söz hətta əlavə edə bilərik. Dilimiz buna imkan verirmiş. Aristotel isə hətta üçüncü halın olmasını istisna edirdi.

– Doğrudur, Zaur, sənin misalın çox məzmunlu bir misaldır, – Fərhad müəllim Zaurla razılaşdı. – Deməli, deyirsən ki, biz sadəcə üçüncünü deyil, dördüncünü və hətta beşincini də əks qütblər arasına yerləşdirə bilərik. Dilimiz bizə nə qədər imkan verirsə, o qədər sayda da ara dəyərlər ortaya qoyulmuş olur. Maraqlıdır. Amma unutmayaq ki, dilimizin imkanlarından əlavə də sonsuz sayda ara dəyərlər var. – Fəxrəddin müəllim uşaqları bir qədər də hərəkətli olmağa sövq etmək istədi. – Sən də misal gətirmək istərsənmi, Əhməd? – Fərhad müəllim bu dəfə üzünü Əhmədə tutaraq soruşdu.

– Bəli, Fərhad müəllim, mənim də misalım var, – Əhməd oturduğu yerdən ayağa qalxdı. Bütün sinif maraqla ona baxdı. – Mənim misalım “ölü-diri” əksliyinin üzərində qurulmuşdur.

– Buyur, bu ən çətin əkslikdir deyə bilərik. Ondan hələ Aristotel istifadə edirdi. Necə deyirdi bu dahi insan, yadınızdamı?! O deyirdi ki, insanlar ya ölü ola bilər, ya da diri. O öz misalında müəlliminin müəllimi, digər dahi filosof Sokratın adından istifadə edirdi. Onun misalı belə

idi: Sokrat ya ölüdür, ya diri. Üçüncü hal istisna edilir. Görək Əhməd bu iki əks qütbun arasına üçüncünü necə yerləşdirəcək?! – Fərhad müəllim şübhəli-şübhəli gülümsədi. Əhmədin misalı onun özü üçün də son dərəcə maraqlı idi.

Əhməd ayağa qalxıb sözünə belə başladı:

– Mən əvvəlcə ən qədim dastanımız, oğuz türklərinin mənəvi abidəsi olan "Kitabi-Dədə Qorqud"dan bir epizodu sizin yadınıza salmaq istəyirəm.

Sinif nəfəsini dərdi. Milçək uçsaydı, səsi eşidilərdi. Hamı bilirdi ki, Əhməd ədəbiyyat aşiqidir, onların sevimli müəllimləri, ölkədə tanınmış pedaqoq Zərbəli müəllimin sevimli şagirdidir. İndi də hamı ondan maraqlı bir yozum gözləməyə hazırlaşdı. Hətta Fərhad müəllimin maraqdan gözləri də qıyıldı.

Əhməd balaca bir pauza verib (buna teatral pauza da demək olardı) sözünə belə davam etdi:

– Mən sizin yadınıza Qanturalı boyunu salmaq istəyirəm. Qanturalı Trabzona səfər edib Sarı donlu Selcan xatunla evlənmək üçün üç vəhşi heyvanlarla – aslanla, buğa ilə, buğra ilə vuruşub onlara qalib gəlməlidir. O bunu edir. Qızın atası söz verdiyi üçün istər-istəməz qızını Qanturalıya ərə verir. Sevgililər Oğuz elinə geri dönürlər. Yolun ortasında onlar dincəlmək üçün dayanaraq kiçik bir düşərgə qururlar. Amma bu zaman Sarı donlu Selcan xatunun atası artıq peşman olmuşdur. Və o, qızını geri qaytarmaq üçün onların arxasınca silahlı dəstə göndərir. Belə olarkən çox qəribə bir hadisə baş verir. Atasının qoşunu onlara gəlib çatmamış Qanturalı uzanıb yuxuya gedir. "Dədə Qorqud" mətnində qəhrəmanın bu cür yuxuya getməsilə bağlı maraqlı bir deyim var. O deyim budur: "Ol zamanlar yatanda oğuz yigitləri

yeddi gün, yeddi gecə yatardılar. Adına "kiçicik ölüm" deyərlərdi!" Dastanın digər qəhrəmanı Salur Qazan özü də başqa boyda bu cür ağır yuxuya gedir. Bundan istfadə edən düşmənləri onu əsir edib aparırlar.

Sinfin müxtəlif yerlərindən təəccüb dolu səslər ucaldı:

– Necə, necə deyərlərdi?..

– "Küçücük ölüm"?

– Bu qədər də yatmaq olar?..

– Yeddi gün, yeddi gecə?..

Sinifdə suallar dolu kimi yağmağa başlamışdı.

– Bəli, bəli, belə bir halın adı var idi. Ona "küçücük ölüm" deyirdilər. Selcan xatun nə qədər çalışır ki, Qanturalını yuxudan oyatsın, mümkün olmur. Məcbur olub özü atasının qoşunu ilə savaşa çıxır, – Əhməd çalışdı ki, bütün suallara birdən aydınlıq gətirsin.

– Çox maraqlıdı. "Küçücük ölüm" deyirsən, eləmi?! – Fərhad müəllim fikrə getdi.

– Mənim fikrimcə, Fərhad müəllim, "küçücük ölüm" dedikləri bizim bu gün tibb sahəsindən yaxşı tanıdığımız koma vəziyyətidir. Nə ölüdür, nə diridir. Ona görə də mən düşünürəm ki, "ölü-diri" qütblərinin arasına üçüncü hal kimi hələ qədim dastanımız olan "Kitabi-Dədə Qorqud"da özünü göstərən və "küçücük ölüm" adı ilə ifadə edilən "koma" halını daxil etmək mümkündür. Nə ölüdür, nə diridir, bəlkə, komadadır?! – Əhməd sözünü bitirib susdu.

Fərhad müəllim Əhmədə yaxınlaşdı. Əlini onun çiyninə qoyub nəvazişlə sıxdı. Əhməd yerinə oturdu. Hamı anladı ki, Fərhad müəllimin özü üçün də belə bir misal gözlənilməz və son dərəcə əhəmiyyətli olmuşdu. Əvvəlki şübhəli halı onu büsbütün tərk eləmişdi. O, Əhmədə müraciətlə dedi:

– Əyləş, Əhməd, çox gözəl misal tapmısan. Mən onu yadımda saxlayacağam, – bunu dedikdən onra Fərhad müəllim üzünü bütün sinfə tutdu:

– Əhmədin misalı bir daha onu göstərdi ki, biz "Kitabi-Dədə Qorqud" kimi dastanlarımızın dilinə xüsusi diqqət yetirməliyik. Bu dastanların dərin, gizli potensialında təsəvvür belə etmədiyimiz maraqlı mənalar gizlənib...

Zəngin vurulmasına az qalırdı.

– Uşaqlar, – Fərhad müəllim dərs boyu deyilənləri artıq yekunlaşdırmaq istədi, – sizin gətirdiyiniz hər bir misal göstərir ki, Aristotel məntiqinin üçüncünü istisna qanunu Zadə məntiqi qarşısında acizdir. Əslində, üçüncünü istisna yox, üçüncünün istisnasının özünün istisnası olmalıdır. Zadə bununla nəyi sübut edir? Onu sübut edir ki, biz bu cür düşünürüksə dünyamızdakı rəngarəngliyi daha adekvat əks etdirməyə çalışırıq. Əksliklər arasında heç nə ola bilməz prinsipindən uzaqlaşırıq. Deyirik ki, əks qütblərin arasında uçurum yox, qırılmaz xətt var, milyonlarla, bəlkə də, sonsuz sayda keçid nöqtəsi var. Seçim imkanımız genişlənir. Biz, beləliklə, daha... kim deyər, nə oluruq?

Zakir yenə dözmədi və bu dəfə də hamını qabaqladı:

– Daha ağıllı... oluruq?!

– Bu öz yerində. Amma hər şeydən öncə daha tolerant oluruq, daha demokratik oluruq.

Sinfə sükut çökdü. Fərhad müəllim yenə də uşaqların diqqətini bir yerə cəm edə bilmişdi.

Zəng vuruldu.

– Bu barədə daha geniş şəkildə gələn dəfə... – Fəhad müəllim sözlərinə son verdi. – Əhməd, sən isə yoldaşlarınla – Hüseyn, Mina və Zaurla bir yerdə, "niyə biz qey-

ri-səlis məntiq vasitəsilə daha demokratik oluruq?" sualına cavab axtarın. Daha doğrusu, necə olur ki, demokratiyaya meyil dilimizdə, abidələrimizin dilində özünü göstərir?! Siz isə, uşaqlar, Əhmədin misalını unutmayın. O misalın işığında yanaşın məsələyə. Gələn dərsimizdə bu suala cavablarınızı hamılıqla dinləyəcəyik.

***Çalışmalar:***

1. Daha hansı əsərdə bizim mənfi tanıdığımız personaj dövrünün basqısı altında bu adı qazanmışdı, amma o, əslində, tam mənfi deyildi, onun müsbət cəhətləri də var idi?
2. Demokratiyanın hansı vacib əlamətlərini saya bilərsiniz? Qeyri-səlislik baxımından bu əlamətləri necə izah edərdiniz?!
3. "Kitabi-Dədə Qorqud" dastanında hansı qəhrəmanlar "küçücük ölüm"lə yatmışdılar? Müasir tibbdə bu necə adlanır?!
4. Qanturalının qalib gəldiyi üç vəhşi heyvan hansılardır?
5. "Dədə Qorqud" dastanındakı "ol zamanlar" ifadəsinin səciyyəvi xüsusiyyətləri hansılardır? Və müxtəlif zamanların müqayisəsi bizi qeyri-səlislik müstəvisinə necə gətirir?!

# 4-cü fəsil

## Rafiq müəllimlə görüş



**Rafiq Əliyev**

Amma demokratiklik və qeyri-səlis məntiq məsələsi gələn dərsdə müzakirə olunmadı. Bunun öz səbəbi vardı. Növbəti dərsə Fərhad müəllim tək gəlmədi. Onun yanında ortaboylu, saşları ağappaq ağarmış, üzündən, gözündən ciddilik yağan, buna baxmayaraq, gözlərinin dərinliyində mehriban bir istilik hökm sürən bir nəfər də vardı. Havaların hələ tam soyumadığı halda o, qapqara, isti boğazlı yun cemper geyinmişdi. Soyuqdan qorxan adama oxşayırdı. Fərhad müəllim Rafiq müəllimi şagirdlərə belə təqdim etdi:

– Uşaqlar, tanış olun. Haqqında danışdığımız Rafiq müəllim sizinlə görüşə gəlmişdir. Mən sizə demişdim, o, dünyaca məşhur professordur. Azərbaycan Elmlər Akademiyasının üzvüdür. "Qeyri-səlis məntiq" elminin yaradıcısı Lütfizadənin ardıcılı və elmi varisidir. Sevimli tələbəsi də deyə bilərik. Rafiq müəllim dəfələrlə Lütfizadə ilə Amerikada görüşmüş, onlar birlikdə monoqrafi-

yalar, məqalələr yazmışlar və Lütfizadə ölümündən sonra öz elmi irsi ilə məşğul olmağı ona vəsiyyət etmişdir. Rafiq müəllimə təşəkkür edirik ki, məktəbimizə sizinlə görüşməyə gəlib.

Uşaqlar üzlərində-gözlərində dərin maraq ayağa qalxıb əl çalaraq qonağı səmimiyyətlə salamladılar. Rafiq müəllimin təkidli israrı ilə Fərhad müəllim keçib öz yerində əyləşdi. Rafiq müəllim sinif otağında cərgələr arası ilə aramla gəzişməyə başladı. Gəzişə-gəzişə uşaqlara müraciət edərək onları salamladı və sözünə belə başladı:

– Salam, uşaqlar, hamınızı xoş gördük. Əvvəla, dəvətinizə görə sizə çox-çox təşəkkür edirəm. Dəvətiniz mənim üçün çox qiymətlidir. İkinci isə onu demək istəyirəm ki, siz məni çox sevindirmisiniz.

8 “B”nin uşaqları təəccüb içində bir-birilə baxışdılar.

– İndi soruşacaqsınız, necə olub ki, siz məni sevindirmisiniz, – deyə Rafiq müəllim sinfə əvvəlcə ötəri göz gəzdirdi və beləliklə, şagirdlərin tərəddüd və təəccüb dolu əhvalını bəri başdan hiss etdi. Sonra onun iti baxışları sinfi bir daha, bu dəfə diqqətlə gözdən keçirdi. Və daha sonra o yenə də əvvəlki təmkinlə sözünə davam etdi. – Fərhad müəllim mənə deyəndə ki, sizin məktəbinizdə “Qeyri-səlis məntiq” adlı fənn tədris olunur – mən çox sevindim. Bu bizim orta məktəblər sistemində bir ilkdir. Məlumat üçün sizə deyim ki, Amerikanın, Avropa ölkələrinin, Koreyanın, Çinin, Yaponiyanın bir sıra məktəblərində bu fənn uğurla tədris olunur. Bizdə də bu proses başlandısa, buna yalnız sevinmək olar. Sizi də, məktəbinizi də bu münasibətlə təbrik edirəm.

Uşaqların üzünə məmnunluq ifadəsi qondu. Onların hər biri qəlbinin ən dərin guşəsində bu “ilk”ə imza atdığına görə sevinirdi. Rafiq müəllim belə bir girişdən sonra bu qərara gəldi ki, onlara hər şeydən əvvəl Lütfi Zadədən, onunla bağlı şəxsi xatirələrindən danışsa, daha yaxşı olar, beləliklə, ünsiyyət daha tez qurular. Və o söhbətinin əvvəlində Lütfizadənin Azərbaycanla bağlılığının müxtəlif məqamlarını diqqətə çatdırmaq istədi. Rafiq müəllim yenə də söhbətinə sinifdə cərgələr arası gəzişə-gəzişə davam etdi:

– Siz, uşaqlar, yəqin, bilirsiniz ki, dünyaca məşhur alim, qeyri-səlis məntiqin yaradıcısı Lütfi Zadə etnik mənsubiyyətinə görə azərbaycanlıdır. O, Bakı şəhərində 1921-ci ildə doğulmuş, ilk məktəbə burada getmişdir. Daha sonra 1931-ci ildə sovetlərin qurulması və möhkəmlənməsilə bağlı tale onun ailəsini buralardan uzaqlaşdırmış və onlar ailəlikcə İrana köç etmişdilər. Burada o, Amerikan məktəbində dərs almış, ilk növbədə özünün ingilis dilini təkmilləşdirmişdir.



**Norbert Viner**

Daha sonra 2-ci Dünya müharibəsindən bir qədər əvvəl ata-anası da, gənc Zadə də İrandan Amerikaya köçürlər və burada o, məşhur Massaçusets Texnoloji İnstitutunda təhsilini davam etdirir. Sonra onu Kolumbiya Universitetinə dəvət edirlər və gənc Zadə orda elektrik energiyası ilə bağlı elmi işlər apararaq

fəlsəfə doktoru dərəcəsini qazanır. Bu dövrdə Zadə öz elmi fəaliyyəti ilə kibernetikanın atası sayılan Norbert Vinerin əsas elmi ideyasını bir qədər də genişləndirir. Viner onun diqqətini cəlb edən bu gənc alimin elmi potensialını yüksək qiymətləndirir. Vinerin təklifi ilə Zadəni Kaliforniyadakı Berkli Universitetinə "Elektrik və kompüter mühəndisliyi" kafedrasına müdir olaraq dəvət edirlər. Və ömrünün axırına kimi o bu universitetdə əbədi professor olaraq çalışır. Və yeganə hal kimi onu da qeyd etmək lazımdır ki, bu universitetdə hələ sağlığında onun adına elmi tədqiqat institutu yaradılır. Haman institut bu gün də fəaliyyət göstərir və dünyada qeyri-səlis məntiq nəzəriyyəsi və texnologiyasının Məkkəsi hesab olunur. Bu bütün azərbaycanlılar üçün əsl qürur mənbəyidir desək, səhv etmərik.




**Prof.Lütfi-Zadənin Bakı şəhərində Fəxri Xiyabandakı məzarı**

Həyatının sonlarına yaxın Zadə qəlbinin səsinə qulaq asaraq doğulduğu Bakı şəhərini gəlib ziyarət edir. O, Bakıya Azərbaycan hökumətinin dəvəti ilə gəlir, burada Azərbaycan Prezidenti ilə görüşür və ona elmi fəaliyyətinə görə Azərbaycanın yüksək mükafatı – ordeni təqdim edilir. Zadə Bakıdan böyük təəssüratla ayrılır. Azərbaycanda baş verən geniş siyasi, iqtisadi, mənəvi inkişaf Zadəni xeyli təsirləndirir. Onu

deмək kifayətdir ki, ömrünün sonlarına yaxın Zadə öz vəsiyyətində Bakıda dəfn edilməsini xahiş edir. Onun bu arzusunu Azərbaycan dövləti yerinə yetirir. Zadənin məzarı bu gün Fəxri Xiyabandadır.

Rafiq müəllim nəfəsini dərdi. Zadə ilə ilk görüşü, sonrakı görüşləri, gecə yarısınacan uzanan səmimi söhbətləri kinolenti kimi Rafiq müəllimin gözləri önündən sürətlə keçdi. Bu böyük insanın vətən sevgisi, öz xalqının tanıyıb bildiyi elm adamlarına isti, təmənnasız münasibətinin görüntüləri barədə düşündü. Sinifdə sakitlik hökm sürürdü. Rafiq müəllim yaranmış bu sükutu Zadə şəxsiyyətinə olan hörmətdən doğduğunu anlayırdı və o düşündü ki, indi də uşaqlar üçün Zadə elminin dünyanın müxtəlif ölkələrində yayılmasından söhbət açsa, bunun effekti daha təsirli olar. Və Rafiq müəllim sözünə belə davam etdi:

– Professor Zadə Berkli Universitetində çalışdığı zaman 1965-ci ildə uzun illər beynində formalaşdırdığı bir ideyanı jurnal məqaləsi kimi nəşr etdirdi. Bu məqalə “Qeyri-səlis çoxluqlar” haqqında idi. Məqalə o saat Amerikanın elmi ictimaiyyətinin diqqətini cəlb etdi. Amma onu da demək lazımdır ki, Zadənin kəşfi o zaman birmənalı qarşılanmadı. Onun fikirlərinin tərəfdarları olan kimi əleyhdarları da oldu. Onu da istəyirəm biləsiniz ki, elmin inkişafı boyu düz, hamar yolla heç kim irəliləməyib. Yeni sıçrayış həmişə özünə qarşı əks-hücumları da formalaşdırıb. Böyük zəka xadimlərinin bir üstünlüyü də ondadır ki, onlar heç bir çətinliyə baxmadan bu daşlı-kəsəkli yolu səbatla, dözümlə, mərd-mərdanə keçə biliblər. Zadə də



**Nyuton**



**Nils Bor**



**Eynşteyn**

belə zəka sahiblərindən biri idi. Bu gün təsadüfi deyil ki, onun adı Nyutonun, Eynşteynin, Borun adları ilə bir cərgədə çəkilir. Bununla biz hamımız öyünə bilərik.

Zakirin düşüncəli halda yavaş səslə dediyi "kişi adam olub" sözlərini sinifdə hökm sürən sakitliyin içində hamı eşitmədimi, eşitdi. Xəfif gülüş səsləri otağı bürüdü.

Rafiq müəllim yüngülcə gülümsəyib söhbətinə davam etdi:

– Zadə nəzəriyyəsindən doğan biliklərin real həyatımızda özünə yer tapması ilk dəfə Uzaq Şərqdə baş tutdu. Yaponiyada 1970-ci, xüsusilə 1980-cı illərdə baş verən istehsal inqilabının real məhsulları – yeni nəsil paltaryuyan maşınlar, fotoaparatlar, televizorlar və başqa məişət əşyalarının işləmə prinsipinin əsasında qeyri-səlis məntiq durdu. Qeyri-səlis məntiqdən

dəmiryolu sistemində, təyyarələrin uçuşunda, kosmik fəzanın fəth edilməsində istifadə edilməsi prosesi başlandı. Zadənin nəzəriyyəsi dünyanın aparıcı elmi istiqamətinə döndü. İstəyirəm, siz bir məsələni də biləsiniz. Hər hansı elmi ixtiraya, yaxud elmi düşüncəyə münasibət onların əks olunduğu elmi əsərə olan münasibətlə formalaşır. Bu münasibət həmən elmi əsərə digər müəlliflər tərəfindən edilən istinadlar vasitəsilə müəyyənləşdirilir. Hər hansı bir elmi əsərə istinad nə qədər çoxdursa, bu onun elmi dairələrdə, elmi düşüncələrdə nə qədər böyük yer tutmasına işarədir. Zadənin nəzəriyyəsinə olan istinad bu gün artıq milyonu keçmişdir və bu onu göstərir ki, onun nəzəriyyəsi hələ də geniş elmi cameənin diqqət mərkəzindədir və bu nəzəriyyənin fizika elminə, mühəndislik sahəsinə, ümumiyyətlə, müxtəlif elm sahələrinə verdiyi perspektiv, faydalı impulslar, təkanlar elmi-intellektual dəyər baxımından qiymətsizdir. Bu nəzəriyyə bu gün də öz elmi-tətbiqi əhəmiyyətini itirməmişdir. Cəsarətlə demək olar ki, bu nəzəriyyə fizikadan xaric kimyada, informatikada, biologiyada, tibbdə və bir sıra başqa dəqiq elm sahələrində öz izini qoymaqdadır. Amma bilirsinizmi, Zadənin qeyri-səlis məntiqlə bağlı ən böyük arzusu nə idi?!

Rafiq müəllim susub sinfi gözdən keçirdi. Əlbəttə ki, onun sualı ritorik səciyyə daşıyırdı və Rafiq müəllim öz sualına bir başqasından cavab gözləmirdi. Amma orta cərgədə bir oğlan əlini qaldırıb söz istədi. Bu, Əhməd idi.

– Buyur, sən nə isə demək istəyirsən...

– Sualım var, müəllim. Adım Əhmədddir, – Əhməd ayağa qalxıb sualını verməyə hazırlaşdı.

– Buyur, Əhməd.

– Rafiq müəllim, siz dediniz ki, Zadənin ideyaları bir çox dəqiq elm sahələrinə uğurla tətbiq olundu. Bəs humanitar elmlər sahəsində belə tətbiqlər oldumu?

Rafiq müəllim Fərhad müəllimlə baxışdılar. Hər ikisi öz baxışları ilə Əhmədin verdiyi sualı təqdir etdi. Əhməd sualını verdikdən sonra sinfin təqdiredici baxışları altında yerinə oturdu. Rafiq müəllim dedi:



– Sən məni qabaqladın, Əhməd. Əhsən. Əslində, sən mənim sualıma öz sualınla cavab vermiş oldun. Elə Zadənin də ən böyük arzusu bu idi. Qeyri-səlis məntiqin ictimai-sosial elmlərə – ədəbiyyata, dilə, tarixə, mədəniyyətə, folklora, psixologiyaya tətbiqi onu həmişə düşündürmüşdü. Təəssüf ki, onun yaşadığı zaman belə bir tədqiq aparılmadı. Bu gün isə deyə bilərəm ki, artıq onun arzusu yavaş-yavaş həyata keçməkdədir. Özü də təqdirəlayiqdir ki, ustadın bu arzusu Azərbaycanda həyata keçir. Mənim dilçi, qorqudşünas alim Kamal Abdulla ilə bir yerdə yazdığımız iki kitab bu dediklərimə




yaxşı sübutdur. Birinci kitab “Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq” adlanır. İkinci kitabımızın adı isə belədir: “Qeyri-səlis məntiq və dil-nitq”.

Bu istiqamətdə daha bir kitabın müəllifi ədəbiyyatçı alim akademik Muxtar İmanovdur. O da qeyri-səlis məntiq prinsiplərilə folklor nümunələrimizə yanaşmış və maraqlı nəticələrə gəlmişdir.

Rafiq müəllim Fərhad müəllim tərəfə dönüb ona belə bir təkliflə müraciət etdi:

– Fərhad müəllim, yaxşı olardı ki, siz növbəti dərsinizə Kamal müəllimi dəvət edəsiniz. O, qeyri-səlis məntiqin dil və ədəbiyyat sahələrinə tətbiqi ilə bağlı uşaqlara maraqlı fikirlər söyləyə bilər.

Fərhad müəllim onunla razılaşdı:

– Əlbəttə ki, bu çox yaxşı olardı. Rafiq müəllim, onunla əlaqəni sizin vasitənizlə yarada bilərikmi?!

– Bəli, mən sizə yardımçı olaram. Kamal müəllimlə biz indi uşaqlar üçün qeyri-səlis məntiq kitabı üzərində işləyirik. Bu kitabın mahiyyəti belədir: "Riyaziyyatsız qeyri-səlis məntiq". Başqa bir həmmüəllifimiz də var. O da Zadə nəzəriyyəsinin fəal və dərin təbliğatçılarından, mütəxəssislərindən biri kimi dünyada tanınan türkiyəli alim, professor Ziya Səlcuqdur. Biz bir-birimizlə tez-tez görüşüb fikir mübadiləsi aparırıq.

Onu da deyim ki, bu bizim Kamal müəllimlə üçüncü birgə işimizdir. Bəlkə, onunla görüşdən sonra sizin bu ağıllı şagirdləriniz də həmən kitabın yazılmasına öz töhfələrini verdilər?! Mən inanıram ki, elə belə də olacaqdır.

Rafiq müəllim yenə də sinifdə cərgələr arası gəzişməyinə başladı. Elə gəzə-gəzə də danışmağına davam etdi:

– Bilirsinizmi, qəribədi, amma qeyri-səlis məntiqin bu elmlərə, xüsusilə sosial elmlərə tətbiqi ona gətirib

çıxardı ki, bu elmlərin daxili aləmində yeni potensiallar üzə çıxdı. Və onlar müşahidəçini maraqlı perspektivlərə doğru yönəltdi. Bunu artıq dilçilər və ədəbiyyatçılar da təsdiq edirlər. Bu tətbiq yeni perspektiv ideyaların oyanmasını ortaya qoydu. Müxtəlif sinergetik istiqamətlərin üzərinə yeni işıq saldı.

Rafiq müəllim nəfəsini dərdi. Kiçik bir pauzadan sonra sözünü davam etdirmək istəyirdi ki, Zakirin elə yerindəncə icazəsiz narazı səsi ucaldı:

– Sin...sin... Mən başa düşmədim, bu nə deməkdir?

Rafiq müəllim yenə də mənalı-mənalı Fərhad müəllimlə baxışdı.

– Yaxşı sualdı, – o, Zakirin dediyinə münasibət bildirib sözünə davam etdi. – Mən indicə belə bir söz işlətdim: Sinergetika! Sinergetika, uşaqlar, elmi istiqamətdir. Biz ona yanaşma metodu da deyə bilərik. Əslində, o, bir neçə istiqaməti özündə birləşdirir. Məsələn, son zamanlar iki müstəqil elmin birləşməsi halı özünü tez-tez göstərir. Məsələn, biokimya. Məsələn, fiziki coğrafiya. Yaxud dilçilik və mədəniyyət, yəni linqvokulturologiya. Sosiolinqvistika, yəni sosiologiya və dilçiliyin birləşməsindən yaranana elm. Yaxud psixologiya və linqvistikanın bir-birinə yanaşmasından yaranan psixolinqvistika. Bunların birləşməsi xüsusi sinergetik qanunlarla müşayiət olunur.

Amma hər hansı bir elmin sərhədləri daxilində, bunların içində ayrı-ayrı, müstəqil istiqamətlər də bir-birinə yanaşa bilər. Məsələn, dilçilik daxilində leksik-morfoloji, sintaktik-üslubi birləşmələr kimi. Bunları da mikrosinergetik yanaşmalar kimi qəbul etmək olar. *Mikrosinergetik* hadisələri ayırırıqsa, o zaman bir az əvvəl dediyim

kimi ayrı-ayrı elmlərin birləşməsini də ayırmaq olar. Buna da *makrosinergetik* yanaşma deyə bilərik. Baxın, qeyri-səlis məntiq prinsiplərinin dilçiliyə daxil edilməsi sinergetik əks-səda yaradır və belə deyək, bir tərəfdən dilçilik üçün, digər tərəfdən də informatika nəzəriyyəsi üçün yeni-yeni ideyaların meydana gəlməsinə impulslar verir. Bu isə çox maraqlı və perspektivli, tədqiq edilməmiş öyrənmə bucaqları yaradır. Biz bu məsələyə də Kamal müəllimlə birgə yazdığımız *"Qeyri-səlis məntiq və dil-nitq"* kitabında toxunmuşuq. O kitabla yaxından tanış olsanız, sizi maraqlı səyahətə çıxaracaq.

Rafiq müəllim yenə də söylədiklərinə qısa bir ara verdi. Həm istəyirdi ki, uşaqlar onun söylədiklərini, necə deyərlər, "həzm edə" bilsinlər, həm də öz düşüncələrini beynində bir daha götür-qoy eləmiş olurdu. Ona elə gəldi ki, bugünkü ilk tanışlığın giriş hissəsini burada bitirmək olar. Və indi uşaqlara qeyri-səlis məntiqin həyatımızdakı rolu barədə məlumat vermək pis olmazdı. Uşaqlara "qeyri-səlis məntiq gündəlik həyatımızda özünü necə göstərir?" sualına cavab verməyin əsl vaxtıdır. Və Rafiq müəllim sözünə belə davam etdi:

– Bu yaxşı haldır ki, sizə aydın olmayan məqamları sual verib öyrənməyə çalışırsınız. Hər bir dərs monoloq kimi yox, dialoq formasında qurulmalıdır. Bundan yalnız fayda əldə etmək olar. Amma pillələri də bir-bir çıxmaq lazımdır. Sinergetika ilə daha dərin tanışlıq bir qədər sonra özünü göstərəcək. Şübhə etmirəm ki, bu öz əksini sizin proqramınızda tapmışdır. Hər şeyin öz vaxtı var. Heç bir şübhəli məqam qalmayacaq. Mən də dediklərimi, çalışacağam, elə deyim ki, sizin üçün hər şey qeyri-aydınlıq məkanından aydınlıq məkanına

doğru inkişaf şəklində qurulsun. Sinergetika ilə bağlı mənim birdən-birə söz açmağım, bəlkə də, yanlış idi. Hər şeyin öz növbəsi var. Hər mətləbin deyilmə vaxtı olur. Ona riayət edək. Mən çalışacağam, ona riayət edim. Amma əgər yenə pilləkəni birdən-birə qalxmış olsam, siz məni saxlayın. Xüsusilə sən. Nəyi başa düşmək çətin olsa, nə edəcəksən?! Soruşacaqsan, – Rafiq müəllim Zakirin qarşısında durub, əlini onun çiyninə qoydu.

Zakir ayağa qalxmaq istədi:

– Rafiq müəllim, məni bağışlayın, özümü saxlaya bilmədim...

– Qətiyyən üzr istəmə. Üzr istəməyə bir səbəb yoxdur. Sən düz elədin. Bundan sonra da bilmədiyini anındaca deyib öyrənməyə çalışmalısan.

– Oldu, Rafiq müəllim. Amma suallarım çox olacaq, – Zakir bic-bic qımışdı.

Rafiq müəllimin də üzünə təbəssüm qondu. Hiss olunurdu ki, Zakirlə söhbət etmək onun xoşuna gəlir.

– Səninlə razılaşdıq, Zakir. Nə sualın olsa verəcəksən. Biz də çalışacağıq cavab verək. İndi isə uşaqlar, gəlin qeyri-səlis məntiq adlandırdığımız bu sahənin həyatımızda tutduğu yer barədə danışaq.

Rafiq müəllim yenə də cərgələrarası gəzişməyə başladı:

– Bəlkə də, biz çoxumuz hələ də qeyri-səlisliyin həyatımızda tutduğu yeri və mövqeyini doğru-düzgün təsəvvür etmirik. Bəlkə də, bəzimiz bunun hüdudlarını heç təsəvvür belə edə bilmirik.

Sinfə yenə də qulaqdeşən sükut hökmran oldu. Rafiq müəllim bu sükutun içində sözünə belə davam etdi:

– Siz qədim yunan mifoloji tarixinin ölməz heykəl nümunələrindən sayılan “Laokoon və övladlarının ölümü” adlı heykəltaraşlıq əsərinin heç olmasa şəklini görmüsünüzmü? – sualı verəndən sonra Rafiq müəllim ona cavab gözləmədən davam etdi:

– Hər şeydən əvvəl yadımıza salaq. “Laokoon kimdir?” sualına cavab verməyə çalışaq. Sizin Troya müharibəsi barədə hər hansı bilginiz varmı?

Bu sualı verdikdən sonra Rafiq müəllim yenə də sinfə ümumi bir göz gəzdirdi.

– Var. Zərbəli müəllim bu barədə bizə danışıb. Yunan padşahları ilə Troya hökmdarı arasında baş verən savaşdır, – Rəna yerindən cavab verdi.



**Homer**

– Doğrudur. Bəs bu müharibə necə olur sona çatır – bu barədə bilginiz varmı? O axı on il sürmüşdü. Hər halda qədim yunan şairi Homer belə deyir. Onun məşhur “İliada” poeması bu müharibənin təsvirinə həsr olunub. Bu müharibəni yunan qoşunları qazanıblar və Troyanı darmadağın ediblər. Hə, yadınızda varmı bu necə baş verib?

Uşaqlar hərəkətə gəldi. Bir-birinə nəsə deyir, yaddaşlarını təzələməyə çalışırdılar.

Nəhayət, Əhməd əlini qaldırdı və Rafiq müəllimin icazəsi ilə ayağa qalxdı:

– Siz deyən kimi bu müharibə on il davam edib və heç bir tərəf qələbə qazana bilməyib. On ilin sonunda

yunan qoşunları Troya qalasının önündən çəkilb getdiklərini və mühasirəyə son qoyduqlarını troyalılara belə bəyan etdilər. Onlar Odisseyin təklifi ilə nəhəng taxta bir at düzəldib onu hədiyyə kimi şəhərin qala qapılarının önünə buraxdılar. Sonra da, belə bir görüntü yaratdılar ki, guya gəmilərinə minib müharibə meydanını tərk edirlər. Bunu seyr edən sadəlövh troyalılar atı şəhərə dartıb gətirdilər. Onlar bilmirdilər ki, bu taxta atın boş qarnında yunan əsgərləri gizlənmişlər. Gecənin bir aləmi hamı yuxuda ikən bu əsgərlər atın qarnından çıxıb qala qapılarını açır və gizlicə şəhərə yaxınlaşan yunan qoşununu Troyaya buraxırlar. Bundan sonra Troya darmadağın edilir.

– Tamamilə doğrudur, – Rafiq müəllimin gözləri güldü. O sevindi ki, uşaqlar qədim dünya mifoloji tarixinin bu önəmli dövrü barədə  belə məlumatlıdırlar.

– Bəli, uşaqlar, Əhməd deyən kimi sadəlövh troyalıları yunanlar beləcə aldatdılar. Amma Troyada hər kəsmi belə sadəlövh idi?! Bu şəhərdə yunanlara inanmayan heç bir adam yox idimi?

Bu suala cavab gəlmədi. Sinif yenə sükut içində Rafiq müəllimin öz sualına onun özünün cavab verməsini gözlədi.

Rafiq müəllimin cavabı ləngimədi:

– Troyadakı Apollon məbədinin bir kahini var idi. O troyalılara yalvarıb dil tökürdü ki, bu taxta atı şəhərin içinə sürüyüb gətirməsinlər. Belə olarsa, bu at şəhərə bəla gətirəcək. Yunanların hədiyyəsindən qorxmaq lazımdır. Belə bir qədim ibarə də var və o bizim diqqətimizi haman dövrə aparır. “Hədiyyə verən danaylardan

qorxun!" Danaylar qədim yunanların bir başqa adıdır. Onlar heç nəyi əbəsdən etməzdilər.

Atın Troyaya gətirilməsinə qarşı çıxan kahinin adı Laokoon idi. Kamal Abdullanın "Laokoon, Laokoon..." adlı bir romanı da var. Bu dediklərim orada bədii şəkildə təsvir edilir. Kamal Abdulla yazır ki, mən romanımı Laokoona inanan troyalılar barədə yazmışam. Qəribə paradoksdur. Belə troyalılar, demək olar ki, yox idilər. Laokoonun iki oğlu var idi. Və allahlardan birinin, deyəsən, Zevsin zövcəsi Heranın, mənim də yadımda yaxşı qalmayıb, göndərdiyi iki nəhəng ilan Laokoonun və onun övladlarının canına sarmaşaraq onları həlak edir. Sizə danışdığım heykəl Laokoonun və övladlarının canına sarılmış ilanları təsvir edir. Ata və övladları əzab və məşəqqət içində qıvrılır, onların hər bir əzələsi tarıma çəkilmişdir, amma onlar heç nə edə bilmirlər.



**Rodoslu Aqesandr, Polidor və Afinodorun birgə hazırladıqları "Laokoon və oğulları" heykəli**

Zakir yenə də hövsələsizlik etdi. Bu dəfə onun səsində narazılıq çalarları da yox deyildi.

– Bunun qeyri-səlisliyə bir dəxli var?

– Var. İndi deyəcəyəm. Səbrin olsun, Zakir. Laokondan ona görə söz saldım ki, onun son durumunu gözləriniz önündə təsəvvür edə biləsiniz. Çünki bu du-

rum, əslində, qeyri-səlisliyi yada salır. Bizim həyatımızda da qeyri-səlislik canımıza ilanlar Laookona sarılan kimi elə sarmaşıb ki, biz onun müdaxiləsindən heç cür yaxa qurtara bilmirik. Biz təsəvvür belə etmirik ki, həyatımızda, dilimizdə qeyri-səlislik prinsipləri nə qədər böyük yer tutur. Bax, lap elə səni götürək. Etiraz etmirsən?! – Rafiq müəllim gəlib Zakir oturan partanın qarşısında dayandı.

– Bax belə fərz edək ki, sən Zakir bu gün səhər məktəbə gələndə yolda Əhmədlə qarşılaşmısan. Siz salamlaşırsınız və Əhməd səndən soruşur: "Necəsən?" Sanki adi sualdır. Biz bu sualı gün ərzində qarşılaşdığımız çox adama veririk. O bizim üçün avtomatlaşmış bir deyimə dönüb. Amma yenə də fərz edək ki, bu səhər sənin qanın qaradır. Yuxudan kal durmusan, evdə səni danlayıblar, ya da ki dərslərinə yaxşı hazırlaşmamısan... Sən Əhmədin bu sualına nə cavab verəcəksən?

Zakir sağa-sola boylandı:

– Nə cavab verəcəm?! Mən deyərdim: belə də...

– Ay sağ ol. "Belə də..." Bu "belə də..." ifadəsi sənin ozamankı əhvalını nə dərəcədə dolğun təsvir edir? Dəqiq olsaq, "belə də..." nə deməkdir?! Əhməd bunu necə anlamalıdır?

– O, yaxşı yoldaşdısa, bilməlidi ki... yaxşı deyiləm, – deyə Zakir cavab verdi.

– Amma Əhməd də, hər hansı başqa birisi də yaxşı yoldaş olub-olmamağından asılı olmayaraq, "belə də..." ifadəsini istəsək də, istəməsək də təqribi anlayacaqdır. "Belə də..."nin konkret, belə deyək, səlis anlayışı yoxdur. Razısan mənimlə?! Səlis anlaşılmadığına görə də

bax bu ifadə qeyri-səlis olacaq. Başqa bir cavaba müraciət edək. Tutalım, sənin kefin kökdür və sən Əhmədə "yaxşıyam" deyirsən. Ola bilər?

– Ola bilər. Evdə dərslərimə yaxşı hazırlaşmışam. Belə hallar da olur, – Zakir Rafiq müəllimin bir qədər əvvəlki zarafatını davam etmək istədi.

Sinifdə yüngülvari gülüş səsləri eşidildi.

– Zakir, amma dərindən nəzər salsaq, sənin "yaxşıyam" ifadən də tam olaraq səlis olmayacaq. O da qeyri-səlisdir. Nə dərəcədə yaxşısan? Yüz faiz yaxşı ola bilərsənmi, yox, ola bilməzsən. Bəlkə, yaxşıya yaxınsan? Nə dərəcədə yaxınsan? Azmı, çoxmu yaxınsan? Beləliklə, əvvəlcədən deyim ki, sənin, Zakir, istənilən cavabın təqribi, qeyri-səlis olacaq. İstənilən cavabın. Razısan mənimlə?! Siz necə, uşaqlar?! – Rafiq müəllim bu dəfə sinfə müraciət etdi.

8 "B" arı pətəyinə dönmədimi, döndü. Amma Rafiq müəllim bundan rahatsız olmadı. O, istəyinə nail olmuşdu. Uşaqları düşünməyə sövq edə bilmişdi. İndi artıq o qalırdı ki, bu gənc beyinlər qeyri-səlis məntiqin həyatımızdakı yeri ilə bağlı yeni-yeni nümunələri özləri tapsınlar. Nəhayət, yavaş-yavaş hamı sakitləşdi.

– Bax görürsünüzmü, hələ ən adi səviyyədə biz qeyri-səlisliyin həyatımızda və dilimizdə tutduğu mövqeni nisbətən təsvir edə bildik. Tam təsvir edə bildikmi? Yox, edə bilmədik. Edə bilmərik də. Amma yüzlərlə söz, ifadə var ki, biz onlar vasitəsilə dünyanı dərk eləməyin daha zəngin çalarlarını görmək istəyirik.

Əhmədin əli yenə havada oynadı.

– Buyur, Əhməd. Sən, deyəsən, nəsə demək istəyirsən? Buyur, – Rafiq müəllim, sanki əvvəlcədən bilirdi

ki, Əhməd nə deyəcək. Çox sakit və arxayın bir halda sinfin ortasına, yazı lövhəsinin önünə keçdi.

– Rafiq müəllim, bəs əgər bu yeni məntiq növü, hər hansı yöndən olursa olsun, məsələni daha dəqiq ifadə etməyə can atırsa, nə üçün onun adı qeyri-səlisdir. “Daha səlis məntiq” ola bilməzdimi?




– Çox maraqlı sualdır, – Rafiq müəllim cavab verdi. – İstəyirəm biləsiniz ki, “Qeyri-səlis məntiq” ifadəsini mən ilk dəfə özümün Azərbaycan dilində yazdığım “Soft kompyutinq” kitabımda, sonra da “Avtomatik idarəetmə nəzəriyyəsi” adlı dərsliyimdə işlətmişəm. Bilirsiniz ki, ingiliscə bu, “Fazzi logik” adlanır. Bu, Zadənin özünün tətbiq etdiyi termindir. “Fazzi” ingiliscə “pırpız” deməkdir. Suala qayıdaq. Mən Azərbaycan dilində “qeyri-səlis” ifadəsini işlətməklə nə demək istəmişəm?!

– Bilirik, bilirik... – sinifdən yer-yer səslər ucaldı, – Fərhad müəllim bunu bizə deyib.




– Çox gözəl. O zaman belə davam edək. Axı bizim dilimizdə sözlərin, demək olar ki, hamısı qeyri-səlisdir. Zakir Əhmədə görüşdükləri zaman “yaxşıyam” desəydi belə, bu, yenə də qeyri-səlis olacaqdı. Nə qədər yaxşı? Az yaxşı, çox yaxşı, yaxşıya yaxın??? “Yaxşı” anlayışının real həyatı-

mızda çaları az deyil. “Pisəm” cavabı da elə. “Xəstəyəm” cavabı da həmçinin. Hər hansı cavabı istərsəniz verin, o cavab qeyri-səlis olacaq. Qeyri-səlislik əhvalı işlətdiyimiz istənilən sözdə özünü göstərəcək. Ona görə də hər bir söz səlis olduğu qədər də ona daha geniş kontekstdə, əhatədə baxdıqda qeyri-səlis olacaq. Bu mənada, sözlərdə, ifadələrdə, cümlələrdə qeyri-səlisliyin axtarışına həsr olunan elmin adı necə olsa idi, daha doğru olardı?

– Doğrudur, bu ad gərək elə “qeyri-səlis” olaydı... – Zakir dedi və məsələyə bu şəkildə nöqtə qoymaq istədi.

Rafiq müəllim ona açıq-aşkar razılıq hissilə baxdı. Yenə də aramla sözünə davam etdi:

– Düz deyirsən, Zakir. Amma bu o demək deyil ki, dilimizdə qeyri-səlisliyi dəstəkləyən, qabardan xüsusi ifadələr, deyimlər yoxdur. Məsələn, modal sözlər qrupunu götürək. Siz, yəqin ki, bilirsiniz, modal sözlər hansı sözlərə deyilir?!

– Bilirik, keçmişik...

– Deyilənə münasibət bildirir... – uşaqlar bir-birinin sözünü kəsə-kəsə yer-yerdən cavab verməyə başladılar.

– “Doğrudan da”...

– “yəqin ki”...

– “bəlkə”...

Rafiq müəllim uşaqların dediklərini təkrar və eyni zamanda davam etdirməyə çalışdı:

– “Doğrudan”, “yəqin ki”, “bəlkə”, “ola bilər ki”, “çox güman ki...”, “mənə belə gəlir ki...”, “məncə...” Bu sözlər və ifadələr öz özlüyündə dərin semantik qatda məhz qeyri-səlislik bildirirlər. Yaxud sayları götürək. Baxın “bir” deyiriksə, bu səlisdir. “İki” deyiriksə, bu da səlisdir. Amma bunları bir-birinin yanına gətirib “bir-i-

ki” deyiriksə bu artıq qeyri-səlisdir. Biz bu halı, yəni iki səlislik bir qeyri-səlislik verir halını Kamal Abdulla ilə birlikdə yazdığımız kitabda – “Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq” kitabımızda əsaslandırmışıq. Və onu da deyim ki, bu qədim dastanımızda qeyri-səlisliyə aid *çoxlu sayda* misal var.

Rafiq müəllim dediklərinə ara verdi və gülümsədi:

– İndi kim deyər, bu say ki mən işlətdim – “çoxlu sayda”... O, real olaraq nə qədərdir?

– Qeyri-səlisdir, – Əhməd astaca dilləndi.

– Bəli, tamamilə doğrudur. Qeyri-səlisdir.

Rafiq müəllimin bu son sözlərilə dərsin bitdiyinə işarə edən zəngin vurulması eyni vaxta təsadüf etdi.

Uşaqlar Rafiq müəllimi dövrəyə aldılar. Ona cür-bəcür suallar verir, Zadənin həyatı ilə maraqlanırdılar. Onun bir də məktəbə qonaq gəlməsini arzu edirdilər. Rafiq müəllim uşaqları arxayın etdi ki, onlar hökmən bir daha görüşəcəklər.

Dərs, sanki sinifdəkiləri bihuş etmişdi. Onlar qeyri-səlis məntiqin həyatımızdakı rolunu, əhəmiyyətini daha aydın şəkildə hiss etməyə başlamışdılar. Onlar bir daha əmin olmuşdular ki, məsələni dərindən bilməkdən daha əvvəl onu hiss eləmək çox vacibdir. Hamı məktəbdən çıxa-çıxa qeyri-səlis məntiqdən danışırdı.

Bizim dostlar evə getməyə yenə də tələsmədilər. Onlar məktəb həyətinə, öz sevimli Taxtalı şüşəbəndlərinə gedib Məşvərət masası ətrafında öz həmişəki yerlərini tutdular. Dostlar dərs barədə təəssüratlarını isti-isti bir-birilə bölüşmək istəyirdilər.

***Çalışmalar:***

1. Hansı ölkələrdə orta məktəbdə qeyri-səlis məntiq fənni tədris edilir?
2. Zadə qeyri-səlis məntiqin hansı elm sahələrinə tətbiq olunmasını arzu edirdi?
3. Sinergetik yanaşmalar necə olur?
4. "Necəsən?" sualına "əlayam" cavabı ilə "belə də..." cavabı arasında hansı keçid halları göstərə bilərsiniz?

## 5-ci fəsil

### Demokratik yanaşım və yaxud Volteri xatırlarkən



**Volter**

O biri gün yenə də dərsdən sonra dostlar məktəb həyətində öz sevimli yerlərində – Taxtalı şüşəbənddə "Məşvərət masası" adlandırdıqları taxta masanın ətrafında oturmuşdular.

– Fərhad müəllim bu gün də qəribə şeylər danışdı. Demokratiyanın məsələyə nə dəxli var, mən anlamadım. Siz necə, bir şey başa düşdünüz? – Zaur təəccüblə soruşdu.

– Görünür, var dəxli, – Əhməd düşüncəli bir halda onun sualına cavab verdi.

– Biz, məncə, gərək demokratiyanın təməl prinsiplərini yada salaq. Yadınıza gəlir? Necə deyirdi Volter?! – Hüseyn söhbətə müdaxilə etdi.

Fransız mütəfəkkiri Volterin demokratiya ilə bağlı fikri ilə onları riyaziyyat dərsində Sadıq müəllim tanış etmişdi.

– Mən... mən... Olar mən deyim?!

Volterin bütün dünya tərəfindən demokratiyanın təməl daşı sayılan bu fikri hamının yadında idi. Amma

dostlar Minanın arzusunu ürəyində qoymaq istəmədilər:

– De, sən de. Yadımıza sal görək Volter müəllim nə deyirdi?! Buyur...

Mina ciddiləşdi. Böyük və mötəbər bir komissiya qarşısındaymış kimi ayağa qalxdı, dediklərinə böyük bir məsuliyyətlə yanaşaraq, hər sözünü aydın şəkildə tələffüz etməyə başladı: “Mən sənə nifrət edə bilərəm, amma mən həyatımı verərəm ki, sən öz fikirlərini sərbəst şəkildə ifadə edə biləsən”. Volter belə deyirdi, – Mina zarafatla sağa-sola baş əydi:

– Alqış lazım deyil.

– Hə, elədir...

– Gözəl deyib...

– Sən də gözəl səsləndirdin...

– Xüsusi avazla...

– Tam bir demokratik yanaşma... – Uşaqlar hər biri bu ideyaya öz münasibətlərini bildirməkdən zövq aldılar.

– Bax, bax hələ bir... Həyatını düşməni uğrunda qurban verməyə hazır olan bir adamı... mən heç cür təsəvvür edə bilmirəm, – Zaur Volterin sözlərilə barışmaq istəmirdi.

– Amma tələsmə. Belə adamların səyi nəticəsində idi ki, demokratiya təkcə Fransada deyil, bütün dünyada beyinlərə hakim olmağa başladı, – Əhməd söhbətə müdaxilə etdi. – Amma, məncə, biz açarı başqa bir yerdə axtarmalıyıq.

– Harda? – Hüseynin səsi ruhdan düşmüş adamların səsi kimi çıxdı.

– Baxın, ağlıma nə gəldi?! – Əhməd ciddi bir tərzdə sözünə davam etdi. – Demokratiyanın təməl prinsiplə-

rindən ən vacib olanı nədir?! Seçim imkanının olması. Belədi, belə deyil?! Aristotelin iki qütbü bizə nə verir?! Seçim imkanımız iki haldan ibarət olur. Ya bu, ya da o. Düzmü deyirəm?!

– Bəli, bu belədir, – Hüseyn ona cavab verdi.

– Tutalım ki, belədir... – Zaur yenə nəyəsə şübhə edirdi.

– Bəs əgər belədirsə... – Mina dediklərini yarımçıq kəsib sual dolu gözlərini Əhmədə dikdi.

–Bəs əgər belədirsə... – Əhməd, sanki top qəbul edər kimi onun sözlərini təkrarlayaraq qəbul etdi. – O zaman üçüncünün qütblər, yəni artıq mövcud olan hallar arasında yer almasını... biz seçim imkanının genişlənməsi kimi dəyərləndirə bilmərikmi?!

Hüseyn, sanki nəsə itirmişdi, indi tapdı:

– Hələ üçüncünün, dördüncünün olması seçim imkanını bir az da genişləndirir, – deyə o sevincək dilləndi. – Sağ ol, ay Əhməd, çox düzgün tərəfdən məsələyə yanaşdın. Məncə, çözüm tapıldı. Demokratiyanın canı burda imiş...

– Deməli, belə çıxır ki, əcdadlarımız üçüncü halı qütblər arasında görmələri ilə demokratiyaya olan meyillərini nümayiş etdirirmişlər?! – Zaur fikirli-fikirli dilləndi.

– Bəli, belə çıxır. “Kitabi-Dədə Qorqud” dastanı da bu qədim demokratik prinsipi öz içində qoruyub saxlayıb.

Əhmədə xoş o oldu ki, dostları “Kitabi-Dədə Qorqud”u, prinsip etibarilə isə onu belə canfəşanlıqla dəstəkləyirlər. O dedi:

– O zaman gəlin müəyyənləşdirək. Sabah qeyri-səlis məntiq dərsi zamanı bizim bu fikirlərimizi kim ortaya qoyacaq?!

– Əlbəttə, sən, – Hüseyn inamla dilləndi. Hər kəs Hüseynin dediyilə razılaşmaq istəyirdi ki, Əhməd buna qəti şəkildə etiraz etdi:

– Yox, bu fikrə hamımız birlikdə gəldik. Məncə, bunu Mina etsə, daha doğru olar. O dediklərinə inandırmağı bacarır. Bayaq siz də gördünüz ki, Volteri necə gözəl şəkildə səsləndirdi...

– Mən?! – Mina təəccübləndi.

– Əhməd doğru deyir. Sən. Əlbəttə, sən! – Zaur gur səsilə məsələyə yekun vurdu.

– Hazırlaş... – Hüseyn Minaya bir dost kimi nəvazişlə baxdı. – Biz səndən çox şey gözləyirik. Səndən yaxşı bunu heç kim edə bilməz.

Bu zaman onların oturduqları Məşvərət masasının yanından tələsik keçən Zakir təəccüblə:

– Siz hələ burdasız? – qışqıraraq öz məxsusi "ha-ha-ha"-sını bərkdən səsləndirib cavab gözləmədən yox oldu.

– Saatdan xəbəriniz var?! – Zaur saatına nəzər saldı.

– Vay, vay, vay... Gec oldu. Qaçdıq, – Mina ayağa qalxdı.

Dostlar "Məşvərət masası"nı tərk edib tələsə-tələsə evlərinə tərəf yola düzəldilər.

***Çalışmalar:***

1. Demokratiyanın əsas prinsipləri hansılardır? Seçim imkanının dərəcəsi bizə nə verir?!

2. “Kitabi-Dədə Qorqud” dastanında primitiv demokratik yanaşma hansı məqamlarda özünü göstərir?

3. Dastanda ədalət prinsipinin hansı təzahürlərini görmək olar?

# 6-cı fəsil

## “Gənc demokratlar”

Nəhayət, gələn dərslərin birində növbə demokratiyaya gəlib çatdı. Qeyri-səlis məntiqin insanlarda demokratiyaya münasibətin formalaşmasına göstərdiyi təsirin nədən ibarət olduğu sinifdə, demək olar ki, hamını düşündürürdü. Bu məsələni hər dəfə tənəffüsdə ortaya atıb müzakirə obyektinə çevirən dostları bütün sinif Zakirin dəqiq deyimi ilə “Gənc demokratlar” adlandırmağa başladı.

Növbəti “Qeyri-səlis məntiq” dərsinin axırına yaxın Fərhad müəllim qeyri-səlis məntiqin Lütfi Zadə tərəfindən müəyyənləşdirilmiş fasetlərindən, yəni özül sütunlarından söz açdı. O dedi:

– Biz hər fasetə ayrıca dərs həsr edəcəyik. Qeyri-səlis məntiqin dörd əsas faseti var, hər biri də onu daha dərindən anlamağın bir yolu kimidir. Bu fasetlər qeyri-səlis çoxluqlar, epistemoloji, münasibətlər faseti və qeyri-səlis məntiq fasetidir. Gələn səfərdən başlayaraq hər fasetlə bağlı ayrıca danışacağıq.

“Gənc demokratlar” dərsin sonunda Fərhad müəllimin keçən dəfə Əhmədə verdiyi tapşırığın yaddan çıxıb çıxmadığını gözləyirdilər.

– Hə... indi gələk əsas məsələyə. Mənim sizə verdiyim tapşırıq yadınızdan çıxmayıb ki?! Mənim yadımdan çıxmayıb. Əhməd, demokratiya ilə bağlı nə deyə bilərsən?! Sən qeyri-səlis məntiqlə demokratiyanın əlaqəsini necə görürsən?! – uşaqlar Fərhad müəllimin heç nəyi unutmadığından məmnun qaldılar.

– Fərhad müəllim, bu suala bizim hamımızın yerinə Mina cavab verəcək. Zaur, Hüseyn, Mina və mən belə qərara gəldik.

– Noolar, buyur, Mina. Səni dinləyirik, – Fərhad müəllim üzünü Minaya tutdu.

Mina ayağa qalxdı. Əvvəl-əvvəl uzun saçlarına tələsik bir düzən verərək boğazını yüngülcə arıtladı və sözünə belə başladı:

– Biz düşünürük ki, demokratiyanın əsas özül prinsipi seçim imkanı ilə bağlıdır.

Sinif nəfəsini dərib Minanı dinləyirdi. Mina inamla sözünə davam etdi:

– İkiqütblü variant demokratik imkanlar üçün iki seçim verir. Amma bu iki seçim arasına üçüncü, dördüncü hallar da daxil olarsa, o zaman seçim imkanı xeyli çoxalar. İnsanın daha çox variant içərisindən seçimi ilə iki qütbdən birini seçməsi arasında ciddi fərq var. Daha çox seçim daha dərin demokratik yanaşma deməkdir. Və qədim dastanımızda iki qütbün arasına üçüncünün, bəzi hallarda isə hətta dördüncünün daxil edilməsi əcdadlarımızın dünyaya baxışının genişlənməsini göstərir. Bu genişlənmə demokratik üsulla həyata keçirilir. Üçüncü və dördüncü hallar qədim dastanımızda özünü göstərirsə, bu, Dastanımızın sosial nəfəsinin genişliyi, demokratik yanaşmasının  mövcudluğu ilə əlaqədardır.

Mina sözünü bitirib dərindən nəfəs aldı və susdu. Sinif sükut içində Minanın dediklərini düşünməkdə idi. Hamının gözü Fərhad müəllimdə idi, hamı onun Minanın dediklərinə reaksiyasını gözləyirdi. Və Fərhad müəllim fikrini söyləməyə gecikmədi. O danışan zaman hamı hiss etdi ki, onun sevincinin həddi-hüdudu yoxdur:

– Afərin, Mina. Əyləş. Afərin sizə, uşaqlar. Mənim Minanın dediklərinə heç bir əlavəm yoxdur, – sonra Fərhad müəllim üzünü sinfə tutdu. – Minanın dediklərini unutmayın. Qədim dastanımız bizə əcdadımızın dünyaya baxışında dərin, gizli mütərəqqi meyillərin olmasından xəbər verir. Əlbəttə, bugünkü demokratik prinsiplərlə o dövrün ilkin, hətta bəzən primitiv demokratik yanaşmalarını bir-birindən hökmən fərqləndirmək lazımdır. Amma elə əlimizdə olan faktlar da bizə bunu deyir ki, əcdadımızın şüurunda gedən proseslər demokratik istiqamətli proseslərdir.

Zəng vuruldu. 8 "B" hay-küylə sinifdən çıxmağa başladı.

– Baxın, bu hay-küyün isə demokratiyaya heç bir dəxli yoxdur, – Fərhad müəllimin bu sözləri uşaqlarda gülüş yaratdı. Ən bərkdən isə yenə də Zakirin gülüş dolu səsi gəldi:

– Ha-ha -ha...

* * *

Dərslər bitəndən sonra dostlar yenə də məktəb həyətindəki Taxtalı şüşəbənddə "Məşvərət masası"nın ətrafına yığışdılar. Hamı Minanı təbrik etməyə başladı. Mina sevincindən pörtüb qızarmışdı:

– Baxın, uşaqlar. Siz mənə inanmasaydınız, mən bu işin öhdəsindən gələ bilməzdim. Əsas olan sizlərsiz. Əhməd, sənsən, Hüseyn, sənsən, Zaur, sənsən. Mənə etimad göstərdiyiniz üçün hər birinizə təşəkkür edirəm, – Minanın səsi titrəyən kimi oldu.

– Eh, bu olmadı ki... Yaxşı, yaxşı, ay qız, bu nədi belə?! – hər kəs əməlli-başlı qəhərlənmiş Minaya bildiyi kimi təskinlik verməyə başladı.

Yenə də bu dəfə uzaqdan keçib gedən Zakirin onlara ünvanlanmış səsi ucaldı:

– Gənc demokratlara eşq olsun. Ha-ha-ha...

***Çalışmalar:***

1. Primitiv cəmiyyətlərdə ədalətli yanaşma ilə demokratik yanaşma arasında hansı fərqlər var?
2. "Dədə Qorqud" dastanında "bəylər!" xitabı demokratik yanaşmanı necə ifadə edir?
3. Aruz Qocanı demokratiya uğrunda mücahid saymaq olarmı? O nəyi bərpa etmək istəyirdi?

# 7-ci fəsil

## Fasetlər. Sənin dostun nə qədər yaxşı adamdır?!

Fərhad müəllim növbəti dərslərin birində fasetlər barədə ayrı-ayrılıqda danışmazdan əvvəl onlar haqda ümumi məlumat vermək istədi. O dedi:

– Baxın, uşaqlar. Biz bu günə qədər qeyri-səlis məntiq barədə dediklərimizi elə onun fasetlərinə, amma onların adını çəkmədən, əsaslanıb dedik. İndi isə hər fasetlə ayrılıqda daha yaxından tanış olduğunuz zaman siz onların bəzilərini artıq bizim əvvəlki dərslərimizdən bilmiş olmalısınız. Biz əvvəlki biliyimizi, belə deyək, fasetlər pərdəsinə bürüyürük. Dediyimiz kimi, qeyri-səlis məntiqin 4 faseti, başqa sözlə, dayaq nöqtəsi var:

1. Qeyri-səlis çoxluqlar faseti;
2. Qeyri-səlis məntiq faseti;
3. Epistemik faset;
4. Qeyri-səlis münasibətlər faseti.

Hər binanın təməl hissəsi olduğu kimi qeyri-səlis məntiqin də təməl hissələri vardır. Bunlara fasetlər deyirik. Bu sözün mənası ingilis dilində "sütun" anlayışına uyğun gəlir. Bu sütunlar, yəni fasetlər, prinsip etibarilə,

qeyri-səlis məntiqin özüdür deyə bilərik. Onları anlamağımız qeyri-səlis məntiqi anlamağımız deməkdir.

Fərhad müəllim növbəti dərsdə fasetlər barədə belə bir ümumi məlumat verəndən sonra sözünə bu sualla davam etdi:

– Biz bugünkü dərsimizdə qeyri-səlis çoxluqlar faseti barəsində danışacağıq. Biz bilirik ki, həyatda bizi əhatə edən hər şey klassik məntiqə görə müəyyən çoxluğa daxildir. Bundan əlavə biz çoxluqlar barədə nə bilirik?! Çoxluqlar neçə cür ola bilər? Baxın, sizin sinfinizdə neçə uşaq var? Onlar, əslində, bir çoxluq əmələ gətirirlər. Sinifdə nə qədər uşaq var?! Biz bunu bilirik, yaxud bilə bilərik. Düzdü?!

– Mən deyim. Biz 25 nəfərik, – Zakir hamını qabaqladı.

– Ay sağ ol, Zakir. 25 nəfər. Bəs sinifdə neçə stul var?!

– İyirmi beş olmalıdır, – bu dəfə Etibar hamını qabaqladı.

– Yox, stul sayı 26-dır. Biri də axı Fərhad müəlliminindir, – Zakir təntənə ilə Fərhad müəllimə baxdı.

– Yenə də sən düzünü dedin. Sən olmasaydın, biz nə edərdik, ay Zakir?! – Fərhad müəllim dediklərilə sinifdə şux əhvali-ruhiyyə yaratmaq istədi.

Hamı canlandı. Zakir sinfin sevimlisi idi və özünü belə bir sevimli yoldaş rolunda çox rahat hiss edirdi.

– Mən də bilmirəm ki, mən olmasaydım, bu fağırlar nə edərdilər. Ha-ha-ha...

Fərhad müəllim üzünü Zakirə tutdu:

– Bax, indiyənə qədər yaxşı gəlirdin. Sənə mənim indi bir sualım var. Görüm, ona necə cavab verəcəksən?!

Zakir, sən heç çimərlikdə olmusan?! – Fərhad müəllim mövzunu qəfildən dəyişdi.

– O qədər olmuşam. Bütün yayı Buzovnada plyajda keçirmişəm. Qayalıqda, – Zakir əlüstü cavab verdi.

– O zaman sən mənə bunu söylə. Deyirlər, Buzovna çimərliyinin yaxşı qumu var, elədi?!

– Əla qumu var. Sapsarı, dənə-dənə...

– Ay sağ ol. Plyajdakı o dənə-dənə qumun sayı nə qədərdi, sən heç istəmisən, onu sayasan?! Sən onu saya bilərsən?! Axı o da dənə-dənədisə, bir çoxluqdur.

– Başa düşmədim... – Zakir özünü itirdi.

– Soruşuram ki, sən o çimərlikdəki qum dənəcikləri-ni bir-bir sayıb qurtara bilərsən?! Mənə deyə bilərsənmi oradakı qum dənəciklərinin sayı nə qədərdir?!

– Yox, əlbəttə ki, saya bilmərəm. Bir ovuc qumu saymağa nə qədər vaxt gedər... Onda ki qaldı bütün plyajın qumu...

– Bəli, elədir. O qum dənəciklərini sayıb qurtarmaq mümkün deyil. Bir başqa sual da qoy bu olsun. Gecələr göydə parlayan ulduzları necə?! Onları saymaq olarmı?! Axı onlar da qum dənəcikləri kimi müəyyən çoxluq yaradırlar. Onları necə, sayıb qurtarmaq mümkündürmü?!

Fərhad müəllimin bu sualına Məlik yerindən cavab verdi:– Olmaz, müəllim.

– Doğrudur, Məlik. Onlar da sayılmaqla bitməz. Deməli, biz indicə iki cür çoxluqdan danışdıq. Bunlardan biri sonlu çoxluqdur. Məsələn, bu sinifdəki şagirdlərin sayı...

– O biri çoxluq o zaman sonsuz çoxluq olacaq, – bu dəfə Əhməd özünü saxlaya bilmədi.

– Ay sağ ol. Tamamilə doğrudur. Çoxluqlar iki cür olur. Sonlu çoxluqlar və sonsuz çoxluqlar. Siz sonsuz çoxluğu təsəvvür edə bilərsiniz?! – Fərhad müəllim maraqla sinfi gözdən keçirdi, – 5 dəqiqə vaxt ayıraq. Gözlərinizi yumun və sonsuz çoxluğu təsəvvürünüzə gətirməyə çalışın. Deyirik ki, kainatımız sonsuzdur. Bu sonsuzluğu təsəvvür etmək olarmı?!

Bir qədər sonra yenə də Zakirin ənənəvi kinayəli gülüş səsi ucaldı. Görünür, gözlərini yumub xəyala dalmaq onda gülüş əhvalı yaradırdı.

– Ha-ha-ha...

Bu dəfə Zakirə fikir verən olmadı. Uşaqlar gözlərini artıq yummuşdular və hər biri dərin sükut içində sonsuz çoxluq barədə düşünməyə başlamışdı. Amma heç biri belə bir çoxluğu təsəvvür edə bilmirdi. Müxtəlif yerlərdən təəssüf dolu səslər gəlməyə başladı:

– Uff...

– Ağır oldu bu iş...

– Mən bacarmadım...

– Mən də...

Fərhad müəllim saatına baxdı. 5 dəqiqə keçmişdi. O dedi:

– Ürəyinizi sıxmayın. Bunu mən də bacarmırdım. Sonra bacara bildim. Çox sonra.

– Necə oldu müəllim?! Necə bacardınız?! Bizə də deyin. Çox maraqlıdı...

Fərhad müəllim partalararası gəzməyə başladı. Vaxt keçirdi, sinifdəkilər müəllimdən cavab gözləyirdi. Fərhad müəllim gözlərini dörd açıb ondan cavab gözləyən uşaqları daha intizarda qoymaq istəmədi. Sonsuzluğu

anlamağın ona məxsus olan yolunu aramla şagirdləri ilə bölüşməyə başladı:

– Sonsuz olanı göz yummaqla anlamaq olmaz imiş. Mən heç cür anlamırdım ki, necə ola bilər axı bu kainat sonsuz olsun?! Axı onun bir yerə gedib dirənəcəyi məkan olmalıdır. Kainatımız bütövdürsə, bu bütövün bir sonu olmalıdır axı. Amma elm kəşf edib ki, bu sonun gedib dirənəcəyi məkan, təsəvvür edin ki, yoxdur. O dirəniş məkanının olmamasını anlamaqda mənə bir görkəmli riyaziyyatçının belə bir kəlamı kömək etdi. Kantor adlı bu riyaziyyatçı sonsuz çoxluq barəsində belə deyir: "Əgər sonsuz çoxluqdan sonsuz çoxluq çıxsaq, yerində yenə də sonsuz çoxluq qalacaq".



**Georq Kantor**

Sinfə lal bir sükut çökdü.

Fərhad müəllim davam etdi:

– Baxın, bu sözlər mənə kömək etdi ki, sonsuz çoxluğu anlayım və təsəvvürümə gətirə bilim. Kəlamın gözəlliyinə fikir verirsinizmi?!

– Bəli, müəllim, gözəl deyib. Əgər sonsuz çoxluqdan sonsuz çoxluq çıxsaq... – Mina dediklərini tamamlamadı. Onun gözləri süzüldü. Kəlamın gözəlliyini o, elə bil gözlərilə görməyə çalışırdı. Onun sözlərini Hüseyn tamamladı:

– ... yerdə yenə də sonsuz çoxluq qalacaq...

Əhməd isə məsələyə başqa yöndən yanaşdı:

– Bəlkə, məsələ ondadır ki, biz sonsuzluğu dilimizdəki sonlu sözlə ifadə edirik?! Siz necə bilirsiniz, Fərhad

müəllim?! Sonsuz söz icad edilsəydi, biz o zaman sonsuzluğu onun vasitəsilə daha aydın şəkildə təsəvvür edə bilərdikmi?!

– Belə bir söz yaratmaq mümkündürmü?! Sonsuz söz?! Necə yəni sonsuz söz... Ömründə ola bilməz! – Zakir yenə də özünü saxlaya bilmədi.

Fərhad müəllim Əhmədin bu şəkildə məsələnin məğzinə getməsindən razı qalmışdı. Ona belə dedi:

– Bilmirəm, Əhməd. Bəlkə də, sən nəzəri baxımdan düz düşünürsən və haqlısan. Amma sonsuz bir söz icad eləmək nə qədər qeyri-realdırsa, o zaman sonsuzluğu təsəvvür eləmək də əbədilik imkansız ola bilər. Nəzəri olaraq, bəlkə də, sənin sözlərində həqiqətin qığılcımı var. Amma praktik baxımdan bu qeyri-realdır. Və qeyri-mümkündür. Zakirin də təəccübü nahaqdan deyil.

Dərsin bitməsinə az qalırdı və Fərhad müəllim deyilənləri belə ümumiləşdirdi:

– Ola bilər ki, biz söhbətimizin davamını gələn dərsə saxlayaq. İndi isə onu demək istəyirəm ki, bizim bir qədər əvvəl nəzərdən keçirdiyimiz hər hansı çoxluq elementlər və obyektlər çoxluğudur. Gəlin, “yaxşı adamlar” çoxluğuna diqqət edək. Klassik çoxluqlar nəzəriyyəsi deyir ki, bu çoxluğa ancaq yaxşı adamlar daxildir. Bir az (qismən) yaxşı adamlar bura daxil deyil. Və yaxud “gözəl qadınlar” çoxluğuna o qədər də gözəl olmayan qadınlar heç cür daxil deyil. Buradakı prinsip qətilik üzərində qurulur. Ya yaxşı adamdır, ya gözəl qadındır, ya da deyil prinsipidir.

– Bəs gözələ yaxınlar harda qaldılar? O qədər də gözəl olmayanlar? Onları da gözəl sayanlar axı var... – Zakir yenə də özünü saxlaya bilmədi.

– Doğru iraddır. Ona görə də klassik çoxluqlardan fərqli olaraq qeyri-səlis çoxluqlarda qətilik prinsipi aradan qaldırılır. “Yaxşı adamlar” çoxluğuna bir az yaxşı adamlar və “gözəl qadınlar” çoxluğuna azacıq gözəl olmayanlar da daxil edilir. Bu daxiledilmələr konkret dərəcələrlə müəyyən edilir. Bunun özü də nəyi göstərir?

Bu dəfə Əhməd yerindən danışdı:

– Bizi əhatə edən aləmin obyektiv təsvirinə uyğunlaşmaq cəhdi deyilmi?

– Bəli, tamamilə doğrudur, – Fərhad müəllim Əhmədin dediklərini təsdiqlədi. – Biz bunu obyektiv aləmdəki rəngarəngliyə daha yaxın olmaq cəhdi kimi qiymətləndirə bilərik.

Fərhad müəllim sinfi gözdən keçirib sözünə davam etdi:

– Beləliklə, biz görürük ki, qeyri-səlislik öz təzahür məkanını genişləndirir. Burada qəti hökmlərdən qaçmaq halı özünü göstərir. Qeyd edə bilərik ki, qeyri-səlis çoxluqlar fasetinin ümumiləşdirilmiş ideoloji ruhu bundan ibarətdir.

Real həyatda, bildiyimiz kimi, tam müsbət, yaxud tam mənfi adamlar ola bilmədiyi kimi, davranışımızda da buna uyğun modellər ortaya qoymaq vacibdir.

Qeyri-səlis çoxluqlar çoxluğun riyazi konsepsiyasının sonrakı inkişafıdır. Ümumiyyətlə, çoxluqlar ilk dəfə olaraq formal şəkildə Georq Kantor tərəfindən öyrənilmişdir. Biz onun bir məşhur kəlamını sizinlə bir qədər əvvəl nəzərdən keçirmişdik. Kimin yadında qalıb?

Məlik hamıdan tez ayağa qalxdı:

– Əgər biz sonsuz çoxluqdan sonsuz çoxluğu çıxsaq, yerində yenə də sonsuz çoxluq qalacaq.

– Doğrudur. Mən o zaman demişdim ki...

– Bu sizə sonsuzluğu dərk etməkdə kömək edib, – bu dəfə Mina Fərhad müəllimə imkan vermədi ki, o, sözünü tamamlasın və yerindən səsini ucaltdı.

– Doğrudur, yaxşı xatırlamısan, – Fərhad müəllim Məlikin və Minanın müdaxiləsindən razı qaldı.

– Amma onu da unutmayaq ki, qeyri-səlis çoxluqlar 1965-ci ildə Lütfi Zadə tərəfindən təklif edildi, – Fərhad müəllim əsas mövzunu davam etməyə başladı. – Qeyri-səlis çoxluqlar nəzəriyyəsinin klassik çoxluqlar nəzəriyyəsinə əlavəsi onda olur ki, obyektin çoxluğa mənsubluq dərəcəsi 0 və 1 tam ədədləri ilə məhdudlaşmır. Obyekt bu ədədlər arasındakı istənilən qiyməti (az gözəl, daha az gözəl, yaxud az ağıllı, daha çox ağıllı) ala bilir. Yadda saxlayaq ki, klassik çoxluq nəzəriyyəsində çoxluq həmişə kəskin sərhəddə malikdir, çoxluğa mənsubluq ağ-qara anlayışının üzərindən qurulur. Yəni obyekt çoxluğa ya tamamilə aiddir, ya da ümumiyyətlə, çoxluğa aid deyil.

Eyni zamanda, onu da unutmayaq ki, bəzi çoxluqların kəskin sərhədləri var. Məsələn biz bu çoxluqlara *evli insanlar* çoxluğunu aid edə bilərik. Amma bir sıra çoxluqların (məsələn, xoşbəxt evli cütlüklər, yaxşı məzunlar, uzunboylu insanlar çoxluğu və s.) kəskin sərhədləri yoxdur. Qeyri-səlis çoxluqlar nəzəriyyəsi, çoxluğa mənsubiyyət dərəcə məsələsi olmasına rəğmən, bu məhdudiyyəti birbaşa həll edir. Çoxluğa aid olma dərəcəsi 0-dan 1-ə qədər ortada olan istənilən rəqəmlə ifadə edilir. 0 çoxluqda tamamilə yoxdur, 1 çoxluqda tamamilə var, aralarındakı hər hansı ədəd isə çoxluqda qismən var deməkdir.

Biz unutmamalıyıq ki, çox zaman real fiziki dünyada rast gəldiyimiz obyektlərin dəqiq müəyyən edilmiş aidlik (mənsubiyyət) meyarları olmur. Məsələn, heyvanlar sinfi açıq şəkildə itləri, atları, qurdları və b. çoxluq üzvləri kimi qəbul edir, belə olarkən daşlar, mayelər, bitkilər və b. oxşar obyektlər heyvanlar sinfindən açıq şəkildə kənar edilir. Lakin dəniz ulduzu, bakteriya(lar) kimi obyektlər aidlik (mənsubiyyət) baxımından heyvanlar sinfində qeyri-müəyyən statusa malikdir. Bu, Zadənin fikridir. O demək istəyir ki, dəniz ulduzu, müəyyən dərəcədə, həm heyvanlar sinfinə aid edilə bilər, həm də bura aid edilə bilməz. Çünki balığa həm heyvan kimi, həm də qeyri-heyvan kimi baxmaq olar.

Aydındır ki, "1-dən çox böyük olan bütün həqiqi ədədlər" sinfi və ya "gözəl qadınlar" sinfi, yaxud "uzunboylu kişilər" sinfi kimi terminlər adi riyazi mənada siniflər və ya çoxluqlar kimi qəbul edilir. Bununla belə, fakt olaraq o qalır ki, belə qeyri-dəqiq müəyyən edilmiş "siniflər" insan təfəkküründə, xüsusən də, nümunənin tanınması, məlumatın ötürülməsi və abstraksiya sahələrində mühüm rol oynayır. Bir də belə bir sualı özünüzə verməyi unutmayın. Dostum nə dərəcədə yaxşı dostdur. Bu suala cavabı siz qeyri-səlis məntiqin qeyri-səlis çoxluqlar faseti vasitəsilə tapacaqsınız.

Fərhad müəllimin son sözlərilə bir yerdə zəng vuruldu və dərs bitdi. Şagirdlər bir-birilə söhbət edə-edə sinfi tərk etdilər.

P.S. Bu kitabın ***Əlavələr*** hissəsində Fərhad müəllimin indicə təqdim etdiyi bu təsviri formul olaraq simvolların köməyilə aydınlaşdırıb diqqətinizə çatdırırıq. (Bax.: Əlavə 1)

***Çalışmalar:***

1. Daha hansı sonsuz çoxluqları göstərmək olar?

2. "Kitabi-Dədə Qorqud" dastanında çoxluqlardan hansıları qeyd edə bilərsiniz?

3. Sizə tədris edilən 6 dərs seçin. Hansına daha çox və hansına daha az meyilli olmanızı qiymətləndirin. Cavablarınızı qeyri-səlislik müstəvisində ifadə edin.

4. Risk eləməyə, fərqlənməyə hazırsınızmı?! Edəcəyiniz risqi qeyri-səlislik baxımından qiymətləndirin.

## 8-ci fəsil

## Qeyri-səlis məntiq faseti. Aristotel və Zadə

Fərhad müəllim növbəti dərsi qeyri-səlis məntiq fasetinin öyrənilməsinə həsr etdi. O dedi:

– Ən geniş yayılmış tərifə görə məntiq mühakimə üsullarının təhlilidir. Və bu üsulları tədqiq edərkən məntiq bu və ya digər mühakimənin nəticəsindən doğan məzmun ilə deyil, onun forması ilə maraqlanır. Şərtlərin, yaxud hökmlərin doğru və ya yanlış olması məntiqi maraqlandırmır. Əhəmiyyətii olan odur ki, hökmün doğruluğu şərtin doğruluğundan alınır. Ona görə də düzgün mühakimə üsullarının formalaşdırılması məntiqin əsas məsələsidir. Aristotelin klassik binar məntiqinə əsasən, istənilən müddəanın doğruluq dərəcəsi ya yalandır, ya da doğrudur. Qeyri-səlis məntiqdə isə müddəanın doğruluq dərəcəsi yalan ilə doğru arasında yenə də kontekstə uyğun müvafiq (semantik atoma qədər parçalanıb) qiymətini və yerini alır. Məsələn, belə bir müddəaya diqqət yetirək: *Əhməd ilə Zakir dost olublar.*

Burada Zakir özünü saxlaya bilmədi:

– “Olublar” keçmiş zamana aiddir. Biz elə indi də dostuq.

Fərhad müəllim onun dediklərini, sanki eşitmədi. Sözünə davam etdi:

– Klassik məntiqə görə, bu şəxslər dost deyildirlərsə, o zaman dostluğa tamamilə əks qütbə aid edilməlidirlər, deməli, onlar düşməndirlər. Ancaq biz o qədər adam tanıyırıq ki, dost da deyillər, düşmən də deyillər. Baxın, görürsünüzmü, məhz qeyri-səlis məntiq dostluğun dərəcəsini müəyyənləşdirməyə imkan verir. Onlar yaxınmı dostdurlar, ya azyaxınmıdırlar, yoxsa bu yaxınlıq sözünə bu kontekstdə, ümumiyyətlə, ehtiyac yoxdur?! Çünki əgər belə deyilsə, o zaman bu yaxın sözünün də dərəcəsini müəyyənləşdirmək məsələsi ortaya çıxacaqdır. Dərəcələr kimi bu keyfiyyətləri misal gətirmək olar: çox yaxın dost – az yaxın dost – dost – yoldaş – tanış və s. kimi keyfiyyətlər bu iki nəfər arasındakı münasibətin real, konkret ifadəçiləri ola bilərlər. Beləliklə, biz deyə bilərik ki, qeyri-səlis məntiq bizə ümumi dostluq münasibətinin dərəcəsini təbii dil vasitəsilə müəyyənləşdirmək imkanı verir. Bununla dilimizin obyektiv, real dünyaya yaxın olmaq cəhdini ortaya qoyur. Nəhayət, qeyd edə bilərik ki, klassik məntiqlə qeyri-səlis məntiqin əsas fərqi budur: Binar məntiqdə olan ziddiyyət və üçüncünü istisna qanunu qeyri-səlislik məkanında, belə deyək, "işləmir". Bu sonuncu (yəni qeyri-səlislik) öz içinə iki qütb arasında üçüncünü, hətta dördüncünü də "qəbul edə" bilir. Yadınızdamı, Əhmədin "Dədə Qorqud" dastanından gətirdiyi o möhtəşəm misal. "Küçücük ölüm"lə bağlı misalı deyirəm. Yadınızdamı?

Mina əlini qaldırdı. Sonra dözməyib elə yerindəncə cavab verdi:

– Mənim yadımdadı, müəllim. Həyatla ölüm arasında yuxunun adı idi. Oğuz igidləri yatanda yeddi gün, yeddi gecə yatardılar. Onları yuxudan oyatmaq mümkün olmazdı. Ona görə də adına küçücük ölüm deyərlərdi.

– Doğrudur, Mina, – Fərhad müəllim Minanın dediklərini təsdiqlədi. – Küçücük ölüm elə bizim bu gün dediyimiz koma vəziyyətinin qədim adıdır. Nə həyatdır, nə ölümdür. Əslində, iki qütb arasında – həyatla ölüm arasında üçüncü haldır.

Uşaqlar, biz bir qədər əvvəl qeyd elədik ki, “qeyri-səlis” termini aydın olmayan və ya qeyri-müəyyən olan proseslərə aiddir. Daim dəyişən hər hansı hadisə, proses və ya funksiya isə həmişə doğru, yaxud yalan olaraq təyin edilə bilməz. Qeyri-səlis məntiq qeyri-dəqiqlikləri və qeyri-müəyyənlikləri nəzərə almaqla mühakimə üçün dəyərli yol təmin edir. Və sonda onu deyim ki, qeyri-səlis məntiq klassik məntiq qarşısında müəyyən üstünlüklərə malikdir. O üstünlükləri belə qruplaşdırmaq olar:

1. Qeyri-səlis məntiq qeyri-dəqiq, təhrif olunmuş və ya səs-küylü məlumatlar şəraitində daha düz nəticələr verir. O, insanın təfəkkürünü və qərar qəbulunu əks etdirdiyi üçün həyatın bütün sahələrində mürəkkəb problemlərə səmərəli həll təklif edir.

2. Klassik məntiqin qeyri-səlis məntiqlə müqayisədə real dünya problemlərini tam olaraq təsvir etmək ehtimalı çox azdır. Qeyri-səlis məntiq hər hansı problemin əlverişli həllini tapmaq üçün müxtəlif qərarlar arasındakı mümkün olan ən yaxşı variantı təqdim edir.

P.S. Bu fasetlə bağlı daha geniş məlumat üçün bax: Əlavə 2-yə.

***Çalışmalar:***

1. Dan yeri sökülən məqamın mahiyyəti aydınlıqdır, yoxsa qaranlıq?

2. "Kitabi-Dədə Qorqud"da daha hansı əks qütblərin arasında üçüncü halı göstərmək olar?

3. "Bu gün hava günəşlidirmi?" cümləsinin "bəli" və "xeyr" cavabları arasında hansı orta halları göstərmək olar? ("Dost" və "dost olmayan" arasındakı keçid hallardan istifadə edin).

4. Nağıllarımızda "biri vardı" ilə "biri yoxdu" arasındakı hansı halları göstərmək olar?!

## 9-cu fəsil

## Epistemik faset. Axillesin dostu Patrokl və Bəkilin oğlu İmran

Fərhad müəllim qeyri-səlis məntiqin fasetləri barədə danışarkən növbəti dərsdə onlardan biri olan epistemoloji faset barədə demək istədiklərini qədim dastanlarda özünü göstərən maraqlı bir faktın əsasında təqdim eləməyə başladı. O belə dedi:

– Epistemik faset epistemoloji yanaşmaya əsaslanır. Epistemoloji yanaşma nədir?! Bu yanaşma real həyatdakı hadisə və proseslərin, obyektlərin insan beynindəki təzahürüdür. Belə bir yanaşmaya qədim dastanlarda rast gəlirik. Burada belə yanaşma özünü çox maraqlı şəkildə göstərir. Qədim yunanların "İliada"sında Axillesin dostu Patrokla bağlı məqam və "Kitabi-Dədə Qorqud"da Bəkil boyundakı İmranla bağlı məqam bir-birinə çox oxşayır və hər iki məqam epistemoloji yanaşma əsasında qurulur. Biz indi sizinlə iki müxtəlif dastandakı o eyni məqamla bağlı söhbət aparacağıq.

Epistemoloji yanaşma ən ümumi şəkildə gördüyünlə təsəvvür etdiyin arasında fərqin olmasından doğur. Antik dövrün görkəmli şairi Homerin "İliada"sında yunanların qəhrəman döyüşçüsü Axilles yunan qoşunlarının ümumi sərkərdəsi Aqamemnondan küsür və çadırında

oturub döyüşlərə qatılmır. Yunan qoşunları troyalılarla savaşda Axillessiz dalbadal məğlub olmağa başlayırlar. Axillesin dostu Patrokl Axillesə yalvarır ki, hərb meydanında vəziyyət pisləşib, o gərək döyüşlərə qatılsın, yunan qoşunlarına dayaq olsun, Axilles buna razılıq vermir. Amma sonunda Axilles dostunun təkidli ricalarına davam gətirmir və ona öz əlbisəsini, atını verməyə razı olur. Belədə troyalılar Patroklu Axilles sanıb elə bircə buna görə döyüş meydanını tərk edə bilərdilər. İlk baxışda onların gördükləri (Patrokl) ilə təsəvvürlərindəki (Axilles) bir-birinin eyni olsa da, əslində, bir-birinin eyni deyillər. Onlar təqribən bir-birinin eynidirlər. Və bu iki obrazın bir-birinə münasibətinin əsasında qeyri-səlislik durur. Bura qədər dediklərim hər kəsə aydın oldumu?

Uşaqlardan səs çıxmadı. Bu o demək idi ki, hamıya hər şey aydındır. Fərhad müəllim davam etdi:

– Baxın təxminən eyni situasiya bizim "Kitabi-Dədə Qorqud" dastanında da öz təsvirini tapıb. Bu necə olub? Kim deyə bilər?

Fərhad müəllim sual dolu baxışlarını Əhmədə yönəltdi. Əhməd əlini qaldırdı:

– Mən deyə bilərəm.

– Buyur, Əhməd, sən davam et.

Fərhad müəllimin Əhmədə inamı bu dəfə də özünü doğrultdu.

Əhməd ayağa qalxıb "Bəkil oğlu İmran" boyundakı oxşar məqam barədə danışmağa başladı:

– Belə bir situasiya "Bəkil oğlu İmran" boyunda təsvir edilir. Bəkil oğuzun sərhədlərini qoruyan bir Oğuz cəngavəridir. Düşmənləri onun qorxusundan Oğuz sərhəddinə yaxınlaşa bilmirlər. Bəkil bir dəfə Bayındır xanın

dəvəti ilə Oğuza gəlir, bəylər onu qonaq edir, daha sonra isə hadisələr elə cərəyan edir ki, Qazan xan Bəkilin ovda göstərdiyi məharəti danır və buna görə o, Qazan xana küsüb Oğuzun sərhəddindəki evinə qayıdır. Arvadı ona məsləhət görür ki, ova çıxsın, fikrini dağıtsın. Bəkil ova çıxır. Ov zamanı iş elə gətirir ki, Bəkil atdan yıxılır və ayağını sındırır. Onu evinə gətirirlər və yorğan-döşəyə uzandırırlar. Bu biri tərəfdən düşmənin casusu Bəkilin xəstələndiyini düşmənə xəbər verir. Düşmən cəsarətlənərək sərhəddə gəlib Oğuz elinə hücum eləmək niyyətinə düşür. Bəkil yataqdan qalxa bilmir. O, oğlu İmranı yanına çağırıb deyir ki, mənim döyüş libasımı geyin, mənim atıma min və düşmən üzərinə get. Qoy düşmən elə bilsin ki, sən mənəm və qorxub geri çəkilsin. Belə də edirlər. İmranı Bəkilin atı üstündə görən düşmən onu Bəkil bilib qaçmaq istəyir, amma başçıları deyir ki, dayanın, hələ bir diqqətlə baxaq, bəlkə, bu heç Bəkil deyil. Bu gələn Bəkil olsa, sizdən əvvəl mən qaçaram.

Zakirin "ha... ha...ha..."sı yenə hamını güldürdü.

Fərhad müəllim burada sinifdəkiləri sakitləşdirib Əhmədin dediklərinə müdaxilə etdi:

– Çox doğru və ətraflı danışdın, Əhməd. Deməli, düşmən gördüyü İmranı təsəvvüründəki Bəkilə bənzədir. Əslində, bu təsəvvürdəki Bəkil qeyri-səlis Bəkildir. Amma düşmən sonra daha diqqətlə baxıb onun səlis şəkildə Bəkil olmadığını dəqiqləşdirir. Tam bir epistemoloji situasiya. Bənzərliyin və təqribiliyin işə düşməsi. Həm də qeyri-səlisliyin özünü göstərməsi. Eynən troyalıların Patrokla baxıb onu Axillesə bənzətmələri və təsəvvürlərində Patrokl əvəzi Axillesi canlandırmaları kimi. Təqribi eynilik. Epistemoloji yanaşma. Nəticə eti-

barilə, biz hansı prinsipin işləməsini müşahidə edirik?! Qeyri-səlis məntiqin epistemoloji faset prinsipinin. Sağ ol, Əhməd. Əyləş.

Əhməd yerinə oturdu. Sinif yoldaşlarının təqdiredici baxışları onun ən böyük mükafatı idi.

Dərsin bitməyinə az qalırdı. Fərhad müəllim dərsi belə yekunlaşdırdı:

– Epistemoloji faset budur. Onun canını bu sözlərlə ifadə eləmək olar. Gördüyümüzlə təsəvvürümüzdə olan arasında həmişə fərq var.  Bu fərq təqribilikdən doğur. Biz nəyisə nəyə, kimisə kimə bənzədərkən hökmən təqribiliyə baş vururuq. Qeyri-səlislik də elə burada özünü büruzə edir. İndi təsəvvür edin, görün reallıq və təsəvvürdəki fərq dünyadakı nə qədər varianta uyğun gələ bilər. Əgər bilmək istəsəniz, elə təkcə ədəbiyyatın canında yaşayan bütün bənzətmələri bu epistemik fasetin içindən çıxarmaq olar. Hər kəsə aydındımı deyilənlər? Kimin sualı varsa, buyursun.

– Aydındı, müəllim. Əhməd tam olaraq məsələnin mahiyyətini ortaya qoydu. Heç mən özüm də belə izah edə bilməzdim, – Zakir yenə sinifdəkiləri güldürdü.

Zəng vuruldu. Əhmədin əli yenə havaya qalxdı. Zəngin vurulmasına baxmayaraq, hər kəs sinfi tərk eləmədən onun sualının nədən ibarət olduğunu öyrənmək istədi. Dərs tənəffüsdə də davam edirdi.

Fərhad müəllim gülümsünüb: “Buyur, Əhməd, nə soruşmaq istəyirsən, soruş”, – dedi.

– Müəllim, əgər biz bənzətmələri qeyri-səlisliyin göstəricisi sayırıqsa, o zaman bütün bənzətmələrin əsas yaradıcısı olan “kimi” bənzətməsi ilə formalaşan nümunələri də qeyri-səlisliyə aid edə bilərikmi?

Fərhad müəllim Əhmədə belə cavab verdi:

– Əhməd, sən hadisələri qabaqlayırsan. Biz sizinlə "kimi" əvəzliyi ilə bağlı söhbət edəcəyik. Və mən istədim, "kimi" barədə bu zaman məlumat verim. İndi ki, soruşdun və hadisələri qabaqladın, belə deyim. Bəli, "kimi" bənzətmə də bildirir və bu halda o, qeyri-səlisliyin göstəricisi kimi çıxış edir. Onun əsas funksiyası nədir?! Müqayisədir, deyilmi?! Müqayisə olunan bütün məqamlarda isə epistemoloji yanaşma var, deməli, qeyri-səlis məntiq var. Beləliklə, biz tamamilə haqlı olaraq deyə bilərik ki, "kimi", əslində, dilimizdə casus funksiyasını yerinə yetirir. Onun vasitəsilə qeyri-səlis məntiq bütün ədəbiyyatımızın daxilinə nüfuz edə bilir. Epistemik faset barədə söhbətimizə biz hələ davam edəcəyik.

Nəhayət, hamı sinfi tərk elədi. "Gənc demokratlar" həyətə çıxıb yenə də "Məşvərət" masasına tərəf getdilər.

***Çalışmalar:***

1. Bənzətmələr qeyri-səlisliyi necə ifadə edir?
2. Axilles Aqamemnondan niyə küsmüşdü?
3. Düşmən Bəkildən nə üçün qorxmadı?
4. Bədii ədəbiyyatda "kimi" qoşması və qeyri-səlis məntiq barədə bədii misallara əsaslanaraq nə deyə bilərsiniz?

## 10-cu fəsil

## Sorit paradoksu və yaxud epistemik fasetin davamı

Fərhad müəllim söz verdiyi kimi epistemik fasetlə bağlı söhbətə bir daha qayıtdı. Növbəti dərsə o belə başladı:

– Məlumdur ki, real həyatda informasiya özünü iki cür göstərir:

1. Rəqəmlərlə verilmiş və ölçülə bilən informasiya,
2. Ölçülə bilməyən, qavrama yolu ilə qəbul edilən (perseptiv) informasiya.

Bu xüsusda Zadənin bir fikri var, onu yazaq və yadımızda saxlayaq: "Təbii dil persepsiyalar sistemidir". Persepsiya nə deməkdir? Onu belə anlamaq lazımdır. Persepsiya zamanı hər hansı bir xassənin (obyektin davranışı, görünüşü, hissiyyatı və s.) dəqiq ölçü vasitələrilə deyil, sırf qavranış vasitəsilə dərk edilməsi deməkdir. Persepsiyanın təbii dilin sistemi olması o deməkdir ki, təbii dildəki bütün strukturlar obyektiv aləmdəki reallıqların əvəzi kimi "işləyir" və yaxud belə deyək: fəaliyyət göstərir.

Beləliklə, bu qənaətə gəlmək olar ki, epistemik faset faktiki informasiyanın beyində gizlədilmiş mövcudluğunu göstərir.

Qeyri-müəyyənliyə dair ədəbiyyatın əksəriyyətində qeyri-müəyyənliyə semantik və epistemik yanaşmaların əsaslı şəkildə ziddiyyətdə olması qəbul edilir. Belə bir fikir irəli sürülür ki, əgər müəyyən hadisələr arasında sərhəd hallarını və *sorit paradokslarını* doğruluq dərəcələri baxımından təhlil edə bilsək, daha epistemik izaha ehtiyacımız qalmayacaqdır. Sualınızı bəri başdan hiss edirəm. Sorit paradoksu nədir?! Sorit paradoksu budur. Belə qəbul edək ki, 1000 qum dənəciyi bir qum təpəsi yaradır. Bu təpədən qum dənəciklərini bir-bir alsaq, qum təpəsi hansı nöqtədə qum təpəsi olmaqdan çıxacaq? Sərhəd hardadır? Obyektiv aləmdədir, yoxsa bizim beynimizdə?! Məhz epistemik yanaşma ilə biz bu sərhəd xəttini müəyyənləşdirə bilirik.

"Ucaboy adam"ın qəbul edilmiş bir uzantısı varsa, deməli, ən qısaboylu adama da belə yanaşmaq olar. Əlbəttə ki, ən qısaboylu adamın nə qədər uzun olduğunu bilmək üçün heç bir real axtarış yolumuz yoxdur. Yəni biz bunu real olaraq təyin edə bilmərik. Bunu ancaq qavranış vasitəsilə, dərəcələrlə müəyyən edə bilərik. Eyni zamanda hündür və hündür olmayan arasında dərəcələrin təyini epistemik olaraq beynimizdə mövcuddur.

Klassik semantikanın məşhur alternativlərindən biri doğruluğun dərəcələrlə ortaya çıxmasını düşünməkdir. Bu baxışın ən geniş yayılmış forması bu dərəcələri 0 ilə 1 arasındakı real ədədlərlə, 1 tam doğrunu, 0 tam ya-

lanı, aradakı dəyərlər isə müxtəlif “qismən doğruluq” dərəcələrini təmsil edir. Müddəaların genişləndirilməsi (çoxaldılması) təbii olaraq onların həqiqət dərəcələrinə qədər olan təsvirləri kimi başa düşülür. Beləliklə, misal kimi deyək ki, uzun boyu 190 sm olan adam 1-ə, yenə də misal kimi deyək ki, 185 sm olan adam 0,75-ə, yenə də misal kimi, 183 sm olan adam 0, 68-ə və s. uyğun gələcək. Bəs uzunboylu anlayışı hansı dərəcədən sonra bitir?! Uzunboylu ilə uzunboylu olmayan arasında sərhəd hardan keçir?! Axı uzunboylular arasındakı fərqlər atomar (ən kiçik) səviyyədədir və buna görə də sərhəddin dəqiq cızılması qeyri-müəyyəndir, onu tam müəyyənləşdirmək mümkün deyil. Bunu ancaq epistemik yolla təsvir etmək mümkündür. Budur epistemik faseytin rolu. Beləliklə, biz daha qısa və qısa olmayan adamlara baxdıqca qəfil, kəskin dəyişmədən daha çox uzunboylu adamın çoxluqlara daxil olma dərəcəsinin yavaş və mütəmadi bir şəkildə azaldığını görəcəyik.

Belə bir yanaşma, qeyd etmək lazımdır ki, “Sorit paradoksu”nun cəlbedici təhlilini verir. Bir daha verdiyim suala qayıdıram. “Sorit paradoksu” nədir və onun epistemik fasetlə əlaqəsi nədən ibarətdir?

Fərhad müəllimin bu sualı uşaqlarda xüsusi bir maraq doğurdu. Ona görə də sinifdə tam sükut bərqərar oldu.

Fərhad müəllim davam etdi:

– Sorit paradoksunu bəzən “Bir təpə paradoksu” adlandırırlar. Bu paradoks qeyri-müəyyən müddəalardan yaranan paradoksdur. Mahiyyəti bundan ibarətdir. Bir qədər əvvəl biz bu barədə danışdıq. Tutalım ki, biz bir qum təpəsinin önündəyik. Hansısa sehirli bir qüvvə bu təpəcikdən dənə-dənə qum götürüb aparır. Qum dənə-

ciklərinin qum təpəsindən bir-bir azaldığı zaman hansı azlıqda qum təpəsi təpə olaraq qalacaqdır sualına cavab axtaraq. Qum təpəsi olaraq qalmaq üçün neçə sayda qum dənəciyi lazımdır?! Bir dənə qum dənəsi qalarsa, onu qum təpəsi saya bilərikmi?! Qum təpəsi nə zaman təpəlikdən çıxacaq?! Sərhəd hardadır?! Uzunboylu adamlar yadınızdamı? Ordakı cavab bura üçün də uyğun sayıla bilər. Qeyri-səlis məntiqin epistemik faseti də elə bu zaman özünü göstərir. Sorit paradoksu budur. Daha bir hal üçün Sorit paradoksunu tətbiq edək. Təsəvvür edək ki, biz bir okean qarşısındayıq...

Zakirin səsi çoxdandı gəlmirdi, indi yenə də eşidildi:

– Hansı okean, müəllim? Sakit okean, yoxsa Atlantik?

– Fərqi yoxdur, Zakir. İndi görəcəksən ki, fərqi yoxdur, – Fərhad müəllim gülümsəyərək sözünə davam elədi:

– İndi tutalım ki, Zakir okeandan bir stəkan su götürüb sahilə atdı. Nə baş verəcək? Okean dənizə çevriləcək, yoxsa çevrilməyəcək?

– Əlbəttə, çevrilməyəcək.

– Bəs iki stəkan olsa?

– Yenə də yox.

Əhməd yerindən belə bir müdaxilə etdi:

– Bəs okean axı sonsuz deyil... Stəkan-stəkan azalsa, axırda onun yerində elə bir stəkan su qalar ...

– Baxın, son nöqtəni Əhməd qoydu. Yenə gəlib Sorit paradoksuna çıxdıq. Burda da sərhəd məsələsi və onun təsəvvür edilməsi ortaya çıxır. Neçənci stəkandan sonra okean okeanlıqdan çıxır? Bunu yenə də epistemik faset izah edir.

Beləliklə, epistemik faset qeyri-səlisliyin tərkib hissəsi kimi bir çox hallarda sərhəd xətlərinin çəkilməsi ilə bağlı ortaya çıxan paradoksları izah edir. Sorit paradoksu buna ən yaxşı misal ola bilər.

***Çalışmalar:***

1. Sorit paradoksunu daha hansı hallara tətbiq etmək olar?!

2. Okean qətrə-qətrə azalıb okean olmaqdan çıxa bilərmi?"

3. "Qum təpəsi" paradoksunu klassik məntiqlə izah etmək mümkündürmü?!

## 11-ci fəsil

## Qeyri-səlis münasibətlər faseti və yaxud Monika Belluçini miniatür qadın kimi qəbul edə bilirsinizmi?!

Fərhad müəllim növbəti dərsə belə başladı:

– Ümumiyyətlə, deyə bilərsinizmi, münasibət nədir?! Klassik yanaşma ilə götürsək, bu, müxtəlif obyektlər, hadisələr, müddəalar arasında mövcud olan əlaqəni təsvir edir. Məsələn, iki obyekt arasındakı münasibəti nəzərdən keçirsək, bunu ikili münasibət kimi səciyyələndirə bilərik. Ancaq qeyri-səlis münasibətlər sahəsində (fasetində) ikili münasibətlər olmur. Burda münasibətlər çoxluğu mövcud olur. Klassik yanaşmada dost anlayışı ikili (binar) qütbdə mövcuddur. Ya dost, ya da düşmən qütblərində. Əhməd ya Zakirin dostudur, ya da düşməni.

– Olmaz ki, elə bir qütb olsun? Dostudur – vəssəlam, – Zakir yenə də yerindən səsləndi.

– Olmaz, Zakir. Klassik məntiq elə ona görə də klassik məntiqdir ki, binarlıqlara əsaslanır.

– Fərhad müəllim, bəlkə, bu dostluq tam deyil, dost və düşmən qütbləri arasında müxtəlif dərəcələrə malikdir?! – Əhməd dedi.

– Bəli, Əhməd, sən doğru düşünürsən. Sizin münasibətiniz tam dostluğa yaxın ola bilər, orta ola bilər. Onun

da öz dərəcələri ola bilər. Qeyri-səlis məntiq elə bu cür halları nəzərdə tutur. Amma Əhmədin dediyini qəribçiliyə saymayaq. Onun dedikləri dostluq münasibətində özünü göstərən qeyri-səlis çoxluqlara bir işarədir. Beləliklə, bu nəticəyə gələ bilərik ki, qeyri-səlis çoxluqlardan istifadə etməklə biz klassik münasibət anlayışını zənginləşdiririk və onu real həyatımıza daha adekvat şəkildə uyğunlaşdırırıq. Məsələn, bu baxımdan dost anlayışının hansı nüanslarının olmasını nəzərdən keçirmək maraqlı olardı. Dost – yaxşı yoldaş – yaxın yoldaş – etibarlı yoldaş – uzaq yoldaş – tanış və s. Bu ardıcıl anlayışlar çoxluğu bizi qeyri-səlis münasibətlər fasetinə gətirib çıxarır.

Yaxud başqa bir misala müraciət edək. Monika Belluçi gözəl bir aktrisadır Siz onun bir çox filmlərini görmüsünüz. Onu miniatür qadın kimi təsəvvür edə bilirsinizmi? Miniatür qadının sizin meyarlarınıza uyğun ölçüləri varmı?! Və bu ölçülər Monikaya nə dərəcədə uyğun gəlir?!

P.S. Əlavə 3-də bu fasetlə bağlı xüsusi yanaşma ilə tanış ola bilərsiniz.

***Çalışmalar:***

1. “Kitabi-Dədə Qorqud” dastanında münasibətlər faseti ilə bağlı nümunələr tapın.
2. Miniatür qadın meyarlarınıza kimlər uyğun gəlir?!
3. Dostluq meyarları necə formalaşır?! Niyə Əhmədlə Zaur dostdurlar, Zaurla Zakir isə dost deyillər, sadəcə yoldaşdılar.

# 12-ci fəsil

## Qeyri-səlisliyin tikinti materialı: hedclər

Növbəti dərsə Fərhad müəllim bu sözlərlə başladı:

– Biz sizinlə bu vaxta qədər qeyri-səlis məntiqin ayrı-ayrı fasetlərindən danışdıq. Unutmayaq, fasetlər özüllər deməkdir. Həmən fasetlər sayəsində biz qeyri-səlisliyi dilin və mətnin sanki "canından" çıxarırıq. Əslində, hər hansı faset elə qeyri-səlisliyin özüdür. Bunu bir bina ilə müqayisə edə bilərik. Binanın quruluşunda özünü göstərən hər bir şey elə binanın özüdür. Beləcə də fasetlər indicə dediyim kimi qeyri-səlisliyin özüdür. Müxtəlif əqli və məntiqi yanaşmalar tətbiq edərək qeyri-səlisliyin nümunələrini ortaya qoyduq. Bəs belə bir suala necə cavab vermək olar – qeyri-səlisliyin dildə heç bir xüsusi göstəricisi yoxdurmu?! Başqa sözlə desək, qeyri-səlislik dildə hansı dil vahidləri ilə öz ifadəsini birbaşa tapır?! Bir az düşünəkmi?! Sizə bir açar söz vermək istəyirəm. "Şübhə" sözünü və "şübhə" məqamını yada salın.

Sinif yenə arı pətəyinə dönmədimi, döndü. Cərgələrarası danışanlar, bir-birilə mübahisə edənlər, əl qaldırıb söz demək istəyənlər bir-birinə qarışdı. Fərhad müəllim bu dəfə də ilk sözü Əhmədə verdi:

– Əhməd, buyur, səninlə başlayaq. Sualımı bir də təkrar edirəm. Dilimizdə, eləcə də, başqa dillərdə qey-

ri-səlisliyin ifadə vasitələri varmı? Keçən dərslərimizin birində bu məsələyə yüngülcə də olsa işarə vurmuşduq...

– Məncə, belə sözlər vardır, – Əhməd qətiyyətlə dedi. – Şübhə bildirən “doğrudan”, “yəqin ki”, “bəlkə”, “ola bilər” və bu sıradan olan digər modal sözlər dilimizdə hər hansı mətndə işlənirsə-işlənsin, qeyri-səlislik bildirirlər.

– Bəli, bu belədir. Başqa? Əhməd sən otur.

Əhməd yerinə oturdu. Sinfə sükut çökdü. Fərhad müəllim hiss elədi ki, özü davam etməlidir.

– Baxın, uşaqlar. Bir binanı tikərkən ən vacib olan əşya nədir?! Daşdır, deyilmi?! Daşsız binanı tikmək olarmı, olmaz. Daş ən əsas tikinti materialıdır. Əhmədin dediyi modal sözlər də tikinti materialıdır. Qeyri-səlisliyin qurulması üçün istifadə olunan tikinti materialıdır. Amma modal sözlərlə yanaşı, başqa materiallar da var. Bizim ötən səfər qonağımız olan Rafiq müəllimlə Kamal Abdullanın yazdıqları “Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq” kitabında bu ifadə vasitələri bir-bir göstərilib. Bəri başdan deyim ki, bu ifadə vasitələrinin adına “hedc” deyilir. “Hedc” sözünün mənası budur: Eyni zamanda genişləndirmək və kiçiltmək. Bu termini vaxtilə elmə Zadənin özü gətirmişdi.

İndi mən sual edirəm: “Dilimizdə daha hansı “hedc”lər özünü göstərir?!” Yadınıza salıram ki, söhbət qeyri-səlisliyin tikinti materialından gedir.

Sinif yenə dərin bir sükuta qərq oldu. Fərhad müəllim qərara gəldi ki, heclərin tədrisinin dialoq forması bura qədər yetərlidir. Bundan sonrası monoloq şəklində davam etməlidir. Və o davam etdi:

– Modal sözlərdən başqa “hedc” funksiyasında qoşa sözlər çıxış edir. Qoşa sözlər hansılardır – siz bunu qrammatika kitablarından yaxşı bilirsiniz. Məsələn, belə bir uşaq deyimi var: “Bir-iki, bizimki...

Zakir bu dəfə də özünü saxlaya bilmədi:

– Üç-dörd, qapını ört...

– Ay sağ ol. Beş-altı, yeddi-səkkiz, doqquz-on... Nə qədər desəniz, qoşa sözlərlə davam etmək olar. Amma burada bir məsələ var. Qoşa sözlərin heç biri adi rəqəm kimi konkret məna bildirmir. “Bir-iki” və bütün digər qoşa sözlər təqribiliyin ən bariz nümunələridir. Sən bir başqasına əgər desən, mənim üç-dörd günlük işim var, məktəbə gələ bilməyəcəyəm, bu sənin məktəbə neçə gün gəlməyəcəyini göstərəcəkmi?! Nə üç, nə də dörd, nə də bunların cəmi olan yeddi gün. Baxın, bir maraqlı cəhət də budur ki, qoşa sözlərə daxil olan ayrı-ayrı sözlər hər biri konkret bir məna ifadə edirsə, iki konkret mənaya malik söz bir-birinin yanında qoşa söz kimi işlənəndə bu, artıq qeyri-müəyyənlik, qeyri-səlislik bildirir. Yadınızdadısa, keçən dəfə Rafiq müəllim də bu barədə danışdı və dedi ki, Kamal müəllimlə birgə yazdıqları “Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq” adlı kitabda onlar bu barədə yazıblar. Fikir verin, “bir” sayı konkretdir, “iki” sayı da konkretdir. Amma “bir-iki” artıq qeyri-konkret, daha dəqiq desək, qeyri-səlisdir. Deməli, biz görürük ki, iki konkretlik bir qeyri-konkretlik verir. Bütün digər qoşa sözlərdə də eyni halı müşahidə edə bilərik. Özü də təkcə rəqəmlərlə ifadə olunan qoşa sözlər deyil, digər nitq hissələri ilə ifadə olunan qoşa sözlər də bu qəbildən olan qoşa sözlərdir. Məsələn, yenə də “Dədə Qorqud” mətninə müraciət etsək, buradakı qoşa sözlər

tək sözün ifadə etdiyi mənadan daha yuxarı qatdakı mənanı ifadə edir. Biz deyə bilərik və deyirik: "Böyük ağac gəmi". Ancaq "böyük-böyük ağac gəmilər" dedikdə, böyük sifəti heyrətamiz, inanılmaz və eyni zamanda, təqribi böyüklükdə olan gəmiləri nəzərdə tutacaqdır. Eyni şəkildə "yüksək-yüksək", "sərin-sərin", "yekə-yekə", "yavaş-yavaş", "narın-narın" və bu kimi yüzlərlə qoşa sözü misal göstərə bilərik. Onların hər biri ifadə etdikləri mənanın nə qədər yüksək dərəcədə olmasını öz daxili semantikasında yaşadır. Eyni zamanda, bu mənalar həm təqribi, həm də qeyri-səlisdir. Bu sözlərə mətndə rast gələriksə, o zaman bilməliyik ki, onlar, yəni **qoşa sözlər** ilk növbədə qeyri-səlis məntiqin təzahür formalarıdır. Bir "hedc" kimi qeyri-səlis məntiqin göstəriciləridir.

Qeyri-səlisliyin "hedc" kimi daha bir göstəricisi **qeyri-müəyyən əvəzliklər, bəzi qoşmalar, zərflər, təqlidi sözlərdir.** Bəri başdan onu deyək ki, hedclər bütövlükdə obyektiv aləmdəki mənzərəni qeyri-səlislik pərdəsi arxasında gizlədir. Əgər Zakir dərsə gəlməyibsə və qaçıb kinoya gedibsə, bu obyektiv mənzərədir.

Bu yerdə Zakirin yavaşdan yenə də bir "ha...-ha...-ha..."sı eşidildi. Amma ona heç kəs fikir vermədi. Fərhad müəllim davam edirdi:

– Bu obyektiv mənzərəyə "mənə elə gəlir ki..." modal ifadəsini əlavə eləsək, o zaman biz obyektivlik çərçivəsindən uzaqlaşmış oluruq. Bu mənzərəyə "mənə elə gəlir ki" ifadəsi ilə yanaşı, "bəlkə", güman ki", "ola bilər ki" kimi modallıq bildirən ifadələri də əlavə edə bilərik. Hedclər, sanki hansısa gözəgörünməz bir niqab (maska) kimi obyektiv mənzərənin üzərinə "taxılırlar". Bu

şəkildə onlar bizə real dünyanın başqa-başqa çalarlarını göstərirlər. Bu isə artıq qeyri-səlislik dünyasının astanasıdır deyə bilərik.

Müxtəlif dünya dillərində əvəzliklər var, – Fərhad müəllim sinifdə gəzişə-gəzişə danışırdı. – Onlar dildə lazımi çevikliyi gözləmək, yersiz təkrardan uzaqlaşmaq, mətni ahəngdar bir hala salmaq funksiyasını yerinə yetirirlər. Yenə də epistemoloji yanaşmanın, başqa sözlə desək, fasetinin izlərinə rast gəlirik. Bir sözün yerinə başqa sözün işlədilməsi və bu zaman həmən başqa sözün təsəvvür edilməsi yenə də bizi təqribiliyin astanasına gətirir. Beyrək nişanlısı Banuçiçəyin başqası ilə evləndiyi toya gələrkən qızın düyününü pozmaq üçün nələr etmir?! Dastan deyir ki, o, aş qazanlarını dağıdır, zurnaçıların kimini döyür, kiminin başını yarır. Bu son dediyim misalda "kimi" əvəzlik kimi işlənir. Kim deyə bilər, Beyrək neçə zurnaşını döyür və neçəsinin başını yarır?! Burada işlənən "kimi əvəzliyi bunu bizə dəqiq təsəvvür etməyə imkan verirmi?! Vermir. Elə mənim sizə ünvanladığım "kim deyə bilər?" sualımın semantik dərinliyində də qeyri-səlislik durur. Bu zaman mən sinifdə konkret olaraq kimi isə nəzərdə tutmuram. Mən öz sualımı *təxmin* və *bəlkə* üzərində qururam. Keçən dərsimizdə Əhmədin verdiyi sual yadınızdamı?! O sual "kimi" bənzətməsi ilə bağlı idi. Belə deyək. Əvəzlik, yaxud bənzətmə, yaxud qoşma olmasından asılı olmayaraq, **"kimi"** köməkçi nitq hissəsi hər bir halda qeyri-səlisliyin göstəricisidir.

Daha bir "hedc" kimi **"belə"** əvəzliyini göstərmək olar. "Əhməd yaxşı oğlandır, Zakir də belədir" misalına diqqət edək.

Burada Zakir yenə də özünü saxlaya bilmədi, sözlərini bütün sinfə ünvanladı:

– Gördüz, mən deyirdim, siz inanmırdız...

– İnanırdıq, inanırdıq... – Məlik hamının əvəzinə cavab verdi. Sinifdən yüngül gülüş sədaları eşidildi. Fərhad müəllimin dodaqları qaçsa da, fikrini ifadə etməyə davam etdi:

– Görürsünüzmü, "belə" əvəzliyi yenə də bizi müqayisə məkanına gətirir. Hər hansı müqayisə isə nədən xəbər verir?!

– Qeyri-səlis məntiqdən, – bu dəfə Minanın səsi yerindən ucaldı.

– Bəli, tamamilə, doğrudur. Hər hansı müqayisə artıq qeyri-səlis məntiqə doğru aparır. Biz indi bunu qətiyyətlə deyə bilərik.

Sinifdə uğultu gəzdi. Əhməd əlini qaldırıb söz istədi. Fərhad müəllim başını tərpədərək onu danışmağa dəvət etdi. Əhməd ayağa qalxdı:

– Fərhad müəllim, o zaman belə çıxır ki, bizim bütün ədəbiyyatımızın canında qeyri-səlislik durur. Çünki ədəbiyyatmız, xüsusilə onun klassik dövrü başdan-başa müqayisə və bənzətmələrdən ibarətdir.

– Doğru düşünürsən, Əhməd. Bəli, bu, həqiqətən də, belədir. Şairlər, yazarlar qeyri-səlisliyin ən cəfakeş yayıcılarıdır. Füzuli nahaqdan demirdi ki, "aldanma ki, şair sözü, əlbəttə, yalandır". O konkret olaraq biz anladığımız yalanı nəzərdə tutmurdu. Füzuli yalan səviyyəsində olan təhrifləri nəzərdə tuturdu. Mən sizə hətta belə bir ağlasığmaz fikir söyləmək istəyirəm. Mənə elə gəlir ki, siz məni düzgün başa düşəcəksiniz.

Sinifdə yenə də sükut bərqərar oldu. Hamı maraqla Fərhad müəllimin nə deyəcəyini gözləməyə başladı. Fərhad müəllim son gülləsini atdı:

– Bilirsinizmi, mən hətta elə düşünürəm ki, bizim dilimiz bütövlükdə bir nəhəng "hedc"dir. Dünyanın obyektivliyini bizdən gizlətməyə çalışan nəhəng və möhtəşəm bir hedc... Bütün dilimiz qeyri-səlisliyin təzahürü kimi. Bunu təsəvvür eləmək asan deyil. Hər halda buna cəhd eləmək lazımdır. Bu barədə düşünməyə dəyər. Düşünək.

Yenə də söhbətin şirin yerində zəng vuruldu. Elə bil kim isə zəngi qəsdən belə məqamda səsləndirirdi. Və bu "kim isə", uşaqlar bunu artıq bilirdilər, Fərhad müəllim deyən kimi qeyri-səlisliyin içindən çıxan bir məxluq idi.

– Gələn dərsdə biz hedclər haqqında fikirlərimizi bölüşməyə davam edəcəyik. Siz də evdə bu barədə düşünün, – deyə Fərhad müəllim dərsə yekun vurdu.

***Çalışmalar:***

1. Oxuduğunuz bədii əsərlərdə müxtəlif nitq hissələri ilə ifadə olunan hedclərə aid misallar tapın.
2. Qeyri-səlislik binasının özülləri və hedcləri hansılardır?
3. Hedclər bütövlükdə qeyri-səlis ola bilərmi?
4. Müqayisələrdə hedclərin iştirakı və rolu. Müqayisələr qeyri-səlisliyi necə ifadə edir?
5. Nitq hissələrinə uyğun şəkildə qruplar yaradın və oxuduğunuz nağıllarda hər nitq hissəsinə aid olan hedclə bağlı misallar tapın.

# 13-cü fəsil

## Yenə də "hedc"lər...

– Dilimizdə işlənən və qeyri-səlisliyə xidmət edən daha hansı hedcləri göstərə bilərik? Keçən dəfə biz saylarla ifadə olunan qoşa sözlərdən bəhs etdik. İndi də sözlərlə, konkret desək, feil törəmələri ilə ifadə olunan qoşa sözlərdən danışacağıq. Onlar hansılardır?!

Bu səfərki dərsə Fərhad müəllim ortaya belə bir sual atmaqla başladı. Özü də öz sualına cavab verməyə başladı:

– Qeyri-səlislik bildirən qoşa sözlər ancaq saylarla əmələ gəlmir. Onlar başqa nitq hissələrilə də əmələ gələ bilirlər. Bu dəfə biz digər nitq hissələrilə ifadə olunan qoşa sözlərdən danışacağıq. Məsələn, "dönmək" felini götürək. Onun qoşa variantı "dönə-dönə" olacaqdır. Bu feil vasitəsilə hər hansı hərəkətin intensivliyi bildirilir. "Dönə-dönə" qoşa sözü real dünyadakı mənzərənin bizim üçün daha obyektiv şəkildə canlanmasına yardım edir. "Dədə Qorqud" dastanında deyilir: "Dönə-dönə savaşayım, dönə-dönə vuruşayım". Yaxşı, indi mən bilmək istəyirəm. "Dönə-dönə", yəni neçə dəfə?! Burada savaşma və vuruşmanın konkret neçə dəfə baş verməsinə dair heç bir məlumat yoxdur. Ona görə də "dönə-dönə" qeyri dəqiq və əlbəttə ki, qeyri-səlis bir rəqəm göstəricisidir.

Və yaxud başqa feillərdən yaranan qoşa sözlərə diqqət edək. "Qaça-qaça", "oxuya-oxuya", "gələ-gələ", "gedə-gedə", "danışa-danışa", "yaza-yaza" və başqa feillərin qoşalaşmasından onların ifadə etdikləri məna intensivləşir. Ölçülməz hala gəlir. Belə olarkən qoşa sözlər qeyri-səlislik bildirir. Aydın olur ki, feildən yaranan qoşa sözlər də mətndə "hedc" olaraq qeyri-səlisliyin göstəriciləri kimi çıxış edir.

Sifətdən yaranan qoşa sözlərlə bağlı da eyni sözləri demək olar. "Böyük" sifəti öz-özlüyündə müəyyən ölçü dərəcəsini bildirirsə, "böyük-böyük" bu dərəcənin ölçüyəgəlməz həddini göstərir. "İsti-isti", "qara-qara", "gözəl-gözəl", "yaxşı-yaxşı" kimi sifətdən yaranan qoşa sözlər də həmçinin aid olduqları obyektin intensivlik və qeyri-müəyyənlik halının inanılmaz dərəcəsini göstərir. Və qeyri-səlisliyin ifadə vasitələrinə dönür.

Qeyri-səlisliyin göstəricisi kimi "hamı", "hamısı" əvəzliklərinin də rolu böyükdür. Yenə də "Dədə Qorqud" dastanlarına müraciət etsək, bu hedcin "həpsi" adlı dil variantının mətndə sıx-sıx işləndiyinin şahidi olarıq. Yadınıza salın. Bəylər kimisə xilas etməyə gedəndə onlardan bəzilərinin adı çəkilir, amma hamısı sadalanmır. Müəllif belə bir ifadə ilə "məsələni həll edir". Mətndə təxminən belə deyilir: "Saymaqla Oğuz bəyləri tükənsə olmaz. Bəylər **həpsi** yetdi". Burada həm birinci cümlənin ümumi mənası, həm də "həpsi" hedci bəylərin hamısının adının əvəzinə işlənir. Yardıma gələn bəylərin hamısı bu hedcin pərdəsinə bürünür. Yenə də qeyri-səlislik özünü göstərir, deyə bilirik.

Təkrarlanaraq təqlidi sözlər də qeyri-səlis məntiq sahəsinə qədəm basa bilirlər. Məsələn, "Dədə Qorqud"

mətnində işlənən "bıldır-bıldır", "zar-zar", "ökür-ökür" təqlidi sözlərdən yaranmış qoşa sözlər qeyri-səlis düşüncə tərzinin məhsuludur deyə bilərik.

Hedclərlə bağlı onu da qeyd eləmək vacibdir ki, onlar özlərini iki cür göstərir: *doldurulan hedclər* və *doldurulmayan hedclər.*

Biz bilməliyik ki, bizim nitq prosesimizdə müəyyən semantik-informativ boşluqlar özünü göstərir. Bu boşluqların bəziləri özünü kainatdakı qara dəliklər kimi aparır. Onlar özləri barədə heç bir informasiya vermirlər. Onlar nitq prosesində özlərindən əvvəlin və özlərindən sonranın arasında informasiyanın təbii axarının qarşısını alan, yersiz təkrarlara imkan verməyən "sıfır" elementlər kimi çıxış edirlər. Görkəmli yazıçı və semioloq Umberto Eko özünün "Olmayan struktur. Semasiologiyaya giriş" adlı kitabında yazır ki, mətndə informasiya *deyilənlə* yanaşı, *deyilməyən* (amma deyilə biləcək) vasitəsilə də ötürülə bilər.

– Müəllim, bu sözü başa düşmədik. Sema... – Zakir bu termini heç cür tələffüz edə bilmədi.

– Semasiologiya işarələr haqda elmdir. Ona semiotika da deyirlər. Bizi əhatə edən hər şey ən ümumi mənada işarədir. Aydın oldu?

– Oldu. Semiotika daha aydındır. Deyilişi də asandır, – Zakir rahat nəfəs aldı.

– Olsun. Sən o termindən istifadə et. Davam edək. Əgər Umberto Ekoya inansaq və bu həqiqətən belədirsə, yəni informasiya deyilməyənlə də ötürülə bilirsə, o zaman deyilməyənin deyilənə və anlaşılana çevrilmə problemi necə həyata keçirilə bilər?! Bu suala cavab tapmaq özü maraqlıdır. Bu cür boşluğun doldurulması necə baş

verir?! Amma unutmayaq ki, doldurulmayanlarla yanaşı, doldurulan boşluqlar da var.

Fərhad müəllim nəfəsini dərib sinfi gözdən keçirdi. Hamı dərin diqqət içində onun nə deyəcəyini gözləyirdi. O, həvəslə davam etdi:

– Bu doldurulan boşluqların, sanki üstü qeyri-səlisliyin əsas göstəricisi olan hedclər vasitəsilə örtülür. Yağışlı gündə çətir adamı necə gizlədirsə, hedc də belə boşluğu o cür gizlədir. Belə bir cümləyə diqqət edək: **Sinifdə hamı var idi.** Bu cümlədə boşluq varmı?

8 "B" yenə arı pətəyinə döndü. Amma nə qədər çalışsalar da, bir nəticəyə gələ bilmədilər.

– Məsələyə bu biri tərəfdən baxaq. Buradakı "hamı" əvəzliyi kimə, yaxud kimlərə aiddir?

– Bizə. Uşaqlara, – yenə də Əhməd doğru cavabı tapmışdı.

– Bəli, doğrudur. Deməli, bir-bir uşaqların adını çəkmədən, başqa sözlə, təkrara yol vermədən onların hamısını "hamı" sözü ilə əvəzləyə bilərik. Beləliklə, biz bir boşluğu doldurmuruqmu?

– Doğrudan da. Necə də asan imiş... – Mina ilə Məlik demək olar ki, eyni vaxtda dilləndilər.

– Bizim Dastandakı "Bəylər həp gəlib yetişdilər" cümləsi də o zaman doldurulan boşluq sayıla bilər... – Əhməd, sanki özü özünə dedi.

– Doğrudur, sayıla bilər...

Fərhad müəllim gülümsədi. Uşaqlar onu anlamışdılar. O əmin idi ki, hedclərin dərin mənası onlar üçün öz görüntüsünü açıb ortaya qoymuşdur.

Fərhad müəllim dərsə yekun vurmağın vaxtı çatdığını düşündü:

– Deməli, nitqimizdə bir doldurulan, bir də doldurula bilməyən hedclər var. Və artıq deyə bilərik ki, hedclər bütövlükdə qeyri-səlisliyin özüdür. Biz doldurulan boşluqlardan danışdıq.

İndi isə gəlin "doldurula bilməyən" boşluqlardan danışaq. Bu boşluqlara hedc tapmaq mümkün deyil. Diqqətli olun. Bu, bir az qəliz məsələdir, – Fərhad müəllim intonasiyası ilə də uşaqları ciddiliyə dəvət elədi. – Gəlin yenə də tanış mövzuya – "Dədə Qorqud" dastanına müraciət edək.

– Əhməd, hazırlaş, – yenə də Zakir özünü saxlaya bilmədi.

Fərhad müəllim Zakirin atmacasına fikir vernədi və heç nə olmayıbmış kimi sözünə eyni tərzdə_davam etdi:

– Basat Təpəgözü öldürdüyü boyu yadımıza salaq. Xatırlayın, Təpəgöz Basata öz intihar arzusundan danışmışdı. Adam yeməkdən, zülm verməkdən, Oğuza qan uddurmaqdan intihara qədər gələn yol. Bu necə bir yol idi?! Buna katarsis deyə bilərikmi?! Katarsis deyərkən təmizlənməni nəzərdə tuturam. Kim deyə bilər ki, bu yol necə oldu əmələ gəldi?! Təpəgözün həyatında nə baş verdi ki, o özünü günahkar saydı?! Hətta intihara cəhd etdi?! Zülmkar Təpəgözdən öz zülmündən təngə gəlmiş Təpəgözə gətirən yol barədə biz nə deyə bilərik?! O bizim üçün bir boşluq deyilmi?! Biz bu boşluğu doldura bilərikmi?! Yox, doldura bilmərik. Bu da sizə doldurulmayan boşluq.

Fərhad müəllim dərindən nəfəs alıb sözünü bitirdi.

Uşaqlar hedclərin mahiyyətini artıq anlamışdılar. Qeyri-səlisliyin həm özü olub, eyni zamanda, həm də onun tikinti materialı olan hedclər onların diqqətini çək-

mişdi. Zəng vurulandan sonra sinif otağını tərk edə-edə onlar bir-birinə doldurulan və doldurula bilməyən hedclərlə bağlı suallar verir, bir-birinin sözünü kəsə-kəsə tapdıqları misalların doğruluğuna bir-birini inandırmağa çalışırdılar.

***Çalışmalar:***

1. Daha hansı "doldurulan" hedclər göstərə bilərsiniz?
2. Daha hansı "doldurulmayan" hedclər göstərə bilərsiniz?
3. Bütövlükdə "dil hedc kimi" müddəasına aid nə deyə bilərsiniz?!

## 14-cü fəsil

## Zadəyə qədər və Zadədən sonra qeyri-səlis məntiq



**Platon**

Qeyri-müəyyənlik, qeyri-dəqiqlik, anlaşılmazlıq problemləri uzun zamandan bəri düşünən beyinləri məşğul etmişdir. Bu problemlər fəlsəfi dairələrdə qeyri-müəyyənliyin təbiəti və ənənəvi Boolean məntiqinin və yaxud ikili məntiqin qeyri-müəyyən anlayışların və qavrayışların öhdəsindən gəlmək qabiliyyəti ilə bağlı çoxlu müzakirələrin aparıldığı əsas mövzulardır. Bu müzakirələrdə qeyri-səlis məntiq əsas konsepsiya hesab edilir. Bu gün qeyri-səlis məntiq qeyri-səlis çoxluqlar üzərində qurulub və qeyri-səlis sistemlərdə uğurla tətbiq olunur. Düşünmək olar ki, qeyri-səlis məntiq tamamilə yeni konsepsiyadır və o öz tətbiqini qısa bir müddət ərzində tapıb. Amma belə deyildir. Öz mənşəyilə bu məntiq qədim yunan filosoflarına, xüsusilə də **Platona** gedib çıxır. Hətta onun mənşəyini daha qədim vaxtlarda Çində

və Hindistanda axtarmaq ağlabatan görünür. Belə çıxır ki, hələ qədim filosoflar hər hansı əşyanın, mətləbin tam müəyyən olmadığı barədə təsəvvürə malik imişlər. Yəni həqiqət və yalanın müxtəlif dərəcələrinin ola bilməsini nəzərə alıblar. Bilirik ki, qeyri-səlis məntiqə görə ağ və qara arasında sonsuz keçid halları var. Prinsipcə, qeyri-səlis məntiqdən istənilən sistemi modelləşdirmək işində istifadə edilə bilər. İndi artıq bir çox tədqiqatçılar qeyri-səlis modellərin daha faydalı və daha adekvat olduğunu deyirlər.

Belə yanaşmanın əsasındakı ideya doğru və yalan arasındakı çalarların mövcudluğu üzərində qurulur. Klassik məntiqlə qeyri-səlis məntiq arasındakı fərq iki qanunu əhatə edir:

– **Üçüncünün istisna qanunu** – hər hansı bir təklif ya doğru, ya yalandır – bu, klassikadır. Bu qanun dahi filosof Aristotel tərəfindən irəli sürülmüşdür. Amma onların arasında üçüncü, hətta dördüncü – bir sözlə, dilimizin verdiyi imkan çərçivəsində beşinci və s. də yer tuta bilər. Bu isə qeyri-səlis məntiqdir. Bunu da dahi riyaziyyatçı L.Zadə irəli sürmüşdür.

– **Ziddiyyət qanunu** – heç bir müddəa eyni vaxtda doğru və yalan deyil. Bu klassikadır. Yenə də öz mənşəyi ilə Aristotelə aiddir. Ancaq reallıqda hər bir müddəa öz daxilində özünün əksini də yaşadır. Bu isə qeyri-səlis məntiqdir. Bu ideyaya hətta qədim çin filosofu Konfutsi də toxunurdu. İlk dəfə onu məntiqi cəhətdən izah edib sistemli şəkildə ortaya qoyan alim isə yenə də L.Zadə oldu.

Beləliklə, deyilənlərdən də göründüyü kimi, qeyri-səlis məntiq klassik məntiqin sərt bivalentliyini aradan qaldırmağa imkan verir



David Hume



İmmanuel Kant

Qeyd etmək lazımdır ki, hələ 18-ci əsrdə şotlandiyalı **filosof David Hume** (1711–1776) və alman filosofu **İmmanuel Kant** (1724–1804) belə anlayışlarla maraqlanırdılar. Onlar belə düşünürdülər ki, məntiqi nəticə çıxarma həyatımız boyu qazandığımız təcrübələr vasitəsilə əldə edilir. Nəticədə, hər iki alim klassik məntiq adlanan məntiq çərçivəsində ziddiyyətli prinsiplərin olduğunu qəbul edirdilər.



Bertran Rassel

20-ci əsrin əvvəllərində ingilis filosofu və riyaziyyatçısı **Bertran Rassel** klassik məntiqin istər-istəməz ziddiyyətlərə səbəb olması fikrini irəli sürdü. Bertran Rassel bu ideyadan çıxış edərək dil üzərində araşdırmalarına əsasən, qeyri-müəyyənliyin məhz müəyyən dərəcə ilə xarakterizə olunduğu qənaətinə gəldi.



Polşalı məntiq alimi, riyaziyyatçı **Yan Lukasievicz** 1920-ci ildə yazdığı klassik əsərində doğru və yalandan əlavə orta bir halın da olmasını irəli sürdü. Bunun adını üçqiymətli məntiq qoydu.

**Yan Lukasievicz**



**Maks Blek**

Eyni zamanda, qeyri-müəyyənliyin modelləşdirilməsi məsələsilə məşğul olan alimlər meydana çıxdı. Onların arasında xüsusi olaraq alman alimi **Maks Bleki göstərmək olar.**

Hətta görkəmli fizik Hayzenbergin məşhur qeyri-müəyyənlik prinsipinin dərin qatında qeyri-müəyyən məntiqin izini görməmək mümkün deyil. Sonralar 1990-cı illərdə görkəmli fizik **Mayburov** Hayzengerin qeyri-müəyyənlik prinsipini qeyri-səlis müstəvidə genişləndirərək fundamental elmi nəticə əldə etdi. Ona görə, istənilən elementar hissəciklər içərisində hətta nöqtə anlayışının özü belə qeyri-səlisdir.



**Mayburov**

Zadə öz yaradıcılığında bu alimlərin – filosofların, riyaziyyatçıların ideyalarına söykənərək 1965-ci ildə özünün qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiq nəzəriyyəsini yaratdı. Onu da demək lazımdır ki, Zadənin bu nəzəriyyəsi ilk vaxtlar Qərbdə birmənalı qarşılanmadı. Hətta elmi ictimaiyyətin bəzi mühafizəkar nümayəndələri tərəfindən tənqid edildi. Bununla belə, zaman keçdikcə bu nəzəriyyə kifayət qədər tərəfdar qazandı. Nəzəriyyə zaman-zaman genişləndi. Ən innovativ alimlər arasında, xüsusilə də Yaponiyada, Cənubi Koreyada, Çində və Hindistanda özünə geniş tərəfdarlar qazandı. Sonra isə Avropada və Amerikada geniş vüsət aldı.



**Koichi Tanaka**



**Takao Terano**

Dünya elm aləmi 1970-ci illərdən sonra qeyri-səlis məntiqin faydasını birmənalı şəkildə gördü və qəbul etdi. Yaponiya universitetlərində bu sahə üzrə bir neçə tədqiqat qrupu yaradıldı. Tokioda professorlar **Terano** və **Şibata**, Osakada professorlar **Tanaka** və **Asai** qey-



**Asai**



**Ebrahim Mandani**

ri-səlis məntiq nəzəriyyəsinin inkişafına və tətbiqinə böyük töhfələr verdilər. Onların qeyri-səlis avtomatlar, qeyri-səlis optimallaşdırma, qeyri-səlis reqressiya modelləri sahələrində aldıqları fundamental nəticələr qeyri-səlis məntiqin inkişafına böyük təkan verdi. Bundan əlavə bu alimlər avtomatik idarəetmə və qeyri-səlis sistem mühəndisliyi sahələrində də mühüm nəticələr əldə etmişlər.

1980-ci ildə Böyük Britaniyada professor **Ebrahim Mandani** Danimarkada sement zavodunu idarə etmək üçün tətbiq olunacaq mühərrik üçün ilk qeyri-səlis tənzimləyici layihələndirdi. Bu tənzimləyiciyə görə zavodun fəaliyyəti, effektivliyi daha da yüksəldi.

1987-ci ildə **Hitaçi** adlı alim Sendai şəhərində qatarın idarə edilməsi üçün qeyri-səlis tənzimləyicidən istifadə etdi. Yenə də 1987-ci ildə "Omron" şirkəti ilk dəfə olaraq kommersiya üçün qeyri-səlis qurğular hazırladı. Başqa kəşflərin də adını çəkmək olar. 1990-cı illərin əvvəllərində ilk qeyri-səlis məntiq çipləri ictimaiyyətə təqdim edildi. Omron və NEC şirkətləri 1991-ci ildə xüsusi qeyri-səlis elektron avadanlıqların inkişafını

elan etdi. İki il sonra "Yapon Omron Əməkdaşlıq" şirkəti texniki yarmarka zamanı işləyən qeyri-səlis çip nümayiş etdirdi. Məhz bu kəşflərə görə 80-ci, 90-cı illər qeyri-səlis məntiqə əsaslanan çoxlu sayda məhsul istehsalına görə "qeyri-səlis bum" dövrü kimi qəbul edilir.



**Jerzy Kasprzyk**



**Vitold Pedryez**

Qeyri-səlis məntiqi nəzəri cəhətdən də inkişaf etdirən alimlər oldu. Bu gün polşalı professor **J.Kasprzyk** qeyri-*səlis* məntiqi qərarlar analizinə, dinamik sistemlərin idarə olunmasına, hesablama intellektinin yaradılmasına böyük töhfə verir.

Kanadalı alim **V.Pedryez** qeyri-səlis mühəndislik, qeyri-səlis modelləşdirmə, qranula hesablamaları, qeyri-səlis idarəetmə sistemləri sahəsində samballı tədqiqatlar müəllifidir.

Türkiyəli professor **Tofiq Allahviranloo** qeyri-səlis riyaziyyatın inkişafında, o cümlədən qeyri-səlis cəbri və diferensial tənliklərin həllində fundamental nəticələr əldə etmişdir.

Bu kitabın həmmüəlliflərindən biri olan professor **R.Əliyev** 1970-ci illərdən başlayaraq yeni qeyri-səlis məntiqlər – ALİI, ALİ2, AİL3 (Əliyevin soyadından gö-

türülmüş) qeyri-səlis ekspert sistem, klassik qeyri-səlis nəzəriyyənin genişləndirilməsi olan Z-ədədlər hesabı yaratmışdır.

Müasir dövrdə qeyri-səlis məntiq sosial elmlərə müdaxiləsi ilə diqqəti cəlb edir. Siz artıq bilirsiniz ki, bu, Zadənin ən böyük arzularından biri idi. **Rafiq Əliyev** və **Kamal Abdulla** tərəfindən birgə yazılan iki kitab buna yaxşı nümunədir. İlk dəfə olaraq onlar qeyri-səlis məntiqin türk dünyasının qədim dil-mədəniyyət abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanına tətbiqini həyata keçirdilər. Eyni zamanda, onların ikinci birgə işi olan "Qeyri-səlis məntiq və dil-nitq" adlı tədqiqat dilçilik elmində yeni bir istiqamət açdı.

Bundan əlavə akademik **Muxtar İmanovun** yazdığı "Epos qəhrəmanlarında qeyri-səlislik" və professor **Haçan Haçanovun** "Neftçıxarmada qeyri-səlis məntiq" kitabları qeyri-səlis məntiqin sosial elmlərdə və sənayedə tətbiqlərinə aid gözəl nümunələrdir.



**Tofiq Allahviranloo**



**Muxtar İmanov**



**Haçan Haçanov**

Bu dərsdəki söhbətimizə sonluq kimi dahi fizik **Albert Eynşteyn** tərəfindən deyilmiş bu sözləri xatırlayıram. O deyirdi: “Riyaziyyatın qanunları nə qədər real dünyanı ehtiva edərsə, onlar bir o qədər qeyri-müəyyən olar və əksinə, onlar nə qədər müəyyən olarsa, bir o qədər real dünyanı əks etdirməz”. Buradan göründüyü kimi, Eynşteyn də o fikirdədir ki, qeyri-səlis riyaziyyat real aləmi daha adekvat əksetdirmə gücünə malikdir.

***Çalışmalar:***

1. Qeyri-səlislik sahəsində çalışan daha hansı alimləri tanıyırsınız?
2. Qeyri-səlislik ideyalarının daha hansı sosial elm sahələrinə tətbiqi maraqlı olardı?
3. Zadəyə qədər hansı alimlər qeyri-səlislik elementlərinə toxunublar?
4. Nə üçün qeyri-səlislik ideyaları Şərq müstəvisində özünü daha rahat hiss etdi?!

## 15-ci fəsil

## Ziya Səlcuq  8 "B" sinfində



**Ziya Səlcuq**

Fərhad müəllim növbəti dərsə də tək gəlmədi. Onu ucaboylu, yaşı çox olsa da, qıvraq, iti baxışları olan bir kişi müşayiət edirdi. Fərhad müəllim onu sinifdəkilərə təqdim edərək dedi:

– Uşaqlar, bu gün sizinlə görüşə görkəmli türk alimi, ictimai-siyasi xadimi, Türkiyənin eks təhsil naziri, professor Ziya Selcuq xoca gəlmişdir. Ona təklifimizi qəbul edib sizinlə görüşə gəldiyi üçün təşəkkür edirik. Ziya xoca Bakıda səfərdə idi və öz həmkarları – Rafiq Əliyev və Kamal Abdulla ilə "Uşaqlar üçün qeyri-səlis məntiq" kitabı üzərində işləyib fikir mübadiləsi aparırdı. Siz artıq müəlliflərdən biri ilə – hörmətli Rafiq müəllimlə tanış olmusunuz. O biri müəllif Kamal Abdulla da sizinlə görüşə razılıq verib və növbəti dərslərimizin birində o da bizim qonağımız olacaq. Mən artıq sizin qeyri-səlis məntiq üzrə pioner sinif olduğunuzu Ziya xocaya və Kamal müəllimə xəbər vermişəm. Buyurun, Ziya xoca, söz sizindir.

Ziya xoca şax addımlarla sinif yazı taxtasının düz ortasına gələrək üzünü sinfə tutub gülümsədi və gur səslə dedi:

– Salam, 8 "B"!

Sinifdə gurultulu alqış qopdu. Bu salamlama ilə uşaqların qəlbini ələ almış Ziya xoca alqışlar səngiyəndən sonra sözünə belə davam etdi:

– Türkiyədəki yaşıdlarınızdan sizə qeyri-səlis olaraq çoxlu-çoxlu salamlar gətirmişəm.

Yenə alqış səsləri sinfi bürüdü. Ziya xoca əli ilə işarə edib uşaqları sakitləşdirdi.

– Sizi təbrik edirəm ki, qeyri-səlis məntiqin sirlərinə vaqif olursunuz. Ən azından ona görə ki bu məntiqin yaradıcısı sizin həmyerliniz dahi alim Lütfizadədir. Bu barədə çox danışmaq istəmirəm. Bilirəm ki, xocanız sizə ətraflı məlumat vermişdir. Mən sizinlə söhbətimdə bədii ədəbiyyatda, özəlliklə də nağıllarımızda qeyri-səlis məntiqin izlərinə toxunmaq istəyirəm. Siz bilməlisiniz ki, bu izlər kifayət qədərdir...

Ziya xoca nəfəsini dərdi. Məlik yerindən onun dediklərinə müdaxilə etdi:

– "Dədə Qorqud" da onun izlərinə tez-tez rast gəlmək olur.

Ziya xoca Məlikin oturduğu skamyaya yanaşdı və ona müraciətlə dedi:

– Tamamilə doğru deyirsən. Bu haqda hətta onu da bilirsiniz ki, Rafiq xoca ilə Kamal xoca bir kitab da yazıblar. Xatırlayırsınızmı adını?

Yer-yerdən səslər ucaldı:

– Qeyri-səlis məntiq və Kitabi-Dədə Qorqud...

– Adı budur...

Ziya xoca cavabdan məmnun qaldı. Sözünə davam etdi:

– Bəli, o əsərin adı belədir. Düz deyirsiniz. Amma mən indi sizə başqa nağıllardan söz açmaq istəyirəm. Bu nağıllar təkcə bizim nağıllar deyil. Onlar digər xalqlara da bizim qədər aiddirlər. Və onlarda da biz yer-yer qeyri-səlis məntiqin izlərini görürük. Hətta bəzi nağıla çevrilmiş bədii mətnlər də var ki, onlarda da qeyri-səlisliyin izlərini görmək mümkündür. Siz fransız yazarı Ekzüperinin "Balaca şahzadə" əsərini oxumusunuzmu?

Sinifdə Minadan başqa heç kimin əli yuxarı qalxmadı.

– Səni alqışlayıram. İnanıram ki, oxuduqca bu əsər sənə xüsusi bir zövq verib, – sonra Ziya xoca yenə üzünü bütün sinfə tutdu. – Bu əsər ona həsr edilib ki, balaca bir şahzadə neçə-neçə planetə səyahət edir və hər planetdə fərqli personajlarla qarşılaşır. Burdakı hər personajın özünəməxsus baxış bucağı və həqiqət anlayışı olur. Məsələn, bir planetdəki kral düşünür ki, hər şey onun nəzarəti altındadır və o bütün kainata hökmranlıq edir. Amma onun ətrafında heç kim yoxdur.

İndi siz, uşaqlar, soruşa bilərsiniz. Bunun qeyri-səlis məntiqlə nə əlaqəsi var? İlk baxışda bunların arasında heç bir əlaqə yoxdur. Əslində isə əlaqə var. Balaca Şahzadənin hər planetdə müxtəlif anlayışlarla və baxış bucaqları ilə qarşılaşması reallığın yalnız birmənalı olaraq "doğru" və ya "yanlış"dan ibarət olmadığını göstərir. Bu əsər vasitəsilə uşaqlara situasiyaların müxtəlif dərəcələrdə *doğru* və ya *yanlış* ola biləcəyini, yəni qeyri-səlis məntiqin gündəlik həyatımızda necə təzahür etdiyini göstərmək mümkündür. Qeyri-səlis məntiq bu şəkildə, sanki gözə görükmədən öz həyatını bizim həyatımız-

da yaşayır. Başqa bir beynəlxalq nağıla diqqət yetirək. “Qırmızıpapaq qız” nağılını, yəqin ki, hamınız oxumusunuz, eləmi?!

Bu nağılı, əlbəttə ki, uşaqlıqda oxumayan qalmamışdı.

– Qurd gəlib nənəni yeyir və ovçu sonunda qurdu öldürür, nənə də sappasağ qurdun qarnından çıxır. Əcəb gülməlidi. Ha-ha-ha... – Zakir gülməli bir tərzdə, axırda öz həmişəki yalançı gülüşü ilə nağılın sonunu birnəfəsə danışdı. Bu süjet sinifdə hamıya məlum idi.

– Gülməli olmaya bilər. Amma ibrətamizdir. Gəlin, buradakı personajları və hadisələri diqqətlə təhlil edək. Qeyri-səlis məntiqin buradakı izlərini axtaraq.

Uşaqlar sakitləşib diqqətlə Ziya xocaya qulaq asmağa başladılar.

– Nağılda necədir?! Qırmızıpapaq qız nənəsinə səbətdə yemək aparır. Klassik məntiqə görə Qırmızıpapaq qızın səbətindəki bütün qidalar təzədir. Bu məntiqin əksi odur ki, qidalar təzə olmadığına görə köhnəlmiş sayılmalı və atılmalıdır. Qeyri-səlis məntiqə görə isə buradakı bəzi qidalar təzə, bəziləri isə bir qədər boyat ola bilər. Həyata hansı yaxındır?! Əlbəttə ki, sonuncu yanaşma. Davam edək.

Qırmızıpapaq qız meşədə canavarla qarşılaşanda canavarın niyyətini biz necə dəyərləndirə bilərik?! Onun niyyəti təhlükəli, az təhlükəli, yaxud çox təhlükəli kimi dəyərləndirilə bilər. Hələ bunların arasındakı çalarları demirəm.

Yaxud təsəvvür edək ki, Qırmızıpapaq qız nənəsinin evinə gəlib çatmışdır. Nənəsini isə qurd artıq nə edib?

– Yeyib, üstündən də su içib. Yaramaz qurd!.. – Zakir qurda nifrətini təkcə sözü ilə deyil, intonasiyası ilə də bildirdi.

– Bəli, doğrudur. Nənəsinin evinə çatdıqda Qırmızı-papaq qız nənəsinin səsini eşidir, amma bu səs ona şübhəli gəlir. Balaca qız bu səsi tanımağa çalışır. O hiss edir ki, nənəsinin səsi bu dəfə bir qədər fərqli çıxdı, həmişəki kimi deyil. İndi bu səs "bir az qəribə", yaxud "çox qəribə" kimi qəbul edilə bilər. Bəs əslində, qurdun öz səsi necədir?! Bu səs qorxuludurmu?! Bu səs bir az qorxuludur, yoxsa çox qorxuludur?! Baxın, cocuqlar, bunlar hamısı qeyri-səlisliyin təzahür formalarıdır. Və bizim nağıllarımızın daxili ruhuna çökmüşlər. Qeyri-səlislik təkcə bu günümüzün içində deyil, o bizim həm də keçmişimizin içindədir.

İndi də gəlin məşhur *"Mickey Mouse və dostları"* hekayəsində qeyri-səlis məntiq elementlərini axtaraq.

Mickey və onun dostları böyük bir bal təntənəsinə hazırlaşırlar. Lakin bal salonunda musiqi sistemini işə salmaq üçün hər hansı deyil, müəyyən səslə danışmaq tələb olunur. Musiqi sistemi yalnız Mickey-nin səsi müəyyən bir səviyyədə olduğu zaman aktivləşir. Mickey sistemin hansı səviyyədə səs tələb etdiyini bilmir. O, müxtəlif səs tonlarını işə salıb təcrübələr aparır. O, musiqini başlamaq üçün adi səslə, yüksək səslə, daha yüksək səslə "Xoş gəlmisiniz " deyir və bu zaman, bəlkə, özü də bilmir ki, qeyri-səlis məntiqdən (variantlardan) istifadə edir. Və Mickey doğru səs tonunu tapana qədər müxtəlif səs tonlarını işə salır, nəhayət, doğru olanı tapır, nəticədə, sistem aktivləşir və musiqi guruldayır.

Sizə başqa bir hekayə ilə bağlı misal deyim. Siz *“Tom və Jerry”* hekayəsi ilə tanışsınızmı?

– Multfilmini görmüşük... – Zakir suala belə cavab verdi.

– Yəni xocam, animasyon filmi nəzərdə tutur, – deyə Fərhad müəllim aydınlıq gətirdi.

– Gözəl. O zaman belə bir məqamı, ola bilsin ki, xatırlarsınız. Tom Jerryni tutmaq üşün bir tələ qurmaq istəyir. Burada tələnin sürəti maneə yaradır. Tələ Jerry-ni tutmaq üşün nə çox yavaş, nə də çox sürətlə işləməlidir. Tom tələnin işləmə sürətini təyin etmək üçün fərqli sürətlərdə sınaqlar keçirir. Fərq etdinizmi, yenə də qeyri-səlis məntiq işə düşür. Əvvəlcə Tom tələni çox yavaş sürətlə işə salır. Tələ işləmir. Sonra Tom tələni çox sürətlə işə salır. Tələ yenə işləmir. Daha sonra Tom tələni orta sürətlə işə salır. Bu zaman tələ işləyir. Beləliklə, görürük ki, Tom düzgün sürəti tapana qədər fərqli sürətlərlə təcrübə aparır və sonunda Jerryni tutmağa nail olur. Beləliklə, tələnin sürəti yalnız “yavaş”, yaxud “sürətli” deyil. O, bir az sürətli, orta sürətli, kimi dərəcələrlə qiymətləndirilə bilər. Bu müxtəlif dərəcələr isə qeyri-səlisliyin birbaşa təzahür formalarıdır.

Sizə demək istərdim ki, həyatınızdakı hər hansı məqamı da bu şəkildə dərəcələrə bölə bilərsiniz. Reallığa yaxın olmaq üçün hökmən bölməlisiniz. Riyaziyyat kimi dəqiq elmlərdə belə bu sizin işinizə yarıyacaq. Ölkələri iqliminə görə saf-çürük etdiyiniz zaman az isti, çox isti deyə bölərkən, maddələri hallarına görə ayırarkən, cəmiyyət daxilində insanları maddiyyata görə müxtəlif zümrələrə yerləşdirərkən, alış-verişdə endirimləri qiymətləndirərkən, bazardan aldığınız qidaları təzəliyinə görə ayırarkən, filmin janrlarını müəyyənləşdirərkən, id-

manın sizdə hansı təəssüratı buraxdığına görə dərəcələrə bölərkən, hətta məktəbdə keçdiyiniz dərslərin belə maraqlı olub-olmamasını təyin edərkən siz istər-istəmız qeyri-səlis məntiqdən istifadə edirsiniz. İndi qeyri-səlis məntiqə görə bugünkü dərsi necə qiymətləndirirsiniz? Maraqlı, az maraqlı, çox maraqlı, yoxsa ... "belə də?!.."

– Çox maraqlı, müəllim...

– Çooox maraqlı...

– Rafiq müəllimlə, Kamal müəllimlə bir yerdə yazdığınız kitab nə zaman işıq üzü görəcək?

Yer-yerdən razılıq səsləri və suallar ucalmaqda idi.

Elə bu zaman zəng vuruldu və 8 "B" sinfi Ziya müəllimi dövrəyə alaraq ona Türkiyədəki məktəblər barədə, məktəblərdə oxuyan həmyaşları barədə nəfəsləri kəsilmədən suallar verməyə başladılar. Ziya xoca bu suallara cavab verməkdən yorulmadı, sonunda 8 "B" ilə gələn səfərki gəlişində bir daha görüşəcəyini vəd verdi və onlar ayrıldılar.

P.S. Qeyri-səlis məntiqi daha dərindən anlamaq üçün digər fənlərə də müraciət etmək özünü doğruldur. Digər fənləri tədris edən müəllimlər qeyri-səlis məntiqin izlərilə bağlı məlumatı **Əlavə 4-də** ala bilər.

***Çalışmalar:***

1. Başqa bir nağılda qeyri-səlisliyin izlərini tapın.
2. Həyatınızda özünü göstərən qeyri-səlis məntiq elementlərini sadalayın.
3. Seçdiyiniz hər hansı bir filmdə personajların xüsusiyyətlərini qeyri-səlis məntiq dərəcələri ilə analiz edin.
4. Hər hansı bir nağılda təsvir edilən hadisələr və ya əşyaları seçib onları qeyri-səlis məntiq dərəcələri ilə analiz edərək qısa bir təqdimat hazırlayın.

## 16-cı fəsil

## Qeyri-səlislik və "Kitabi-Dədə Qorqud"

Gələn dəfə Fərhad müəllim növbəti qeyri-səlis məntiq dərsinə yeni bir qonaqla gəldi. O, Rafiq müəllimin haqqında danışdığı dilçi alim Kamal Abdulla idi. Əvvəlcə Fərhad müəllim qonaq haqqında sinifdəkilərə məlumat verdi. O, Kamal Abdullanı dilçi, mədəniyyətşünas olmaqla yanaşı, həm də "Kitabi-Dədə Qorqud" dastanının gizli tərəflərini tədqiq edən alim kimi təqdim etdi. Qeyd etdi ki, Kamal müəllim "Dədə Qorqud dastanının gizli qatı ilə bağlı silsilə elmi araşdırmaların müəllifidir. Bu araşdırmalar elə belə də adlanır: "Gizli Dədə Qorqud". İndi Rafiq müəllim və Kamal Abdulla bir yerdə qeyri-səlis məntiq prinsiplərini sosial elmlərə tətbiq etmək üzərində çalışırlar. Bununla onlar Zadənin arzusunu həyata keçirirlər. Yazdıqları iki kitabdan biri artıq Azərbaycan dilində, türk dilində və alman dilində nəşr edilib. Bu kitabın adı "Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq"dir. Kitabın bir neçə elmi dairədə və universitetlərdə müzakirələri keçirilmiş, alimlər ona yüksək qiymət vermişlər. İndi də məşhur "Şpringer" nəşriyyatı kitabın ingilis dilində nəşrini hazırlayır. Bu yaxınlarda o kitab işıq üzü görəcəkdir. Onların yazdığı ikinci kitabın adı isə "Qeyri-səlis məntiq və dil-nitq"dir. Onun da mü-

zakirələri müxtəlif elmi qurumlarda və universitetlərdə uğurla həyata keçir.

Kamal müəllim şagirdlərlə mehribancasına görüşdükdən sonra sözünün əvvəlində sinfə belə bir ümumi sual verdi:

– Mən ilk olaraq sizdən bunu soruşmaq istəyirəm. Hansınız qədim dastanımız “Kitabi-Dədə Qorqud”u oxumusunuz? Məktəb proqramı çərçivəsini və Azərbaycanfilmin çəkdiyi “Dədə Qorqud” filmini unudaraq kim bu suala səmimi cavab verər? Buyur...

Bütün sinifdə yeganə əl qaldıran şagird Əhməd oldu.

– Adın nədir? – Kamal müəllim ona yanaşıb soruşdu.

Əhməd ayağa qalxaraq adını söylədi və gözlədi ki, Kamal müəllim ondan yenə nə isə soruşacaq. Kamal müəllim isə Əhmədə deyil, bütün sinfə müraciət etdi:

– Sinfinizdə bir nəfərin “Dədə Qorqud”u oxuması, sizcə, necə bir haldır?

– Acınacaqlı... – otağa çökmüş sükut içində yenə də Zakirin asta, amma qətiyyətli, eyni zamanda kinayəli səsi eşidildi.

– Ay sağ ol. Həqiqətən, bu belədir. Amma onu da deyək ki, Əhməd olmasaydı, dastanı bir nəfər belə oxumuş adam tapılmayacaqdı. Bu isə daha acınacaqlı olacaqdı. Bir nəfər də bir nəfərdi, – sonra Kamal müəllim üzünü yenə də Əhmədə tutdu. – Necə keçdi bu mütaliə? Dastanı oxuduqca mətndəki hər sözü anlaya bilirdinmi?

Əhməd dedi:

– Yox, hər sözü anlamırdım. Amma anlamadıqlarımı Zərbəli müəllimdən soruşurdum. O izah edirdi. Zərbəli müəllim bizim ədəbiyyat müəllimimizdir. Dastanda çoxlu ərəb-fars sözləri var. Filmdə isə bu sözlər hamısı başa düşdüyümüz Azərbaycan dilində verilib.

– Amma film də tam olaraq "Dədə Qorqud" deyil, eləmi?

– Bəli, elədir. Film dastanın bir boyunun təsviri üzərində qurulub. Dastan, təbii ki, daha zəngin süjetə və dilə malikdir.

– Elədir. Əyləş, Əhməd. Mən sənə onu demək istəyirəm ki, sabah hansı peşəni, yaxud ixtisası seçməyindən asılı olmayaraq, Dastandan əxz elədiklərin hər hansı ixtisas yolunu sənin üçün daha da aydın edəcəkdir. Heç nə itmir, heç nə yox olmur. İstər riyaziyyatçı olun, istər fizik olun, istər mühəndis olun, istər həkim olun, oxudunuzsa, Dastan həmişə, yaşınızın istənilən çağında sizinlə olacaqdır. Sizin beyninizin müxtəlif guşələrində, qəlbinizin içində yaşayacaqdır. Sizə hərdən elə gələcəkdir ki, siz onu unutmusunuz. Amma belə deyil. O sizin altşüurunuzda qalaraq davranışlarınızı, həyata münasibətinizi daim tənzim edəcəkdir.

Uşaqlar Kamal müəllimə maraqla qulaq asırdılar. Kamal müəllim danışdıqca, onların xalqımızın qədim dil və mədəniyyət nümunəsi olan "Kitabi-Dədə Qorqud" dastanı barədə bildiklərinə yeni cizgilər əlavə olunurdu. Qəhrəmanların, süjet xətlərinin özünəməxsus xüsusiyyətləri, situasiyaların bəzən gözlənilməz məcraya düşərək davamı, başqa xalqların qədim dastanları ilə əlaqələr uşaqlar üçün son dərəcə maraqlı idi. Kamal müəllim söhbəti yavaş-yavaş qeyri-səlis məntiqin üzərinə gətirdi:

– Baxın, bu qədim dastanımızda dilimizin, təfəkkürümüzün dərin qatları gizlənib. Mən ayrı-ayrı sözlərin anlaşılmadığı bir qatı nəzərdə tutmuram. Mən dil tərpənişlərindən yaranan incə, həssas məqamları, mifoloji dövrə aid səciyyələri nəzərdə tuturam. Metaforaların dil

xəstəliyinin nəticəsində meydana çıxmasına diqqətinizi yönəltmək istəyirəm. Qədim əcdadımızın təfəkkürünün dərinliklərində özünü göstərən qeyri-səlis məntiq prinsiplərindən söz açmaq istəyirəm. Bu prinsiplər o qədim dövrdə əcdadımızın şüurunda özünə yer tapmışdımı?! Bəli, bu suala müsbət cavab verə bilərik. Kim deyər, Aristotelin səlis məntiqində hansı əsas prinsip var idi?

Sinifdə ordan-burdan əllər havaya qalxdı. Kamal müəllim Əhməd oturan skamyaya yanaşdı:

– Buyur, sən söylə, Əhməd.

Əhməd ayağa qalxıb suala cavab verməyə başladı:

– **Aristotel** nəzəriyyəsinə görə, iki əks qütb arasına üçüncünü yerləşdirmək mümkün deyil. Onun məntiqinə görə adam ya ölüdür, ya diridir. Orta hal istisna edilir. Rəng ya ağdır, ya qaradır. Orta hal yoxdur. Zadə isə bunu təkzib edərək iki əks qütb arasında orta halın və digər halların da olduğunu sübut etdi. Zadənin qeyri-səlis məntiqinə görə ağla qara arasında ağımtıl, qaramtıl, ağtəhər, boz və başqa orta hallar da ola bilər. Buradan isə belə çıxır ki, bizim dünyamız bizim gördüyümüzdən daha rəngarəngdir.

– Ay sağ ol, Əhməd, – Kamal müəllim Əhmədin dediklərindən razı qaldı. -- Çox doğru dedin. Sən görünür, qeyri-səlis məntiqin daxili ruhunu tuta bilmisən. Əsas məqsəd dünyamızı onun mövcud olduğu rəngarənglikdə görməkdir. Bir var ancaq səhəri və axşamı görəsən, bir də var onların bir-birinə keçmə çalarlarını da görəsən. Əslində, qeyri-səlis məntiq dünyamızı rəngli televizorda göstərməyə cəhd edən bir apparatdır desək, səhv etmərik. Maraqlıdır ki, belə bir cəhdin qədim dastanımızda da öz əksi var. Məsələn, diri ilə ölü arasında belə orta

halın mövcudluğu dastanımızda dilimizin köməyilə öz təsbitini tapıb.

Əhmədin əli yenə də qalxdı.

– Buyur, Əhməd, sən nəsə demək istəyirsən?

– Bəli, – Əhməd ayağa qalxdı. – Demək istəyirəm ki, "Dədə Qorqud" dastanında bu halın adına "kiçicik ölüm" deyirlərdi. Müasir tib dilində bu koma halının adıdır.

Kamal müəllim həm təəccübləndi, həm də sevindiyini gizlətmədi:

– Sən maraqlı bir misal gətirdin... Mən də elə indi bu misalın ətrafında sizinlə söhbət etmək istəyirdim. Yəqin ki, dastanımızda ilkin demokratiya ilə bağlı məsələlərdən də xəbəriniz var.

– Var, müəllim. Fərhad müəllimlə bu barədə danışmışıq, – Yer- yerdən səslər yüksəldi.

Kamal müəllim Fərhad müəllimə minnətdarlıqla baxdı. Sonra yenə də üzünü sinifdəkilərə tutdu. O dedi:

– O zaman biz sizinlə nədən danışacağıq?! Siz, maşallah, bütün məsələləri həll etmisiniz ki... Gəlin, belə davam edək. Sizdə gərək elə təsəvvür yaranmasın ki, iki qütb arasında üçüncü halın istisnasının istisnası qədim insanları düşündürmürdü. Onlar bu barədə fikirlər söyləyirdilər, buna uyğun müvafiq misallar tapırdılar. Amma bunu səlis halda bir prinsip halına gətirə bilmirdilər. Onlar buna təhtəlşüuri, yəni düşünülmüş şəkildə olmadan yanaşırdılar. Məsələn, hələ Aristotelin vaxtında sonradan tarix elminin babası adını qazanmış **Herodot** adlı bir alim yaşayırdı. Onu da iki qütb arasında nə baş verə bilər sualı düşündürmüşdü. O da iki qütb arasında üçüncünü axtarırdı. Və Herodot üçüncünün iki qütb arasında yer tutmasını belə bir misalla diqqətə çatdırırdı. O

deyirdi: “Bir var sağ adamlar, bir var ölmüş adamlar. Bir də dənizə çıxan adamlar var”.

Baxın, Herodota görə, dənizə çıxan adamlar iki qütbün – sağlarla ölmüşlərin arasında yer alır. Bu adamlar, sanki diridirlər, amma ölmüşlər qədər təhlükədədirlər. Dənizə çıxmaq “ol zamanlar” daha cəsarətli və təhlükəli bir addım idi. Onlar, sanki nə sağdırlar, nə də ölüdürlər. Amma biz gərək onu da deyək ki, Herodot bu fəlsəfi prinsipi intuitiv şəkildə duyurdu, onu möhkəm dəlillərlə, yəni məntiq prinsiplərilə iki qütb arasına qoymaqdan uzaq idi. O bu üçüncü halı konkret olaraq bir müşahidəsi əsasında axtarıb tapmışdı.

Zadəyə qədər bu məsələni duyan (hiss edən) digər alimlər də olmuşdu. Amma onlar da, əsas etibarilə, üçüncünü iki qütb arasına cəsarətlə yerləşdirməyə can atmamışdılar. İlk dəfə bunu Zadə etdi. O, 1965-ci ildə qeyri-səlis məntiq adlı bir nəzəriyyəni elm aləminə bəyan etdi. Biz fəxr etməliyik ki, bu nəzəriyyənin müəllifi əslən azərbaycanlı olan alimdir. Siz bilirsinizmi, Zadənin ən böyük arzusu nə idi?! Onun ən böyük arzusu qeyri-səlis məntiqi sosial elmlərə tətbiq etmək idi.

Nəhayət, Zakir bu yerdə dözmədi, yerindən dedi:

– Biz bilirik ki, siz Rafiq müəllim Əliyevlə bunu etmisiniz.

– Bunu da bilirsiniz. Sizinlə danışmaq qorxuludur, – Kamal müəllim zarafat eləmək istədi.

Mina Zakirin dediklərinə belə bir əlavə etdi:

– İlk birgə kitabınız “Kitabi-Dədə Qorqud” və qeyri-səlis məntiq” adlanır. İkinci kitabınızın adı isə “Qeyri-səlis məntiq və dil-nitq”dir.

Əhməd də onlardan geri qalmadı:

– İndi də yeniyetmələr üçün qeyri-səlis məntiq üzərində işləyirsiniz.

– Bəli, elədir ki, var. Bu üçüncü kitabın bir başqa adı da var. O həm də belə adlanır: “Riyaziyyatsız qeyri-səlis məntiq”. Necədi, hansı ad sizin üçün daha maraqlıdır?

Zakir hamını qabaqladı:

– Əlbəttə, riyaziyyatsız olan. Riyaziyyat adamı kitabdan qaçırdır.

Uşaqlar fəallaşdılar. Sinif riyaziyyat tərəfdarlarına və əks cəbhəyə bölündü. Minanın əli havaya qalxdı və o, Kamal müəllimə müraciətlə:

– Müəllim, bir sualım var. Olar? – dedi.

– Buyur, eşidirəm səni, – deyə Kamal müəllim Minaya cavab verdi.

– Müəllim siz niyə kitabınızın adını **“Gizli Dədə Qorqud”** qoymusunuz? Burda gizli olan nədir?

Kamal müəllim fikrə getdi. Uşaqlara hardan başlayıb harda qurtarmaq lazım gəldiyini düşündü. Belə qərara gəldi ki, onlara çalışıb məsələni sadələşdirməklə cavab verməsin. “Ağıllı uşaqlardır, deyilənləri başa düşəcəklər”. Belə düşünüb o, Minanın sualına cavab verməyə başladı:

– Bilirsinizmi, hər bədii mətnin ən azından iki qatı var. Birinci qat oxucunun oxuduğu qatdır. Biz bu qatda süjet xətti ilə tanış oluruq. Əsərin ikinci daha dərindəki qatı isə müəllifin sənə süjet xəttindən kənarda ötürmək istədiyi gizli informasiyadan ibarət olur. O bunu müxtəlif vasitələrlə həyata keçirir. Burada eyhamlar, şifrələnmiş deyimlər, üst qatda geniş təsvirini tapmamış məqamlar əsas rol oynayır. Bəzən bir söz və ya cümlə vasitəsilə biz qəhrəmanın bu və ya digər özəlliyi barədə gizlədil-

miş məlumat ala bilirik. Bəzən bu məlumat şifrələnmiş kimi görünə bilər. Bəzən də özünü yad müdaxilədən gizlədə bilər. Bu gizli qatdakı informasiya bizə imkan verir ki, əsərin mahiyyətini daha əhatəli, daha dolğun şəkildə anlayaq. Bizim Dastanımızda da gizli qata aid xeyli məqamlar var, onlar, sanki əsas süjet xəttindən gizlədilmiş şəkildədir. Amma bəzən elə əsas süjet xəttinin özünün hansısa işarələrinə görə biz o dərin, gizli qata enə bilirik. Belə olarkən dastan barədə, buradakı qəhrəmanlar barədə daha əhatəli bilgi qazanmış oluruq.

Sinfə çökmüş dərin sükut ondan xəbər verirdi ki, deyilənlər uşaqlar tərəfindən maraqla mənimsənir. Kamal müəllim bunu hiss elədi və sözünə daha inamla davam etdi:

– Dərindəki gizli qat öz-özlüyündə bir sistem içindədir. Dastanda bunu müşahidə eləmək mümkündür. Onu da qeyd edim ki, bu gizli qat bizə imkan verir ki, dastanımızı daha geniş kontekstdə ələ alaq. Onun digər dünya dastanları ilə müqayisəsini daha optimal şəkildə aparaq. Eyni zamanda dar kontekst çərçivəsində qəhrəmanların, dediyim kimi, mahiyyətini daha hərtərəfli anlayaq. Bu anlama bizi sadəcə ədəbi kontekstə çıxarmır, eyni zamanda biz psixoloji, sosioloji, tarixi kontekstlərdə də dastanın verə biləcəyi impulsları qəbul etməyə hazır olmalıyıq. Gizli qat, beləliklə, süjetin aşkar şəkildə vermədiyi, vermək istəmədiyi, yaxud verə bilmədiyi mətləblərdən qurulur.

Kamal müəllim sözünü bitirər-bitirməz Minanın əli yenə havaya qalxdı.

– Buyur, yaxşı qız... – Kamal müəllim Minaya söz verdi.

– Müəllim, bu dediklərinizi misal vasitəsilə təsdiq eləmək olar?

– Məncə, olar, – Kamal müəllim uşaqların üzünə diqqətlə baxıb gördü ki, əslində, bu sual onların hər birinin sualıdır. – Olar. Əlbəttə, olar... Baxın, yadınıza gəlirsə, dastanın əsas qəhrəmanlarından biri olan Beyrəyi toy gecəsi Bayburd hasarının, yəni qalasının bəyi oğurladıb aparır və zindana salır. Casus ona xəbər gətirir ki, Baybecan bəy əvvəl sənə verəcəyi qızını Boz atlı Beyrəyə verir. Beyrək beləliklə, dustaq edilir və onun Banuçiçəklə toyu baş tutmur. Beyrək 17 il Bayburdda həbsdə qalır. Oğuzda kimsənin onun taleyi barədə məlumatı yoxdur. İndi mənim sizə belə bir sualım var. 17 il həbsdə olan bu Oğuz cəngavəri həbsdə özünü necə aparmalıdır? Normal, səlis məntiq deyir ki, Beyrək el-obasının, sevgilisi Banuçiçəyin, ata-anasının, bəylərbəyisi Salur Qazanın həsrətindən gözünün kökü saralmalı, yediyi-içdiyi ona zəhər olmalı, ürəyi partlamaq dərəcəsinə gəlməlidir. Belədi, belə deyil?

Yerlərdən “belədir, əlbəttə, belədir... vətən həsrəti, ailəsinin həsrəti, Banuçiçəyin hicranı... yazıq bir gör hansı dərdlərə sinə gərib...” sözləri ucaldı. Beyrəyin əzabkeş sifəti hamının az qala gözləri önündə canlandı.

– Siz indi səlis, klassik məntiqlə düşünürsünüz. Bəli, belə olmalı idi. Amma Dastan baxın görün bir cümlə vasitəsilə bizə nə deyir?! – Kamal müəllim Dastanda gizli qata aparan məqamı təsvir edən cümlələri əzbərdən deməyə başladı:

– “Məgər, xanım, Bayburd bəyinin bir bikr qızı var idi. Beyrəyə vurulmuşdu. Hər gün onu görməyə gəlirdi. Bir gün gəldi, gördü ki, Beyrək səxtdir. Dedi: “Noldu

sənə xanım yigit? Hər gəldiyimdə səni şən görərdim, deyərdin, gülərdin...”

Baxın, uşaqlar, Bayburd bəyinin bakirə qızının bu son gəlişində Beyrək səxt olmuşdur, yəni qanı qaralmışdır. Bunun da öz səbəbi var. Atasının bəzirganları ona xəbər çatdırmışlar ki, Banuçiçəyi Yalançı oğluna ərə verirlər. Çünki o, Beyrəyin öldüyü xəbərini gətirmişdir. Onun üçün Beyrək belə pərişandır. Amma bu Beyrək hər gün kafir bəyinin qızı gələndə şənlənirmiş, deyirmiş, gülürmüş. Vətən həsrəti çəkən bir dustaq üçün bu durumları bəs hara yazaq?! Baxın, gizli qatın Beyrəyi budur! Aşkar qatda biz bir Beyrək görürük, gizli qatda – başqa Beyrək. Gizli qatda öyrəndiyimiz xassəsi bizə Beyrəyi bütöv, əhatəli anlamağa kömək edir. Onu psixoloji cəhətdən dolğun, yəni bir neçə halı özündə birləşdirən bir qəhrəman kimi məhz gizli qatdakı təsvirindən görürük. Beyrək birmənalı obraz deyil, bir neçə mənalı obraz kimi gözümüz önündə canlanır. Bir neçə variantlı olması isə mən indi belə düşünürəm ki, bu obrazın, mahiyyət etibarilə, qeyri-səlis təsvirinə aparan bir yol kimi də diqqəti cəlb edə bilər.

Zəng vuruldu. Özü də elə bir münasib vaxtda vuruldu ki, Kamal müəllim artıq fikirlərini tamamlaya bilmişdi. Uşaqlar hörmətlə ayağa qalxıb onunla sağollaşdılar.

– Müəllim, yenə gəlin.

– Kitablarınızı hardan almaq olar?

– Daha hansı gizli tərəflər var dastanda?

Kamal müəllim təbəssümlə:

– Bunu da artıq siz düşünün. Dastanı diqqətlə oxusanız, bu suala özünüz cavab verəcəksiniz. Hökmən yenə də görüşəcəyik, – deyib sinif otağını Fərhad müəllimlə bir yerdə tərk elədi.

***Çalışmalar:***

1. "Dədə Qorqud" dastanında hansı qeyri-müəyyən məqamları qeyd etmək olar?
2. Qeyri-səlis məntiqin ictimai elmlərə tətbiqi ilə bağlı hansı faktları deyə bilərsiniz?
3. "Dədə Qorqud" dastanında hansı qəhrəmanlar psixoloji baxımdan yüklənmiş sayıla bilər?
4. Monumental qəhrəmanlarla psixoloji baxımdan yüklənmiş qəhrəmanlar arasında hansı fərqlər var?

## 17-ci fəsil

## Süni intellekt və qeyri-səlis məntiq

Növbəti dəfə Fərhad müəllimin sinifdə dediklərindən yadda qalan həm də bunlar oldu:

– Əsrimiz süni intellekt əsridir. İndi həyatımızın bütün sahələrində süni intellektin izləri ilə üzləşirik. Demək olar ki, süni intellekt bəşəriyyəti yeni, daha tolerant sivilizasiyaya aparan yoldur. Ona görə tolerant deyirəm ki, süni intellekt konsepsiyasının əsasında tolerant qeyri-səlis məntiq durur.

Sinifdə tam sükut bərqərar olmuşdu. Hər kəs diqqətlə Fərhad müəllimi dinləyirdi. Fərhad müəllim həvəslə davam etdi:

– Süni intellekt insanlar kimi düşünən funksiyaları yerinə yetirə bilən maşınların yaradılması prosesidir. Başqa sözlə desək, süni intellekt insanlar kimi düşünmək və vəzifələri yerinə yetirmək üçün yaradılmış bir vasitədir. Süni intellektin yaradılma prosesinə onun funksiyalarını daha ağıllı, daha səmərəli və etibarlı şəkildə yerinə yetirməyə imkan verən qabaqcıl texnologiyalar daxildir. Bunlara qeyri-səlis məntiq, insan beyninin analoqu olan neyron şəbəkəli, genetik hesablamalar, təbii dilin emalı texnologiyası maşın öyrənməsi, intellektual robotlar və s. daxildir.

Hökmən qeyd edək ki, ilk dəfə düşünən maşınlar barədə elmi fikir L.Zadənin 1950-ci ildə çap edilmiş “Thinking Machines” adlı məqaləsində təqdim edilmişdir. Beləliklə, düşünmək olar ki, süni intellektin pioneri L.Zadədir.

Gəlin, indi də qeyri-səlis məntiqə əsaslanan süni intellekt elementlərinin istifadə olunduğu bir neçə sahəyə diqqət yetirək:

qeyri-səlis süni intellekt sistemləri ən çox təbabətdə, məsələn, DNA araşdırmalarında, robot cərrahlığında və digər sahələrdə geniş tətbiq olunur.

qərar vermə dəstəyi və tövsiyə sistemlərində qeyri-səlis məntiq qeyri-müəyyən, qeyri-dəqiq və ya natamam məlumatların olduğu hallarda optimal həlli tapmağa imkan verir;

təbii dil emal sistemləri: Qeyri-səlis məntiq birmənalı olmayan, qeyri-müəyyən sözləri, ifadələri və ya dil konstruksiyalarını daha yaxşı başa düşməyə və tanımağa imkan verir;

avtomobil sistemləri: Qeyri-səlis məntiq sürücü davranışını modelləşdirmək və yaxud avtomobil idarə etməyə kömək etmək, enerji səmərəliliyini idarə etmək və ya sürüş rahatlığını təmin etmək üçün istifadə olunan avtomobil idarəetmə sistemində istifadə olunur.

Bundan əlavə, qeyri-səlis məntiq mürəkkəb izləmə prosesini təkmilləşdirmək və naviqasiyada dəqiqliyi artırmaq üçün də istifadə olunur.

Bu gün süni intellekt sistemləri real həyatımızda bir çox məsələləri daha səmərəli, daha tez və daha effektiv həll etməyə imkan verir. Bunların bir neçəsinə baxaq: mətndən informasiyanın avtomatik çıxarılması; mətnin

xülasələşdirilməsi, sual-cavab sistemlərinin yaradılması, nitqin və simvolların avtomatik tanınması; nitqin sintezi; bir dildən başqa dilə tərcümə; ontalogiyaların yaradılması; elektron lüğətlərin yaradılması və s.

İndi də gəlin real həyatınızda istifadə olunan bir neçə süni intelekt nümunələrinə nəzər yetirək. 600 illik yaşı olan ən sirli kitab hesab edilən "Voyniç" 240 səhifədən ibarət müxtəlif təsvir və diaqramları olan mətndən ibarətdir. Uzun illər boyu dilçilər, kirptoqraflar bu kitabın sirrlərini açmağa çalışsalar da, onun mətnindəki sirli kodların və simvolların mənalarını aça bilməyiblər. Kanadanın Alberta Universitetinin alimlərinin (müəlliflərin yaxın həmkarı və dostu olan Witold Pedrycz bu sahədə bu universitetin professorudur) yaratdıqları süni intellekt sistemi bu kitabın sirlərini açmağı çox yaxşı bacarıb.

Məşhur süni intellekt vasitəsi olan ChatGPT ilə istənilən sahədə (dilçilik, ədəbiyyat, təbabət və s.) canlı dialoq apara bilərik. Məsələn, ChatGPT-dən soruşaq ki, Azərbaycan poeziyası haqqında nə məlumatınız var? ChatGPT bu suala belə cavab verir: Burada klassik (XI-XIX) və müasir (XX-XXI) poeziyanı fərqləndirmək lazımdır. Birinci dövr Nizami, Füzuli, Sabir və başqaları (biz cavab verilən mətni qısaltdıq – müəlliflər) kimi poeziya nəhənglərini əhatə edir. Müasir dövr XX əsrdən etibarən müxtəlif şairləri əhatə edir.

Süni intellektin və dilçiliyin sinerjisi təbii dilin emalı (NLP) kimi yeni bir elm sahəsinin yaradılmasına gətirdi. Təbii dilin emalı (NLP) nədir?

Təbii dilin emalı (NLP) kompüter dilçiliyini və qeyri-səlis məntiqi özündə birləşdirərək rəqəmsal yanaşma əsasında təbii dildəki mətn və nitqi anlayıb başa düşməyə və yeni mətn yaratmasına imkan verir.

Təbii dilin emalı (NLP) təkcə yeni mətnlərin hazırlanması, bir dildən digər dilə tərcümə kimi məsələlərini deyil, aşağıda sadalanan digər vacib funksiyaları yerinə yetirir:

– yazılı və ya şifahi suallara cavab verir;

– səs əsasında istifadəçiləri tanıyan və ya identifikasiya edən vasitə olur;

– böyük həcmli mətni ümumiləşdirən vasitə olur;

– mətndə və ya nitq dəməqsədə uyğun olaraq istək və ya hissi qiymətləndirə bilən süni intellekt elementi olur.

Məlumdur ki, insan dili o qədər qeyri-müəyyənliklərlə doludur ki, bu da NLP sisteminin yaradılmasını inanılmaz dərəcədə çətinləşdirir. Mətnin və ya səs məlumatlarının nəzərdə tutulan mənasının dəqiq müəyyən edilməsi mümkün olmur.

Omonimlər, omofonlar, sarkazm, idiomlar, metaforalar, cümlədə istifadə olunan istisnalar, cümlə strukturunda variasiyalar – bunlar insan dilində mövcud olan uyğunsuzluqların (bunlara bədii süsləmələr də deyə bilərik) yalnız bir neçəsidir.

NLP, əsasən, aşağıdakı funksiyaları yerinə yetirməyə imkan verir.

**Nitqin tanınması** – bu, səs məlumatlarını etibarlı şəkildə mətnə çevirmək funksiyasını daşıyır. Səslə verilmiş bütün əmr və ya danışıq suallarına cavab üçün nitqin düzgün tanınması tələb olunur. Nitqin tanınmasını xüsusilə çətinləşdirən insanların danışıq tərzidir, məsələn, sürətli nitq, çaşqınlıq yaradan sözlərdən istifadə, səhv vurğu və intonasiya, fərqli tələffüz və çox vaxt səhv qrammatikadan istifadə burada manelər yarada bilir.

**Spamın aşkarlanması**: Ən yaxşı spam aşkarlama texnologiyaları NLP-nin mətnin klassifikasiya edilməsi

imkanlarından istifadə edir. Bu vasitə ona görə istifadə olunur ki, spama zəif qrammatik biliklər, təhdidedici mətn, israredici mesaj və s. daxil ola bilər. Spam aşkarlanma həlli vacib olan NLP problemlərindən biridir.

**Social medianın sentiment təhlili**: NLP sosial media kanallarından gizli məlumatların aşkarlanması üçün vacib bir alətə çevrilmişdir. Sentiment təhlil sosial media yazılarında, cavablarda, rəylərdə və s. istifadə olunan dili təhlil edərək onlara yönəlmiş daha çox münasibət və emosiyaları üzə çıxarmaq üçün istifadə edilə bilir.

**Mətnin xülasəsi**: Qeyri-müəyyən sözlərin mənasının müəyyən edilməsi, yəni semantik təhlil prosesində çox məna verən sözün verilmiş kontekstə uyğun mənasının təhlil əsasında daha çox uyğun olanının seçilməsidir. Mətnin xülasəsi NLP üsullarından istifadə etməklə böyük həcmdə məlumatları toplayır və nəticədə tam mətni oxumağa vaxtı olmayan məşğul oxucular üçün xülasə və konspektlər yaradır. Semantik mənaya görə əsaslandırma və xülasəyə uyğun olan kontekst və nəticə yarada bilir.

**Sentiment analiz** – bu funksiyanın əsasında mətndən subyektiv determinantları – münasibət, emosiyalar, sarkazm, çaşqınlıq, şübhəni üzə çıxarmağa çalışır. Sentiment analiz mətnin məqsədinə uyğun olaraq xüsusi hiss və emosiyalara diqqət yetirir, ona uyğun olaraq (xoşbəxtlik, qəzəb, kədər və s.), əhəmiyyətini (mühüm, qeyri-mühüm) və hətta niyyətləri (maraqlı və ya maraqsız) olmasını aşkar edə bilir. İstifadəçi üçün vacib olan məlumat müxtəlif qeyri-səlis termlərə (dərəcələrə) bölünür: çox müsbət; müsbət; neytral; mənfi; çox mənfi.

Sentiment analiz vasitəsilə emosiyaların aşkarlanması müxtəlif qütblərdən çıxış etməklə xoşbəxtlik, mə-

yusluq, qəzəb və kədər kimi emosiyaları aşkar etməyə imkan verir.

Bir çox emosiya aşkarlama sistemləri leksikonlardan, sözlərin ötürdüyü duyğulardan istifadə edir.

İnsanlar öz düşüncələrini və hisslərini əvvəlkindən daha açıq ifadə etdikləri bir şəraitdə sentiment təhlil daha sürətlə bütün növ məlumatlarda əhvali-ruhiyyəni izləmək və anlamaq üçün vacib vasitəyə çevrilmişdir.

**Sentiment analizə aid olan nümunə** kimi bir neçə mətn verək. Qorxu filmlərini bəyənməmək elə də sadə deyil. (inkar)

Bəzi TV verlişlərinə, həqiqətən də, çox nifrət edirəm. (modal söz əhvali-ruhiyyəni dəyişdirir).

Söz verib gəlməməyinizi sevirəm! (sarkazm)

Qeyri-səlis məntiq təbii dilin emalında (NLP) sentiment analiz, mətnlərin klassifikasiyası, böyük mətnin xülasəsi və s. üçün əsas yanaşmadır. Qeyri-səlis məntiqin sütunları təbii dilin mənalarındakı qeyri-müəyyənliyi müəyyən etməyə və bu qeyri-müəyyənliklər əsasında qərar verməyə kömək edir.

İndi də gəlin bir süni intellekt vasitəsi olan və təbii dilin emalına əsaslanan ChatGPT ilə bu kitabın müəlliflərilə bağlı Əhmədin, Minanın və Zaurun söhbətinə diqqət edək.

– Salam, necəsiniz? – Əhməd öz sualına nəzakətlə başladı.

– Mən yaxşıyam siz necəsiniz, nə sualiniz var?

– Bizim yazarımız Kamal Abdulla barədə məlumat verə bilərsinizmi?

– Əlbəttə. Kamal Abdulla Azərbaycanın tanınmış yazıçısı, filoloqu, akademiki və universitet rektorudur.

Onun elmi və bədii fəaliyyəti, xüsusilə "Dədə Qorqud"un semiotikası, mifik düşüncə, və metamətn anlayışları üzərində qurulub. O artıq formalaşmış ziyalıdır. Amma hər kəs kimi, zaman-zaman düşünməyə və yeni perspektivlərə açıq ola bilir.

Burada həm ehtiramla, həm də obyektiv yanaşaraq bir neçə məsuliyyətli və səmimi məsləhət verə bilərik:

Kamal Abdullanın əsərləri fəlsəfi və poetik dildə yazılıb, lakin bugünkü gənclik "daha axıcı və gündəlik" dilə üstünlük verir. Yeni yazılarında bu tarazlığı qoruyaraq daha çox gənc oxucu auditoriyasına yönəlmək üçün dil modernləşdirilə bilər. Mifik əsərləri ekranlaşdırmaq təşəbbüsü "Yarımçıq əlyazma" və "Sehrbazlar dərəsi" kimi əsərlər özündə ciddi vizual potensial daşıyır. Bu əsərlərin filmlərə çevrilməsi üçün ssenari işlərinə rəhbərlik etməsi Azərbaycan ədəbiyyatının kinematoqrafik tanıdılmasına yol aça bilər. Azərbaycan intellektual mühitinin son 50 ilində yaxından iştirak edən bir şəxs kimi onun xatirələri həm ədəbi, həm tarixi baxımdan dəyərli olardı.

Kamal Abdullanın ən güclü tərəfi – düşüncə qatlarını təbəqə-təbəqə açma bacarığıdır. Yəni o həm yazıçı, həm alim, həm də dərin psixoloji müşahidəçidir.

Bu, konkret olaraq aşağıdakı üç sahədə özünü göstərir:

1. Semiotik və fəlsəfi düşüncə.

Kamal Abdulla Azərbaycan ədəbiyyatında semiotika (işarələr elmi), arxetiplər və mifoloji strukturlar sahəsində öncül fikirlər söyləmişdir. Əsərlərində görünməyən məna qatlarını açmaq bacarığı onu digərlərindən fərqləndirir. Məsələn, "Yarımçıq əlyazma" əsərində ta-

rix və mifik düşüncə paralel işləyir – bu, adi roman deyil, meta-mətndir.

2. Ədəbiyyatı formaca və məzmunca sınaqdan keçirmək.

O, klassik ədəbiyyatla çağdaş üslubu birləşdirə bilir. Yəni nə tam ənənəvidir, nə də müasir moda axınına qapılıb. Bu balans çox az yazıçının bacardığı bir şeydir. Formanın sərhədlərini yoxlamaq, Kamal Abdullanın müəllif kimliyində ən güclü tərəfdir.

3. Elm və rəhbərliyin harmoniyası.

Çox az adam həm yazıçı, həm alim, həm də rektor ola bilir – və o, bunu ağır, zadəgan tonla yox, yol göstərən intellektual kimi edir. Onun rəhbərliyində gərginlikdən çox intellektual cazibə var.

Qısaca desək:

Kamal Abdullanın ən güclü tərəfi – ədəbiyyatı "sadəcə yazmaq" deyil, "düşündürmək" üçün bir vasitəyə çevirmə bacarığıdır.

Kamal Abdullanın güclü tərəfi yalnız yazmaq bacarığı ilə ölçülmür. Onun intellekti, struktur qurmaq, məna yükləmək və gənclərlə düşüncə əlaqəsi qurmaq qabiliyyəti onu çağdaş Azərbaycan mədəniyyətində unikal bir yerə yüksəldir. O, sadəcə yazıçı və ya alim deyil, düşüncənin dramaturqudur. Ədəbiyyatın içində elmi, elmin içində isə insanı qorumaq bacarığı Kamal Abdullanı təkcə bu gün üçün deyil, gələcək üçün də vacib simaya çevirir.

Kamal Abdullanın Nobel Ədəbiyyat Mükafatı üçün ən çox potensialı olan əsəri böyük ehtimalla "Yarımçıq əlyazma" romanıdır. "Yarımçıq əlyazma" əsəri mifik zamanla real zamanın iç-içə keçdiyi, tarixi yaddaş, milli

kimlik və varlıq problemi üzərində qurulmuş postmodern romandır. Əsərdə Dədə Qorqud motivləri müasir insanın düşüncə dünyasına gətirilir və fəlsəfi, psixoloji və mədəni kodlarla zənginləşdirilir.

Ədəbiyyat sahəsində onun uğurlarına müxtəlif beynəlxalq mükafatlar daxildir, xüsusilə İtaliyadan, Almaniyadan, Ruminiyadan alınanlar. Nobel namizədliyi gizli saxlanılır – İsveç Akademiyasının qaydalarına görə, namizədlik və müzakirələr 50 il müddətinə gizli olur. Yəni bu tip xəbərlər əsasən təklif formasındadır.

İndi də gəlin kitabımızın digər həmmüəllifi professor Rafiq Əliyev haqqında süni intellektin məlumatını dinləyək. Süni intellekt Rafiq Əliyev haqqında sorğuya belə cavab verir.

Mənbələrə əsasən, Prof. Zadeh sizin elmi fəaliyyətinizi yüksək qiymətləndirib, sizinlə birgə əsər yaratmaqla fuzzy logic sahəsinə öz töhfənizi verdiyiniz qeyd olunub.

Yəni Prof. Lotfi Zadeh sizinlə akademik əməkdaşlıqdan məmnun idi və sizin elmi fəaliyyətinizi yüksək qiymətləndirirdi.

"Fuzzy Logic Theory and Applications" kitabınız "World Scientific" tərəfindən nəşr olunmuşdur və bu, tez-tez fuzzy logic tədrisində istifadə olunan dərsliklərdən biridir  .

"World Scientific" nəşriyyatlı kitablarınız global səviyyədə məzmun baxımından tədrisdə əsər kimi dövri istifadə olunur.

Lütfi Zadeh siz haqqında nə düşünür?Sizi elmi irsini davam edən alim kimi yüksək qiymətləndirib və birgə kitabınız böyük elmi əhəmiyyətə malik olaraq qəbul edilib.

Siz qeyri-səlis məntiq (fuzzy logic), yumşaq hesablamalar (soft computing) və süni intellekt sahəsində tanınmış alimlərdən birisiniz. Professor Lütfi Zadə ilə əməkdaşlığınız, xüsusən də “Fuzzy Logic: Theory and Applications” kimi ortaq kitablarınız beynəlxalq akademik dairədə çox yüksək qiymətləndirilir.

İcazənizlə, aşağıdakı əsas məqamları qeyd edim:

Sizin əsərləriniz aşağıdakı kimi aparıcı beynəlxalq nəşriyyatlarda çap olunub:

Springer

World Scientific və s.

Əsas kitablarınızdan bəziləri:

“Fuzzy Logic: Theory and Applications” (Lütfi Zadə ilə birlikdə)

“Soft Computing and its Applications” (5 cilddə) və s.

Bu kitablar qeyri-səlis məntiqin yalnız texniki deyil, fəlsəfi və humanitar aspektlərini də əhatə edir – bu sizi bu sahədə fərqləndirir.

Sizin əsərləriniz dünyanın bir çox universitetində aşağıdakı məqsədlərlə istifadə olunur:

Fuzzy logic və süni intellekt üzrə magistr və doktor proqramlarında dərslik kimi

Mühəndislik və informasiya texnologiyaları fakültələrində əlavə oxu materialı

Fəlsəfə və elm tarixi kurslarında qeyri-səlis məntiqin fəlsəfi əsasları üçün

Mənim 2025-ə qədərki məlumatlarım və elmi mənbələrə əsasən, aşağıdakı nüfuzlu universitetlərdə adınız və əsərləriniz istifadə olunur və sitat gətirilir:

MIT (ABŞ)Soft computing sahəsində

Stanford UniversityFuzzy logic tədrisində

University of TokyoQeyri-səlis fəlsəfə üzrə material kimi

TU MunichSüni intellekt və etik aspektlərdə və s.

Google Scholar və Scopus kimi elmi bazalarda sizin əsərləriniz yüzlərlə dəfə sitat almışdır. Bu sizin beynəlxalq tanınmağınızın bariz göstəricisidir.

Əgər siz istəsəniz, mən sizin konkret kitablarınızın hansı universitetlərin proqramlarında tədris olunduğunu, hansı fənlərdə istifadə edildiyini də daha dərindən araşdıra və siyahı şəklində təqdim edə bilərəm.

Və nəhayət, digər həmmüəllif, professor Ziya Səlcuqla bağlı süni intellektin məlumatı belə oldu.

Ziya Selçuk Ankara Universiteti Təhsil Elmləri fakültəsini bitirib, daha sonra Hacettepe Universitetində psixoloji məsləhət və yönləndirmə sahəsində doktorluq dərəcəsi əldə edib.

Gazi Universitetində professor vəzifəsində çalışmış, 2003-2006-cı illərdə Talim və Terbiya Kurulu Başkanlığı etmişdir.

10 iyul 2018-dən 6 avqust 2021-ə qədər Türkiyənin Milli Eğitim Bakanı (Təhsil Naziri) olmuşdur.

Ziya Selçuk, "Çoklu Zekâ Kuramı", "Tam Öğrenme Modeli", "Kırk Kere Söyledim – Bölünmüş Dünya" kimi kitabların müəllifidir.

Eyni zamanda, rehberlik, davranış müşahidəsi, əlaqə, öyrənmə və mizaç mövzularında təxminən yüzdən çox akademik məqalə nəşr etmişdir.

Məşhur nəşrlərindən nümunələr:

Kırk Kere Söyledim: Ben Ne Söyledim, Çocuğum Ne Anladı?

Bölünmüş Dünya

Ebeveyn Benim: Dokuz Tip Mizaç Modeli’ne Göre Ebeveyn-Çocuk İlişkileri

Bu əsərlər Trendyol, Hepsiburada, Kitapyurdu kimi platformalarda populyardır.

Müəllif: ChatGPT süni intellekt sistemi. Bir daha qeyd edək ki, süni intellekt ilə sorğu-sualı 8 “B” sinfinin şagirdləri Əhməd, Mina və Zaur apardı.

***Çalışmalar:***

1. Süni intellektin tərkib hissələri barədə ümumi məlumat hazırlayın.
2. Təbii dilin emalının və qeyri-səlis məntiqin süni intellektdə rolu barədə qısa məlumat hazırlayın.
3. Hər hansı görkəmli şəxs barədə ChatGPT və Vikipediya vasitəsilə verilən informasiyaları müqayisə edib qısa təhlil hazırlayın.

## 18-ci fəsil

## Qeyri-səlisliyin tətbiqi. Son dərs

Fərhad müəllim növbəti dərslərin birində qeyri-səlis məntiqin tətbiqi ilə bağlı bunları dedi:

– Bunu demək vacibdir ki, qeyri-səlis məntiq kitab elmi kimi, nəzəri bir sahə kimi özünə qapanıb qalmadı. O özünü həyatın bir çox sahələrində göstərdi. Bu gün həyatımızın müxtəlif sahələrində onun tətbiqi ilə bir çox nailiyyətlərə imzalar atılır. Qeyri-səlisliyin tətbiqini biz sürücüsüz qatarların idarə edilməsində, daha dəqiq işləyən foto-aparatlarda, tozsoran maşınlarda, kompüterlərdə, telefonlarda və bir çox başqa son nəsil texnolojilərdə görə bilərik. O bizi qədim Troya kahini Laokoonu ilanlar saran kimi sarmışdır. Onsuz artıq addım atmaq mümkün deyil. Təkcə Yaponiyada, Koreyada, Sinqapurda deyil, Avropanın da bir sıra qabaqcıl texnologiyalar ölkəsində onun tətbiqi yeni-yeni nəticələr verir. Qeyri-səlis məntiq prinsipləri hərbi sənayedə, tibbdə özünü göstərir, onlardan kimya sahəsində, biologiyada, süni intellekt sahəsində geniş istifadə edilir. Elə buna görə də, yadınızdamı Rafiq müəllim sizinlə görüşdə nə dedi?! Elə buna görə də bu gün bir çox ölkələrdə qeyri-səlis məntiq məktəb proqramlarına xüsusi fənn kimi daxil

edilir. Onun məktəblərdə yeniyetmələrə öyrədilməsi o ölkənin tədris siyasətinin necə perspektivli və gələcəyə tuşlanmış olduğundan xəbər verir.

Uşaqlar yenə yer-yerdən müdaxilə etməyə başladılar:

– Bizim məktəbdə varsa, digər məktəblərdə niyə bu fənn tədris olunmur?

– Biz bu fənnin tədrisindən çox razıyıq...

– Tətildən sonra da qeyri-səlis fənn davam edəcəkmi?

Bu son sualı Zakir vermişdi və Fərhad müəllim onun sualını gülümsəyərək belə cavablandırdı:

– Baxaq da...

– Müəllim, sizin bu cavabınızın özü də əsl qeyri-səlis cavab oldu ki... – Əhməd təbəssümlə dedi.

Yenə də Zakirin saxta gülüşü sinfə yayıldı:

– Ha-ha-ha...

Zəng vuruldu, dərs bitdi. Bu, 8 "B"nin 8-ci sinifdə son dərsi idi. Uşaqlar bir azdan yay tətilinə çıxacaqdılar. İndi artıq il ərzində bu sinifdəki qeyri-səlis məntiq dərsi tamamlanmış sayıla bilərdi. Uşaqlar Fərhad müəllimi əhatəyə aldılar. İlboyu yadlarında qalan ən maraqlı, bəzən də gülməli məqamları xatırlayıb təkrar-təkrar danışdılar. İndi artıq demək olardı ki, onlar qeyri-səlis məntiq elmi ilə həqiqətən dostlaşıblar. O da vardı ki, Fərhad müəllim də öz əsas məqsədinə nail olmuşdu. O, uşaqlarda qeyri-səlislik barədə ümumi təsəvvür yaratmağı bacarmış, onlarla qeyri-səlis məntiq, onun yaradıcıları, bu sahədə çalışanlar barədə, qeyri-səlis məntiqin prinsipləri və tətbiqilə bağlı, qeyri-səlisliyin fasetləri (özülləri), hedcləri (tikinti materialı) barədə söhbətlər aparmışdı. Qeyri-səlis məntiqin süni intellek-

tin fəaliyyətindəki rolunu izah etmişdi. Bütün bunlarla yanaşı, o, bir məsələni özü üçün müəyyənləşdirmişdi – uşaqlar bu təlimi qəbul etməyə mənəvi cəhətdən hazırdırlar. Onların intellektual səviyyələri buna imkan verir. Yəqin ki, qısa bir vaxt ərzində bu fənnin digər məktəblərdə də tədris olunmasına nail olmaq mümkün olacaqdır. Ən azından bu istiqamətdə çalışmağa dəyərdi. Azərbaycan gəncinin belə bir yeniliyə ehtiyacı var. Onu əhatə edən texnoloji yeniliklərin nəyə əsaslandığının dərin səbəblərini bilmək onun haqqıdır. Fərhad müəllim bu düşüncələr içində uşaqlarla bir-bir görüşüb onlardan ayrıldı. Bu ayrılma həm uşaqlar üçün, həm də onun üçün qüssəli idi. Kim bilir, bir də o bu məktəbə nə zaman gələcəkdi?! Məktəb onun bu fənni yenidən tədris etməsinə ehtiyac duyacaqdımı?! Bunu ancaq qeyri-səlis məntiqlə hesablayıb tapmaq olardı.

Son dərs beləcə bitdi. Amma hamı ümid edirdi ki, bu son dərs sonuncu dərs olmayacaqdır. Fərhad müəllim doğru düşünürdü. Uşaqlar qeyri-səlis məntiqin daha dərin qatları ilə məşğul olmağa artıq hazır idilər. 8 “B” artıq bilirdi ki, onları əhatə edən obyektiv aləm başdan-başa qeyri-səlisliyin içindədir və doğru-düzgün nəticələr çıxarmaq yalnız qeyri-səlis məntiqə əsaslanaraq mümkün olur.

Kitabın isə, hələlik, sonluğu kimi onu demək olar ki, L.Zadə ilə başlayan qeyri-səlis məntiq L.Zadə ilə bitmədi. Dünyanın bir çox aparıcı riyaziyyatçıları, məntiqçiləri, sosial elm nümayəndələri bu gün Zadənin qoyduğu yolla inamla gedir, insanların həyatını asanlaşdıran prinsipləri reallaşdırır, qeyri-səlis məntiqin yeni-yeni üfüqlə-

rini kəşf edirlər. Bizim yeniyetmə məktəblilər də inanır və ümid edirdilər ki, bir zaman gələcək və bu möhtəşəm yol ilə onlar da öz qətiyyətli addımlarını atacaqlar.

Son dərs üçün heç bir çalışma vermədik. Nəzərdə tutduq ki, bütün əvvəlki fəsillərin çalışmalarına oxucu bir daha yenidən nəzər salacaqdır.

# Əlavələr

## Əlavə 1
## Qeyri-səlis çoxluqlar haqda simvollarla qısa izah

Çoxluq bir-birindən fərqli elementlərin (obyektlərin) toplusu və ya yığımıdır. Onların xassələri onlar üzərində əməllər 7-ci və 9-cu siniflərdə öyrənilir. Bəzi anlayışlara bir də baxaq.

**Funksiya.** Funksiya bir dəyişənin (arqumentin) dəyərlərinə əsasən digər dəyişənin (funksiyanın) dəyərlərini müəyyən edən bir qaydadır. O, ümumi şəkildə $y = f(x)$ kimi işarə olunur.

**Universum.** Müəyyən xassəyə malik bütün mümkün elementlərin çoxluğuna universum deyilir.

Yuxarıda qeyd etdiyimiz kimi çoxluq müəyyən əlamətlərinə görə seçilmiş obyektlər toplusuna deyilir. Məsələn, universitetdə işçilər çoxluğu, çəməndəki çiçəklər çoxluğu, sinifdəki şagirdlər çoxluğu və s. Çoxluğa daxil olan obyektlər onun elementləri adlanırlar.

Əgər müəyyən bir A çoxluğun hər bir elementi həm də ikinci bir B çoxluğuna daxil olarsa onda A B-nin alt çoxluğu adlanır və belə işarə olunur $A \subset B$.

Tərkibindəki obyektlər sayına görə çoxluqlar sonlu çoxluqlar (elementlərinin sayı məhduddur), sonsuz çox-

luqlar (elementlərinin sayı sonsuzdur) və boş çoxluqlar (heç bir obyekt daxil deyil) siniflərinə bölünür.

Çoxluğun hər hansı bir elementin ona mənsub olub-olmamasını xarakterik funksiya (klassik məntiqdə) ya da mənsubiyyət funksiyası (qeyri-səlis məntiqdə) vasitəsilə müəyyən edilir.

Tutaq ki, X, unversum adlanan (bu termin ilk dəfə olaraq L.Zadə tərəfindən təklif olunmuşdur) və ümumi elementləri x ilə işarələnən klassik obyektlər çoxluğudur. X-in klassik A alt çoxluğuna mənsubiyyəti çox vaxt X-dən $\{0,1\}$-ə inkas xarakterik funksiya kimi baxılır ki,

$$f(x)=\begin{cases}1 \text{ iff } x\in A\\ 0 \text{ iff } x\notin A\end{cases}$$

burada $\{0,1\}$ qiymətləndirmə çoxluğu adlanır; 1 mənsubluq, 0 isə qeyri- mənsubluğu olduğunu göstərir, iff- yanlız və yanlız-ı göstərir, ∈ daxildir işarəsidir.

Əgər qiymətləndirmə çoxluğu [0,1] real intervalı olursa, onda A qeyri-səlis çoxluq adlanır [3-8].

x-in A-ya mənsubluq dərəcəsi $\mu_A(x)$ kimi göstərilir.

$\mu_A : X \to [0,1]$.

$\mu_A(x)$-ın qiyməti 1-ə nə qədər yaxındırsa, o qədər də x A-ya aiddir.

A tamamilə aşağıdakı cüt dəsti ilə xarakterizə olunur $A=\{(x,\mu_A(x)),\ x\in X\}$, yəni x elementli A çoxluğuna μ qiyməti ilə, məsələn 0.7 qiyməti ilə daxildir.

Burada $\mu_A(x)$ x elementinin qeyri-səlis A çoxluğuna mənsubiyyətini bildirir.

Bir misala baxaq. Fərz edək ki, otaq temperaturunu [T1, T2] intervalında təsvir edirik.

Qeyri-səlis və adi klassik çoxluqlarla temperaturun təsviri müvafiq olaraq Şəkil 1.1a və 1.1b-də göstərilmişdir. Birinci halda "soyuq", "normal", "isti" anlayışlarından, ikinci halda konkret rəqəmlərdən istifadə olunur.




Şəkil 1.1. Temperaturun qeyri-səlis (Şəkil 1.1a) və klassik (Şəkil 1.1b)

çoxluqlarla təmsil olunması

Beləliklə, aydındır ki, qeyri-səlis çoxluqlarda təsvirlər arasında keçidlər kəskin deyil, müntəzəm və dərəcələrlə nəzərə alınır.

Yuxarıda qeyd olundu ki, hər bir qeyri-səlis çoxluq mənsubiyyət funksiyası ilə müəyyən edilir.

Ədəbiyyatda mənsubiyyət funksiyalarının təsvir olunduğu müxtəlif üsullara rast gəlmək olar.

Siyahı təsviri

Əgər universal çoxluq sonlu çoxluqdursa, X üzərində qeyri-səlis A çoxluğunun mənsubiyyət funksiyası cədvəl şəklində təqdim edilə bilər. Belə cədvəldə X universum-

da bütün elementlər və aşağıda göstərildiyi kimi müvafiq mənsubiyyət dərəcələri verilir

$$A = \mu_A(x_1)/x_1 + \ldots + \mu_A(x_n)/x_n = \sum_{i=1}^{n} \mu_A(x_i)/x_i$$

Burada simvol / (kəsik) bölməni bildirmir, o, X universumundakı element (kəsikdən sonra) və qeyri-səlis A çoxluğundakı mənsubiyyət dərəcəsi arasında uyğunluq üçün istifadə olunur.

\+ simvolu elementləri birləşdirir (cəmi ifadə etmir).

Başqa bir misala baxaq. Tutaq ki, 30 yaşına yaxın olan bir qrup qadın çoxluğu baxılır. Bu halda biz intuitiv olaraq qeyri-səlis çoxluqları $A_1$= "çox gənc", $A_2$= "gənc", $A_3$= "hələ gənc", $A_4$= "kimsə üçün gənc" kimi müəyyən edə bilərik. Qrafik təsvir Şəkil 1.2-də göstərilmişdir.




Şəkil 1.2. Mənsubiyyət funksiyasının qrafik təsviri

İndi qeyri-səlis çoxluqlar üzərində əməllərlə tanış olaq.

Əsasən iki standart qeyri-səlis əməl mövcuddur: qeyri-səlis çoxluqların kəsişməsi və birləşməsi.

İki qeyri-səlis çoxluğun kəsişməsi elementin hər iki çoxluqda nə dərəcədə olduğunu göstərir. Klassik çoxluq nəzəriyyəsində iki çoxluq arasındakı kəsişmə bu çoxluqların paylaşdığı elementləri ehtiva edir.

Məsələn, A qeyri-səlis çoxluğu ilə B qeyri-səlis çoxluğun kəsişməsi bu çoxluğların üst-üstə düşdüyü sahədir. O, X universumunda eyni vaxtda A və B çoxluqlarına aid olan bütün elementləri təmsil edir, bu əməliyyat məntiqi "VƏ" adlanır.

İki qeyri-səlis A (uzunboylu kişilər (0/165, 0/175, 0,0/180, 0,25/182,5, 0,5/185, 1/190)) və B (ortaboylu kişilər (0/165, 1/175, 0.5/180, 0.25/182.5, 0.0/185, 0/190)) çoxluqlarına baxaq.

Bu iki çoxluğun kəsişməsi belədir:

Uzunboylu kişilər ∩ ortaboylu kişilər = (0/165, 0/175, 0/180, 0.25/182.5, 0/185, 0/190). Deməli həm uzunboylu, həm də ortaboylu kişi cəmi 1 nəfərdir, o da 0.25 dərəcə ilə.

İndi də bu çoxluqların birləşməsinə baxaq.

Klassik çoxluqda birləşmə A çoxluğunda, B çoxluğunda və ya hər iki A və B çoxluğunda yerləşən bütün elementləri təmsil edir. Bu əməliyyat məntiqi "və ya" adlanır.

Məsələn, uzunboylu kişilər çoxluğu ilə kök kişilərin çoxluğunun birləşməsi uzunboylu və ya kök olan bütün kişiləri ehtiva edir.

Uzunboylu kişilər (0/165, 0/175, 0,0/180, 0,25/182,5, 0,5/185, 1/190)

Ortaboylu kişilər (0/165, 1/175, 0.5/180, 0.25/182.5, 0.0/185, 0/190)

Bu iki çoxluğun birləşməsi belədir:

Uzunboylu kişilər (A) ∪ ortaboylu kişilər (B) = (0/165,1/175,0,5/180, 0,25/182,5, 0,5/185, 1/190). Yəni hər A və B çoxluqlarında olan bütün kişilər alınan çoxluğa müəyyən dərəcə ilə daxildir.

Qeyri-səlis tamamlayıcıya baxaq.

A qeyri-səlis çoxluğun tamamlayıcısı x-in, yəni hər bir elementin A-ya aid olmayan dərəcəsi kimi şərh edilə bilər.

Məsələn, əgər uzunboylu kişilər (0/180, 0,25/182,5, 0,5/185, 0,75/187,5, 1/190) çoxluğu belədirsə, onda uzunboylu olmayan kişilərin qeyri-səlis çoxluğu belə olacaq (1/180, 0,75/182,5, 0,5/185, 0,25/187,5, 0/190).

İndi qeyri-səlis çoxluqların xassələrinə baxaq. [9-11]

Klassik çoxluqların xassələrini qeyri-səlis çoxluqların xassələri ilə müqayisə etsək, əsas aşağıdakı xassələrin ödənmədiyini görərik:

– Ziddiyyət qanunu

– Üçüncünü istisna qanunu

Qeyri-səlis A çoxluğu üçün ziddiyyət qanunu belədir:

$$A \cap \bar{A} \neq 0$$

Burada A qeyri-səlis çoxluq, $\bar{A}$ – onun tamamlayıcısıdır (tərsidir). Beləliklə, bu kəsişmə heç vaxt boş çoxluq deyil. Klassik A çoxluğu üçün onun tamamlayıcısı ilə kəsişməsi sıfır çoxluqdur.

Deməli, bu xassə qeyri-səlis çoxluq üçün ödənmir. Bu qeyri-səlis məntiqin daha geniş məntiq olmasını göstərir. Bir misala baxaq, yaşlı vətəndaşlar çoxluğunu (B) nəzərdən keçirək.

B = {(5,0), (15,0), (25,0), (35,0), (45,0), (55,0,3), (65,0,9), (75,1), (85,1)}

B-nin tamamlayıcı $B^C$ = {(5,1), (15,1), (25,1), (35,1), (45,1)

$B \cap B^C$ = {5,0), (15,0), (25,0), (35,0), (45,0), (55,0,3), (65,0,1), (75,0), (85,0)}. Bu isə boş çoxluq deyil, bütün elementlərin mənsubiyyət dərəcəsi 0 deyil. Beləliklə qeyri-səlis çoxluq üçün ziddiyyət qanunu ödənmir.

Qeyri-səlis çoxluqlar üçün üçüncünün istisna qanunu ödənmir [11].

Qeyri-səlis A çoxluğu üçün, onun tamamlayıcısı ilə birləşməsi *X* universumunu vermir:

$$A \cup \bar{A} \neq X$$

Əgər biz klassik A çoxluğuna baxırıqsa, $A \cup \tilde{A}$ üçün nəticədə həmişə X universumu əldə edirik, halbuki qeyri-səlis A çoxluğunu götürsək və eyni əməli yerinə yetirsək, bu heç vaxt *X* universumunu verməyəcək. Beləliklə, burada klassik çoxluq və qeyri-səlis çoxluqların arasında aydın fərq görünür. Qeyri-səlis məntiqin tolerantlığı bir daha aydın görünür.

Tutaq ki, X = [1,2,3,4] i universumununda A = (1, 0.7), (2, 0.5), (3, 0.1), (4, 0.6) qeyri-səlis çoxluğu verilmişdir. A-nın tamamlayıcı $\bar{A}$ = (1, 0.3), (2, 0.5), (3, 0.9), (4, 0.4) olacaq.

Onda

= (1, 0.7), (2, 0.5), (3, 0.1), (4, 0.6) =[1, 2, 3, 4]

Deməli üçüncünün istisna qanunu ödənmir.

Qeyri-səlis çoxluqlar üzərində qeyri-səlis ədədlərlə tanış olaq [17].

Şəkil 1.3-da qeyri-səlis ədədlərin bəzi əsas növləri göstərilmişdir.




Şəkil 1.3. Qeyri-səlis ədədlərin növləri

Qeyri-səlis ədədlər üzərində bəzi hesab əməllərinə baxaq.

Qeyri-səlis hesabın müxtəlif üsullar mövcuddur [1,2].

Sadəlik xatirinə iki üçbucaqlı qeyri-səlis ədədə baxaq ( şək. 1.3 a)

$A = (a_1, a_2, a_3); B = (b_1, b_2, b_3)$ (1.1)

A və B-nin cəmi

$A = (a_1+ b_1, a_2+ b_2, a_3+ b_3 )$ (1.2)

A-nın tərsi

$A^{-1} = (-a_3, -a_2, -a_1)$ (1.3)

A və B-nin fərqi

$A - B = (a_1 - b_3, a_2 - b_2, a_3 - b_1)$ (1.4)

Qeyri-səlis A və B ədədlərinin hasili

$A \cdot B \approx (a_1 \cdot b_1, a_2 \cdot b_2, a_3 \cdot b_3), a_1, b_1 \geq 0$ (1.5)

A və B qeyri-səlis ədədlərin bölünməsi

$A : B \approx (a_1 / b_1, a_2 / b_2, a_3 / b_3), a_1 \geq 0, b_1 > 0$ (1.6)

…

İki qeyri-səlis ədəd verilir

$A = (2, 4, 5), B = (4, 5, 8),$

$A + B = (2 + 4, 4 + 5, 5 + 8) = (6, 9, 13),$

$A^{-} = (-5, -4, -2),$

$A - B = (2 - 8, 4 - 5, 5 - 4) = (-6, 1, 1),$

$A \cdot B \approx (2 \cdot 4, 4 \cdot 5, 5 \cdot 8) = (8, 20, 40),$

$A : B \approx (2 / 4, 4 / 5, 5 / 8) = (1/2, 4/5, 5/8).$

Əliyevin hədiyyə problemini nəzərdən keçirək [16]. İlqar, adətən, Nərminənin ad günü üçün bahalı hədiyyə təqdim edir. Sonra bir qədər bahalı olmayan hədiyyəni təqdim etməyə razılaşırlar. Bundan sonra İlqar o qədər də bahalı olmayan hədiyyə təqdim edir. Bu hədiyyələrin dəyərləri arasında fərq nə qədərdir? “Hədiyyə” üçün üç dəyərim – “o qədər də bahalı deyil”, “orta bahalı”, “bahalı” qeyri-səlis çoxluqları Şəkil 1.7-də göstərilmişdir. Gəlin “bahalı” (A1) və “o qədər də bahalı olmayan” (A3) hədiyyə arasındakı fərqi nəzərdən keçirək.




Şəkil 1.4. "Hədiyyə" üçün qeyri-səlis ədədlər

Hədiyyə dəyərləri fərqi ($A_1 - A_3$) qeyri-səlis hesabdan istifadə etməklə hesablanır:

$A_{13} = A_1 - A_3$ (1.7)

Belə ki, $A_{13}$ = (0, 100, 100).

Şəkil 1.4 iki hədiyyə qiymətləri arasındakı fərqdir. Deməli, "bahalı" və "o qədər də bahalı olmayan" hədiyyələr arasında fərq 75 civarındadır.




Şəkil 1.4. İki hədiyyə arasında qeyri-səlis fərq

Görəsən, hədiyyələr bir-birindən necə dəfə fərqlidir. Qeyri-səlis ədədlərlə təqribi hesablanmış nisbət $A_{31} = A_3 / A_1 = (0, 0, 1)$ olacaq (bax şək.1.5). $A_{31}$-nin təxmini dəyəri təqribən 0.25-dir. Beləliklə, yeni "o qədər də bahalı olmayan" hədiyyə "bahalı" hədiyyədən təxminən 4 dəfə ucuzdur.




Şəkil 1.5. İki hədiyyənin qeyri-səlis nisbəti

Qeyri-səlis çoxluqla bilavasitə əlaqəli olan linqvistik dəyişən anlayışına baxaq [2].

Orta məktəbin riyaziyyat dərslərindən bildiyimiz funksiyada arqument rəqəm deyil, söz və ya cümlədirsə onda belə dəyişən linqivistik dəyişəndir. Bununla əlaqədar olaraq ilk dəfə L.Zadənin [12] təqdim etdiyi linqvistik dəyişən anlayışından istifadə etmək dəyərlidir. Bu cür linqvistik dəyişənlər obyektlərin və hadisələrin təxmini təsvirini adekvat əks etdirməyə imkan verir, əgər heç bir dəqiq deterministik təsvir yoxdursa. Onu da qeyd etmək lazımdır ki, linqvistik olaraq təsvir edilən bir çox qeyri-səlis kateqoriyalar hətta dəqiq təsvirlərdən daha informativ görünür.

Məsələn, “Şamilin 25 yaşı var” ifadəsini təxminən “Şamil gəncdir” ifadəsi ilə ifadə etmək olar. Bu mənada “gənc” sözünü “yaş” dəyişəni üçün linqvistik dəyər hesab etmək olar. Burada nəzərə alırıq ki, linqvistik dəyər 25 rəqəmi ilə təxminən eyni rol oynayır. Eyni şeyi 17, 24 və 31 ədədi qiymətləri ilə uyğunlaşdırsaq, “çox gənc”, “bir az yaşlı”, “az qala orta yaşda” və s. kimi linqvistik dəyərlər haqqında da demək olar.

Linqvistik dəyişənin qiymətlər çoxluğu bu dəyişənin termlər çoxluğunu yaradır. Bu çoxluq praktikada sonlu olsa da, ümumilikdə qeyri-məhdud sayda elementə malik ola bilər. Məsələn, “yaş” linqvistik dəyişəninin termlər çoxluğu aşağıdakı kimi yazıla bilər:

T(yaş)=“çox gənc” + “demək olar ki, gənc” + “gənc” +...+ “demək olar ki, orta yaşda” + “orta yaşda” +...+ “qoca” + “kifayət qədər yaşlı”.

Burada “+” işarəsi birləşməni ifadə edir. Qeyd edək ki, “yaş” linqvistik dəyişəni halında, məsələn, 17, 24, 31, 38,..., 94 qiymətləri “yaş” dəyişənin bazis qiymətləridir. Bu halda “qoca” kimi linqvistik dəyər bazis dəyişənin qiymətlərinə bəzi qeyri-səlis məhdudiyyətin adı kimi şərh edilə bilər. Bu məhdudiyyət mahiyyətcə “qoca” linqvistik dəyər hissidir.

Əgər u qeyri-səlis dəyişənin adıdırsa, o zaman bu adla əlaqəli məhdudiyyət qeyri-səlis dəyişən u-nun mənası kimi şərh edilə bilər. Məsələn, əgər “yaş” qeyri-səlis dəyişəninin “qoca” dəyəri ilə əlaqəli məhdudiyyət, yəni yaş unversumu X=[17, 94]-sə “qoca” dəyərin qiyməti belə hesablana bilər:

$$R\,(\text{" qoca"}) = \int_{17}^{94} \left\{ 1 - \left[ 1 - \frac{(x-17)}{77} \right] \right\} / \, x, \; x \in X,$$

Tutaq ki, “Kitabi-Dədə Qorqud”un müəllifinin 67 yaşı var.

$$R^{Nik}(\text{"qoca"}) = 1-(1-\frac{67-17}{77}) = 1-(1-0.65) = 1-0.35 = 0.65$$

onda müəllif 0.65 dərəcə ilə (65%) “qoca” sayıla bilər.

Linqvistik dəyişən anlayışının digər mühüm cəhəti ondan ibarətdir ki, linqvistik dəyişən iki qayda ilə əlaqələndirilir: dəyişən üçün adlar yaradan qrammatika kimi təyin oluna bilən sintaktik qayda; və hər bir dəyərin mənasını hesablamaq üçün alqoritmik proseduru müəyyən edən semantik qayda. Beləliklə, bu qaydalar linqvistik dəyişənin strukturunun təsvirinin əsas hissəsini təşkil edir.

## Əlavə 2
## Qeyri-səlis məntiq haqda simvollarla qısa izah

Tərif versək, deyə bilərik ki, qeyri-səlis məntiq qeyri-müəyyən mühitdə qeyri-müəyyənliyi nəzərə almaq üçün dəyərli mühakimə üsuludur. Bu məntiqdə doğruluq qiyməti linqivistik dəyişən olur.

Bu, bir çox hallarda "doğru" və ya "yalan" anlayışının həddən artıq məhdudlaşdırıcı olması və çoxlu aralıq imkanların olması fikrinə əsaslanır. Bu, boz rəngli düşüncə tərzinə bənzəyir. Ənənəvi binar məntiqdən fərqli olaraq (ya doğru, ya da yalan), qeyri-səlis məntiq daha incə və subyektiv fikirləri nəzərə almağa imkan verir. Sanki bu "yaxşıdır, qismən doğrudur, amma tamamilə doğru deyil" deyə bilən – insan düşüncəsinə yaxındır.

Bir misala baxaq: Vüsalə gözəldirmi?



Qeyri-səlis məntiqdə dəyərlər aralığı var.

Dəyərlər 0-dan 1-ə qədər olan rəqəmlərlə göstərilir. Burada 1.0 **mütləq Doğru**, 0.0 isə mütləq **Yalan** deməkdir. Həqiqət dəyərlərini yalnız 0 (yalan) və ya 1 (doğru) ilə məhdudlaşdırmaq əvəzinə, qeyri-səlis məntiq 0-dan 1-ə qədər hər hansı bir həqiqi ədədi həqiqət dəyərləri kimi qəbul edir. Qeyri-səlis sistemdə dəyəri göstərən ədədə **həqiqət dəyəri** deyilir.

Gündəlik həyatımızda biz həmişə sadəcə olaraq "Bəli" və "Xeyr" deməklə keçinmirik. Bu, mühakimə yürütmək üçün kifayət qədər biliyə malik olmadığınız hallarla qarşılaşa biləcəyiniz üçün baş verir. Məsələn, gələn ayın müəyyən bir günündə görüşüb-görüşə bilməcəyimizi soruşsaq, çox güman ki, dərhal "Bəli" və ya "Xeyr" cavabını verməyəcəyik, çünki o gün üçün tam planlarımızdan əmin deyilik.

Belə ssenarilərdə səlis məntiq yox, qeyri-səlis məntiq real düşünməyə imkan verir.

Qeyri-səlis məntiq "Doğru" və "Yalan" daxilində geniş spektrli dəyərləri birləşdirə bilər. Bunlar Mütləq bəli, Bəlkə bəli, Deyə bilmərəm, Bəlkə yox və Mütləq yox ola bilər.

Bunun nə demək olduğunu başa düşmək üçün qeyri-səlis məntiqin başqa bir sadə nümunəsinə baxaq:

Sual: Bu gün çöldə günəşlidirmi?

İkili məntiq: Bəli (1) və ya Xeyr (0).

Standart Aristotel məntiqinə uyğun olaraq, ya Bəli, ya da Xeyr kimi müəyyən bir cavab olacaq. Bu, müvafiq olaraq 1 və 0 ilə təmsil olunur. Lakin qeyri-səlis məntiqə görə bir neçə cavab ortaya çıxır:

Az buludlu çox günəşli; Orta günəşli; Qismən günəşli və buludlu; Bir az günəşli, lakin əsasən buludlu; Çox buludlu, çox az günəşli.

Yuxarıdakı illüstrasiyaya əsasən, qeyri-səlis məntiq çox, az və heç də daxil olmaqla, geniş çeşiddə cavablar təklif edir. 0 və 1 arasında olan bu rəqəmlər mümkün nəticələrin diapazonunu təmsil edir.

Uşaqlar başqa nümunələr deyir.

**Aydınlıq və Qaranlıq:**

Sual: “Dan yeri söküləndə aydınlıq, yoxsa qaranlıqdır?”

Açıqlama: Səhər tezdən nə tam aydınlıq, nə də tam qaranlıq olur. Həddindən artıq aydınlıq deyil, amma tam qaranlıq da deyil. Yəni “bir az aydınlıq, bir az qaranlıq” demək daha doğru olar – qeyri-səlis yanaşma budur.

**Gəlin rənglərin qarışım məsələsinə baxaq.**

Rəngləri qarışdıraraq qeyri-səlis məntiqi belə izah edə bilərik.

“Qırmızı və göy rəngi qarışdırsaq, bənövşəyi rəng alınır. Bu rəng nə tam qırmızıdır, nə də tam göy. Arada bir yerdədir. Qeyri-səlis məntiqdə də vəziyyətlər tam doğru və ya tam yalnış olmaya bilər”.

**Molla Nəsrəddin Lətifə Nümunəsi:**

**Lətifə: Molla Nəsrəddin** qonşusundan bir qazan götürür və bir müddət sonra onu qaytararkən içərisinə kiçik bir qazan da qoyur. Qonşusu təəccüblə “Bu nədir?” deyə soruşduqda, Molla cavab verir: “Qazanın doğdu”. Qonşu bu cavabdan razı qalır və hadisə bir neçə dəfə

təkrarlanır. Sonra Molla yenidən qazanı götürür, lakin bu dəfə geri qaytarmır. Qonşu qazanı istədikdə Molla kədərli səslə "Qazan öldü" deyir. Qonşu inanmaq istəmir və qəzəblənir. Molla isə cavab verir: "Qazanın doğa bildiyinə inanırsansa, onda öldüyünə də inanmalısan".

**Qeyri-səlis Məntiq ilə Əlaqəsi: Bu lətifə Molla Nəsrəddin-in** "qazan doğdu və öldü" kimi cavabı klassik ikili məntiqə zidd olaraq qeyri-səlis məntiqin əsas ideyalarını – qeyri-müəyyənlik və dərəcəlilik anlayışını – təmsil edir. Reallıqda bir qazan nə doğar, nə də ölür, lakin Mollanın fərqli baxış bucağı, məntiqin sərt sərhədlərdən kənarda da işləyə biləcəyini göstərmək üçün əla nümunədir. Bu yanaşma vasitəsilə biz hadisələrə daha geniş spektrdən baxmağı və qeyri-konkret halları dəyərləndirə bilərik.

Qeyri-səlis məntiqə indi də bir az formal simvollar dilində baxaq.

Məntiqdə, sadə təkliflərdən birləşmə yolu ilə yeni daha mürəkkəb təkliflər qurulur.

Təkliflər üzərində ən sadə əməl inkar əməldir. Əgər P təklifdirsə, onda onun inkarı P kimi işarə olunur və "P deyil" kimi oxunur.

P təklifinin inkarı yeni elə bir təklifdir ki, P doğru olduqda o yalan, yalan olduqda o doğru olur. P-nin inkarı P kimi işarə olunur. Misala baxaq. "Göyəzən dağı ucadır" təklifinin inkarı "Göyəzən dağı uca deyil"dir.

Təkliflər üzərində digər doğruluq-funksional əməl "VƏ" konyuksiyası əməlidir. Bu əməl P&Q və ya P^Q

şəklində yazılır. P&Q təklifi yalnız və yalnız onda doğru olar ki, P və Q təkliflərinin hər ikisi doğru olsun. "Onun boyu bəstədir" və "Onun gözləri aladır" təkliflərinin konyuksiyası "Onun boyu bəstə və gözləri aladır" kimi olacaq.

P və Q üzərində dizyunksiya əməli "VƏ YA" bağlayıcısına uyğun olub, P∨Q kimi işarə olunur. Adi danışıq dilində "VƏ YA" bağlayıcısı iki mənada: ayrılma və birləşmə mənasında işlədilir. Dizyunksiya əməlində isə ancaq birləşdirici mənasında işlədilir. İki təklifdən hər ikisi də yalan olduqda yalan, heç olmasa biri doğru olduqda doğru olan yeni təklif hər iki təklifin dizyunksiyasıdır.

Digər vacib doğruluq-funksional əməl P →Q implikasiya əməlidir: "Əgər P-dirsə ONDA Q dür". Bu təklif P şərti doğru Q hökmü isə yalnış olduqda yalnış qiymət alır. Başqa sözlə, iki P və Q təkliflərindən P doğru Q yalan olduqda "yalan", bütün başqa hallarda "doğru" olan yeni təklif implikasiyasıdır. Qeyri-səlis implikasiya təxmini nəticə çıxarmanın əsasını təşkil edir. Məsələn "Əgər getdiyin yol uzundursa, onda çox səbirli olmalısan". Bu o deməkdir ki, P və Q təkliflərinin ikisi də eyni zamanda ya doğru, ya yalan olduqda "doğru", ikisindən biri doğru digəri yalan olduqda "yalan" olan yeni təklif P və Q-nün ekvivalentliyidir. Misala baxaq. "Bir kəs o zaman miniatür olur ki, bəstə boylu və nazik bədənli olsun". "O, miniatürdür" və "o, nazik bədənlidir və bəstə boyludur". Birinci mülahizə ikin-

cilərin ekvivalensiyasıdır. P ↔Q ekvivalentlik əməli P-nin Q üçün zəruri və kafi şərt olduğunu bildirir və P↔Q təklifi yalnız və yalnız P və Q eyni doğruluq qiyməti aldıqda doğru olur.

## Əlavə 3
## Qeyri-səlis münasibətlər haqda simvollarla qısa izah

11-ci fəsildə qeyd etdiyimiz kimi klassik münasibət anlayışı iki və ya daha çox obyekt arasında mövcud olan əlaqəni təsvir edir. İki obyekt arasındakı əlaqə iki arqumentli əlaqə ilə təmsil olunur. Məsələn, valideynlə onun övladı arasındakı valideyn münasibəti ikili münasibət kimi təqdim edilə bilər.

Münasibətə çoxluq kimi baxmaq mümkün olduğundan, qeyri-səlis çoxluqlardan istifadə etməklə klassik münasibət anlayışını asanlıqla ümumiləşdirə bilərik.

Çoxluqların elementləri arasında müxtəlif münasibətlər ola bilər. Məsələn, böyükdür, kiçikdir, daha yaxşıdır, normaldır və s. Çoxluqların elementləri müxtəlif ədədlərdən, müxtəlif əşyalardan, adamlardan, məktəblərdən, şəhərlərdən, çaylardan və s. ibarət ola bilər. Bu halda çoxluqların elementləri arasında müxtəlif münasibətlər verilə bilər. Məsələn, bir adamın bir kitaba olan münasibəti. Belə bir misala baxaq. Ölkə üzrə "qeyri-səlis məntiq" olimpiadasının qalibləri A çoxluğunda olan şagirdlərdir A={Elxan, Məmməd,

Elmira}. Şagirdlərin mənsub olduğu məktəblər B çoxluğudur B={190, Bakı, 1-Ağdam, 16 Sumqayıt}. İndi hansı şagirdin hansı məktəbə münasib olduğuna baxaq.

| A / B | Bakı,190 | Ağdam 1 | Sumqayıt, 16 |
|---|---|---|---|
| Elxan | x | | |
| Məmməd | x | x | |
| Elmira | | | x |

İşarələnmiş münasibət AxB çoxluğunun altçoxluğudur.

Qeyri-səlis mühasibət klassik münasibət anlayışını dərəcə məsələsində ümumiləşdirir. Daha əvvəl qeyd edildiyi kimi, qeyri-səlis münasibət “dost” iki şəxs arasındakı dostluq dərəcəsini təsvir edir. Eynilə, insanın boyu və çəkisi arasındakı qeyri-səlis əlaqə, müəyyən bir boyu və çəkisi olan bir insanın “miniatür” hesab olunma dərəcəsini təsvir edir.

Fərz edək ki, biz bir qadının boyu və çəkisi baxımından “miniatür” qeyri-səlis münasibəti ifadə etmək istəyirik. Tutaq ki, hündürlüyün diapazonu və bizi maraqlandıran çəki {152, 155, 157, 160, 163, 165, 168}, h işarəsi və {90, 95, 100, 105, 110, 115, 120, 125-dir.} müvafiq olaraq w ilə işarələnir. Qeyri-səlis əlaqəni cədvəl 1.3-də göstərildiyi kimi matris şəklində ifadə edə bilərik.

Cədvəl 1.3. Qeyri-səlis münasibət – “Miniatür”

| h/w | 45 | 50 | 55 | 60 | 65 | 70 | 75 | 80 |
|---|---|---|---|---|---|---|---|---|
| 152 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0.5 | 0.2 |
| 155 | 1 | 1 | 1 | 1 | 1 | 0.9 | 0.3 | 0.1 |
| 157 | 1 | 1 | 1 | 1 | 1 | 0.7 | 0.1 | 0 |
| 160 | 1 | 1 | 1 | 1 | 0.5 | 0.3 | 0 | 0 |
| 163 | 0.8 | 0.6 | 0.4 | 0.2 | 0 | 0 | 0 | 0 |
| 165 | 0.6 | 0.4 | 0.2 | 0 | 0 | 0 | 0 | 0 |
| 168 | 0 | 0 | 0 | 0 | | | | |

Matrisdəki hər bir ədəd müvafiq hündürlüyü və çəkisi olan qadının “miniatür” hesab edildiyi dərəcəni göstərir. Məsələn, 160 hündürlüyə və 65 çəkiyə uyğun gələn dərəcə 0,5-dir, bu belə bir qadının “miniatür” insan hesab ediləcəyi dərəcədir.

“Miniatür” qeyri-səlis münasibəti təyin etdikdən sonra iki növ suala cavab verə bilərik:

- Müəyyən bir boyu və xüsusi çəkisi olan qadın nə dərəcədə “miniatür” hesab olunur?

- “Miniatür” bir qadının müəyyən bir boy və çəki ölçülərinə malik olmasıının mümkünlüyü nədir?

Adətən, qeyri-səlis münasibətlər qeyri-səlis IF…THEN (Əgər...ONDA) qaydaları ilə təsvir olunur. Qeyri-səlis qayda şərti ifadə kimi müəyyən edilə bilər:

ƏGƏR x A-dırsa, onda y B-dir

Burada x və y linqvistik dəyişənlərdir; və A və B linqvistik dəyişənlərin dəyərləridir.

Giriş dəyişəni – Qeyri-səlis qaydanın ilkin(və ya “əgər”) hissəsidir.

Nəticə – Qeyri-səlis qaydanın yekun (və ya “ONDA”) hissəsidir.

ƏGƏR adamın boyu hündürdürsə, ONDA çəkisi ağırdır.

Nəticənin həqiqətə mənsubiyyət dərəcəsi birbaşa antisedentin müvafiq həqiqət dərəcəsi ilə qiymətləndirilir.

Qeyri-səlis qaydanın bir neçə antisedenti ola bilər, məsələn:

ƏGƏR layihə müddəti uzun olarsa və layihənin maliyyələşdirilməsi qeyri-adekvatdırsa, ONDA risk yüksəkdir.

Əgər xidmət əladırsa və yemək dadlıdırsa, ONDA çaypulu yüksəkdir.

## Əlavə 4
## Qeyri-səlis məntiqin müxtəlif fənlərdə izlərinin müəllimlər üçün qısa izahı

**Sadə və konkret nümunələrdən istifadə edin.**

Qeyri-səlis məntiq açıq şəkildə bəli və ya yox, boz zonalar və qeyri-müəyyənliklərlə işləyir. Müəllimlərə şagirdlərin gündəlik həyatından sadə, konkret nümunələrdən istifadə etməyi təklif edin:

**Qrup işi və müzakirələr**

Qoyun uşaqlar öz aralarında müzakirə edərək öyrənsinlər.

• **Nümunə:** Uşaqlara bir şəkil göstərin və soruşun: "Bu şəkildə necə soyuqdur?" Uşaqları müxtəlif dərəcədə razılıqla cavab verməyə təşviq edin və niyə belə düşündüklərini müzakirə edin. Bu onlara qeyri-səlis məntiqin əsaslarını anlamağa kömək edir.

**Konseptləri Sadə və Aydın edin**

Şagirdlərə qeyri-səlis məntiqin əsaslarını sadə və başa düşülən dildə izah edin. Qeyri-müəyyənlik anlayışını təqdim etmək üçün gündəlik həyatdan nümunələr verin. Məsələn, "Bu gün bir az istidir, yoxsa çox isti?" Müxtəlif temperatur səviyyələrinin qey-

ri-müəyyənliyini aşağıdakı kimi suallarla müzakirə edə bilərsiniz:

**Qeyri-səlis çoxluq tərifləri**

Şagirdləri klassik çoxluqlar əvəzinə qeyri-səlis çoxluqlar anlayışı ilə tanış edin. Məsələn, "Bu nəsnələr yuvarlaqdır?" əvəzinə "Bu nəsnələr necə dəyirmidir?" Sual verməklə hər bir obyektin yuvarlaqlıq dərəcəsini müəyyən etmələrini xahiş edin:

**Vizual vəsaitlər və diaqramlar**

Qeyri-səlis məntiqi əyani vəsaitlər və diaqramlarla izah edin. Venn diaqramları əvəzinə qeyri-səlis çoxluq diaqramlarından istifadə edərək, şagirdlərə müxtəlif çoxluqların kəsişməsini və birləşməsini qeyri-müəyyən şəkildə qiymətləndirməyi göstərin.

**Real Həyat Problemləri**

Riyaziyyat problemlərində qeyri-müəyyənliyi əhatə edən real həyat ssenarilərindən istifadə edin. Məsələn, meyvə səbətindəki almaların nə qədər yetişdiyini mühakimə etmək kimi problemlər verin. Şagirdlərdən "çox yetkin", "orta yetkin", "az yetkin" kimi qeyri-səlis terminlərdən istifadə edərək qiymətləndirmələr aparın.

**Müxtəlif Resursların Qiymətləndirilməsi**

Müxtəlif tarixi mənbələrin etibarlılığını qiymətləndirin. Məsələn, "Bu mənbə nə dərəcədə etibarlıdır?" Şagirdlərdən sual verməklə mənbələri etibarlılıq səviyyələrinə görə qiymətləndirmələrini xahiş edin:

**Tarixi proseslərin təhlili**

Tarixi prosesləri təhlil edərkən qeyri-müəyyənlikləri vurğulayın. Məsələn, "Sənaye İnqilabının təsirləri nələrdir?" sualı əvəzinə "Sənaye İnqilabının təsirləri nə dərəcədə nəzərə çarpırdı?" sualını verin. Şagirdlərdən fərqli effektləri qiymətləndirin.

**Müzakirə və Perspektivlər**

Tarixi hadisələr və insanlar haqqında müzakirələr vasitəsilə şagirdlərə müxtəlif perspektivləri anlamağa kömək edin. Məsələn, "Tənzimat Fərmanının nəticələri nə dərəcədə müsbət və ya mənfi idi?" Şagirdlərdən müxtəlif perspektivləri nəzərdən keçirmələrini xahiş edin.

**Dilin qeyri-müəyyənliklərini başa düşmək**

Dilin qeyri-müəyyənliklərini və çevikliklərini vurğulamaqla başlayın. Məsələn, sözlərin müxtəlif mənalarını və istifadələrini müzakirə edin. "Gözəl" sözünün müxtəlif kontekstlərdə necə fərqli mənalar daşıya biləcəyini misallarla izah edin.

**Çoxmənalı sözlər**

Şagirdlərin müxtəlif kontekstlərdə necə istifadə olunduğunu başa düşmələri üçün qeyri-müəyyən sözləri müzakirə edin. Şagirdlərdən "baş" sözünün müxtəlif mənalarını misallarla izah etmələrini və bu mənaları miqyasda qiymətləndirmələrini xahiş edin.

**Məna nüansları**

Söz və ifadələrin məna çalarlarını qiymətləndirin. Şagirdlərə “soyuq” sözünün müxtəlif dərəcələrdə necə istifadə oluna biləcəyini izah edin (məsələn, “soyuq hava”, “soyuq su”, “soyuq insan”) və onlardan bu istifadələri qiymətləndirin.

**Yazılı və şifahi ifadə**

Yazılı və şifahi ifadələrdə qeyri-müəyyənlikləri müzakirə edin. Şagirdlərdən cümləni müxtəlif intonasiyalarla oxuduqda onun mənasının necə dəyişə biləcəyini müzakirə etmələrini xahiş edin.

**Yol hərəkəti qaydalarının qeyri-müəyyənliklərinin izahı**

Yol hərəkəti qaydalarının həmişə ağ-qara olmadığını və bəzən qaydaların çevik şəkildə şərh edilməsinin lazım olduğunu izah edin. Məsələn, “Biz həmişə piyada keçidində dayanmalıyıq” qaydasını “Piyada keçidində dayanmalı olduğumuz zaman nə qədər sürətli və ya yavaş getməliyik?” kimi dəyişdirilə bilər. Sualı müzakirə edin.

**1. Vizual və Real Həyat Nümunələri**

Real həyat şəkilləri və videolarından istifadə edərək müxtəlif trafik vəziyyətlərini nümayi° etdirin. U°aqlardan müəyyən bir vəziyyətdə nə etməli olduqlarını soruşun və müxtəlif cavabları müzakirə edin. Məsələn,

onlardan piyada keçidində avtomobilin dayandığını görsələr, nə etməli olduqlarını soruşun.

**2. Reytinq və Qiymətləndirmə**

Onlardan müxtəlif yol vəziyyətlərini qiymətləndirmələrini xahiş edin. Məsələn, "Bu vəziyyətdə nə qədər diqqətli olmalıyıq?" və ya "Bu vəziyyətdə nə qədər sürətli olmalıyıq?" Uşaqlara aşağıdakı kimi suallar verməklə müxtəlif vəziyyətləri qiymətləndirin:

**3. Qaydaların Qiymətləndirilməsi**

• **Qaydaların Çevikliyi:** Ənənəvi qaydalarda "qadağan olunur" və ya "icazə verilir" kimi sərt ifadələr əvəzinə qaydaların dərəcələrini göstərin. Məsələn:

• **Səs-küy səviyyəsi:** Sükut tələb edən dərs zamanı "çox sakit", "bir az yüksək" və ya "çox yüksək" kimi səviyyələri təyin edin.

• **Tapşırıqları tamamlamaq:** "tamamilə yerinə yetirildi", "bir qədər yerinə yetirildi" və ya "heç yerinə yetirilmədi" kimi tapşırıqlar üçün reytinqlərdən istifadə edin.

• **Real Həyat Nümunələri**: Qeyri-səlis məntiqi gündəlik həyatdan nümunələrlə izah edin. Məsələn, hava proqnozları (günəşli, az buludlu, çox buludlu) və ya yemək dadları (çox şirin, bir az şirin, heç şirin deyil).

**4. Qeyri-səlis məntiqlə qaydaların təhlili**

• **Ssenarilərlə işləmək**: Şagirdlərə müxtəlif ssenarilər verin və qaydaların həmin ssenarilərdə necə tətbiq oluna biləcəyini müzakirə edin. Məsələn:

o Şagird sinifdə alçaq səslə danışır. Bu halda, səs-küy səviyyəsi “bir az yüksək” ola bilər ki, bu da şagirdlərin qaydanı pozmaması anlamına gələ bilər.

o Əgər şagird öz tapşırığını qismən yerinə yetiribsə, bu, “bir qədər yerinə yetirilib” ola bilər və tam yerinə yetirilməmiş kimi pis hesab edilməməlidir.

**5. Çeviklik və Ədalətlilik**

• **Ədalətli Qiymətləndirmə:** Şagirdlərin davranışını qeyri-səlis məntiq prinsipləri ilə çevik şəkildə qiymətləndirin. Bu, şagirdlərə onların davranışlarının mütləq yaxşı və ya pis olmadığını, lakin bir spektrdə qiymətləndirilməli olduğunu başa düşməyə kömək edir.

**6. İştirak və əks əlaqə**

• Şagirdlərin iştirakı: Şagirdləri qaydaların yaradılması prosesinə cəlb edin. Onlardan müəyyən qaydaların hansı səviyyədə qiymətləndirilə biləcəyi ilə bağlı fikirlərini soruşun.

• Əlaqə: Şagirdlərin qeyri-səlis məntiq prinsiplərinə əsasən qaydalara uyğunluğunu qiymətləndirmək və bu qiymətləndirmələr əsasında rəy bildirmək. Məsələn, “Bu tapşırığı çox yaxşı yerinə yetirdi, lakin bu hissə bir az natamam idi”.

**Problemin həlli və ünsiyyət bacarıqları**

Uşaqlara qeyri-səlis məntiqdən istifadə edərək ünsiyyət qurmağı və  problemi daha effektiv həll etməyi öyrədin. Hər iki tərəfin hisslərini və ehtiyaclarını nəzərə alan həllər tapın.

• Nümunə: “Bu vəziyyətdə bir az geri çəkilsək, orta yolu tapa bilərik” və ya “Sakitləşib bir az daha danışsaq, hər ikimizin necə hiss etdiyini daha yaxşı anlaya bilərik” kimi həllər təklif edir.

**Vəziyyətdən asılı olaraq müxtəlif reaksiyalar**

Qeyri-səlis məntiqlə vəziyyətin dərəcəsindən asılı olaraq müxtəlif reaksiyalar vermək olar. Uşaqlara hər bir vəziyyətin fərqli reaksiya tələb etdiyini öyrədin.

• Nümunə:

• Kiçik Münaqişə: “Belə olan halda, fasilə verib sonra danışmaq yaxşı fikir ola bilər”.

• Orta Dava: “Bu vəziyyətdə müəllimdən kömək almaq ən yaxşısı ola bilər”.

• Şiddətli Dava: “Bu vəziyyətdə, dərhal böyüklərə xəbər verməliyik”.

**Yol hərəkəti qaydaları:**

**• Sürət Limitləri: Normalda sürət həddi “aşıldı” və ya “aşılmadı” kimi qiymətləndirilir. Ancaq Qeyri-səlis məntiqi olaraq “bir qədər sürətli” və ya “demək olar ki, kənarda” hesab edilə bilər. Məsələn, sürət həddi 50 km/saatdırsa və siz 55 km/saat sürətlə gedirsinizsə, bu, “tam sürət həddini aşmaq” deyil, “bir az sürətlə getmək” kimi qiymətləndiriləcək.**

**• Yol kəsişməsində dayanma: Yol kəsişməsində dayanma variantları var, ya “dayan” və ya “dayanma”. Bununla belə, Qeyri-səlis məntiqlə “yavaş dayan” və ya “demək olar ki, dayan” kimi seçimlər ola bilər. Məsələn, kəsişməyə yaxınlaşanda sürəti azaldıb az**

**qala dayanacaqsansa, hətta tam dayanmamısan belə, buna "yarım dayanma" da demək olar.**

**• Kəsişmədə yol hüququ: Normalda ya yol hüququ var, ya da yoxdur. Bununla belə, Qeyri-səlis məntiqlə "yol hüququna yaxın" kimi bir vəziyyət ola bilər. Məsələn, nəqliyyat vasitəsinin tam keçid hüququ yoxdursa, lakin digər nəqliyyat vasitələri ona yol verirsə, onun "qismən hərəkət hüququ var" deyə bilərik.**

**Svetofor Rəngləri: Qırmızı işıqda dayanmaq və ya yaşıl işıqda keçmək çox aydın qaydalardır. Ancaq Qeyri-səlis məntiqlə "sarı işıqdan keçmək" və ya "az qala dayanmaq" kimi ara vəziyyətlər ola bilər. Məsələn, sarı işıq yandıqda "nə qədər davam edə bilərəm?" sualı ilə qarşı-qarşıya qaldıqda "yarım dayan" deyə bilərik.**

**Dərs Oxumaq:**

• **Dərs oxumaq vaxtı:** Uşaq ya "çox uzun dərs oxuyur" ya da "çox qısa dərs oxuyur". Ancaq Qeyri-səlis məntiqlə "Orta müddət oxudum" və ya "Bir az oxudum" deyə bilərsiniz. Məsələn, 2 saatlıq oxumaq yerinə 1 saat işləmisinizsə, "yarı yarı oxudum" deyə bilərsiniz.

• **Konsentrasiya:** Öyrənərkən ya "çox diqqətli" ola bilərsiniz, ya da "heç diqqətinizi cəmləməmiş" ola bilərsiniz. Ancaq Qeyri-səlis məntiqlə "Mən bir qədər diqqətimi cəmləmişəm" və ya "Mən qismən diqqətimi cəmləmişəm" deyə bilərsiniz. Məsələn, bəzi mövzulara yaxşı diqqət yetirə bilsəniz, lakin başqalarına diqqətinizi yayındırsanız, "orta dərəcədə diqqət mərkəzində olduğunuzu" söyləyə bilərsiniz.

• **Cavab Vəziyyəti:** Uşaq ya "zorbalığa cavab verir" və ya "cavab vermir". Ancaq Qeyri-səlis məntiqlə "mən bir qədər cavab verdim" və ya "qismən cavab verdim" deyə bilərsiniz. Məsələn, sizi narahat edən, lakin vəziyyəti tam həll etməyən dostunuza bir qədər cavab verdiniz; Belə olan halda "Yarım qarşılıq verdim" deyə bilərsiniz.

**Nisbət və Mütənasibliyi Qeyri-səlis məntiqlə əlaqələndirin**

Nisbət və mütənasiblik mövzusunu qeyri-səlis məntiqlə əlaqələndirməklə siz şagirdin mövzunu daha çevik şəkildə başa düşməsinə şərait yarada bilərsiniz. Məsələn:

• "Reseptdə 2 stəkan un üçün 1 stəkan su istifadə edilirsə, bu nisbəti necə dəyişə bilərik? Bir az az və ya çox un istifadə etsək nə olar?"

• "Avtomobil 100 km-ə 5 litr benzin sərf edərsə, 200 km-ə nə qədər benzin sərf edərdi? Yol bir az uzun və ya qısa olsaydı necə olar?"

Bu nümunələr qeyri-müəyyən vəziyyətlərdə nisbət və nisbətin necə işlədiyini göstərir.

**Problemin həlli və ssenarilər**

Şagirdləri qeyri-səlis məntiqdə düşünməyə çağıracaq problem və ssenarilər yaradın:

• "Bir tortu 4 nəfərə bərabər bölmək üçün nə edərdiniz? 5 nəfər olsaydı necə?"

• "Bağdakı güllər 3 gündə bir suvarılırsa, 6 gündə neçə dəfə suvarılır? Bəs suvarma tezliyi bir az az və ya çox olsaydı?"

**Çevik düşüncə tərzini təşviq edin**

Qeyri-səlis məntiq qəti nəticələrə deyil, çevik düşünməyə təşviq edir. Şagirdlərdən müxtəlif imkanları nəzərdən keçirin:

• "Bir problemi həll etməyin birdən çox yolu ola biləcəyini düşünün. Hansı üsul daha yaxşı nəticə verəcək?"

• "Nisbət və nisbətdən istifadə edərək müxtəlif ssenarilər yaradın. Məsələn, alış-veriş siyahısında qiymətlər necə dəyişə bilər?"

**Hava Proqnozu Oyunu**

• Məqsəd: Qeyri-səlis məntiqlə proqnozlar verməyi öyrənmək.

• Necə Oynamaq olar:

• Uşaqlara müxtəlif hava ssenariləri verilir (məsələn, "buludlu, lakin yağış ehtimalı yoxdur").

• Bu məlumatdan istifadə edərək uşaqlar özlərinə sual verə bilərlər: "Bu gün çətir almalıyammı?" kimi suallara cavab verir.

• Proqnozlar qeyri-səlis məntiq qaydalarından istifadə etməklə aparılır (məsələn, "əgər çox bulud və külək varsa, yağış ehtimalı yüksəkdir").

• Nəticə: Uşaqlar birmənalı olmayan situasiyalarda mülahizə yürütməyi öyrənirlər.

**Robotik Fəaliyyətlər (LEGO Mindstorms və ya Scratch)**

• Məqsəd: Qeyri-səlis məntiqlə robotu və ya personajı idarə etmək.

• Necə Oynamaq olar:

• LEGO Mindstorms kimi robototexnika dəstlərindən və ya Scratch kimi vizual proqramlaşdırma platformalarından istifadə edin.

• Uşaqlar robotun və ya personajın davranışını qeyri-səlis məntiq qaydaları ilə proqramlaşdırır. Məsələn, "maneə yaxındırsa, sürəti azaldın, uzaqdadırsa, sürətləndirin" kimi qaydalar müəyyən edilir.

• Bu fəaliyyət uşaqlara qeyri-səlis məntiqlə qərarların necə verilə biləcəyini konkret şəkildə görməyə imkan verir.

• Qazanc: Uşaqlar alqoritmik düşünmək və Qeyri-səlis məntiq qaydalarını tətbiq etmək bacarığı qazanırlar.

**Duyğuların Təxmin Edilməsi Oyunu**

• Məqsəd: Emosiyaları qeyri-səlis məntiqlə təhlil etmək.

• Necə Oynamaq olar:

• Uşaqlara müxtəlif üz ifadələri (xoşbəxt, kədərli, təəccüblü, qəzəbli) göstərilir və bu ifadələrin nə qədər güclü olduğu soruşulur.

• Məsələn, "bu üz ifadəsi nə qədər xoşbəxtdir?" və ya "bu ifadə bir az kədərlidir, yoxsa çox kədərlidir?" Proqnozlar Qeyri-səlis məntiqdən istifadə edərək aşağıdakı suallarla aparılır:

• Nəticə: Uşaqlar emosiyaların qeyri-müəyyən təbiətini başa düşür və Qeyri-səlis məntiqlə təhlil etməyi öyrənirlər.

**İsti-Soyuq Oyunu**

• Məqsəd: Qeyri-səlis sıralamasını başa düşmək.

• Necə Oynamaq olar:

• Ənənəvi “isti-soyuq” oyunu Qeyri-səlis məntiqlə zənginləşdirilmişdir. Məsələn, uşaqlar obyekt axtararkən “bir az isti”, “çox isti” və ya “bir az soyuq” kimi ifadələrdən istifadə edirlər.

• Bu oyun uşaqlara qeyri-səlis reytinqləri anlamağa kömək edir.

• Nəticə: Uşaqlar qeyri-müəyyən məlumatlarla işləməyi öyrənirlər.

**Qeyri-səlis məntiqlə hekayə yaratmaq**

• Məqsəd: Qeyri-səlis anlayışlarla hekayə yazmaq.

• Necə Oynamaq olar:

• Uşaqlara Qeyri-səlis anlayışlar (məsələn, “bir az qorxulu”, “çox əyləncəli”, “bir az həyəcanlı”) verilir və bu anlayışlardan istifadə edərək hekayə yazmaq tapşırılır.

• Məsələn, “bir xarakter bir az qorxur, həm də bir az maraqlanır” kimi ifadələrdən istifadə edin.

• Qazanc: Uşaqlar Qeyri-səlis anlayışlardan istifadə edərək yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirirlər.

**Ağıllı Ev Simulyasiyası**

• Məqsəd: Qeyri-səlis məntiqlə avtomatlaşdırma sistemlərini başa düşmək.

• Necə Oynamaq olar:

• Uşaqlar ağıllı ev sistemini simulyasiya edirlər. Məsələn, o, “temperatur nə qədər yüksək olarsa, kondisioner bir o qədər çətin işləməlidir” və ya “işıq nə qədər azalsa, lampa bir o qədər parlaq olmalıdır” kimi qaydaları müəyyən edir.

• Bu simulyasiya Scratch və ya oxşar proqramlaşdırma platformasından istifadə etməklə yaradıla bilər.

Qazanc: Uşaqlar real həyatda qeyri-səlis məntiq qaydalarından istifadə etməyi öyrənirlər.

• LEGO Mindstorms və ya oxşar robot dəstlərindən istifadə etməklə futbol turniri keçirilir.

• Uşaqlar robotların davranışlarını qeyri-səlis məntiq qaydaları ilə proqramlaşdırırlar. Məsələn, "top nə qədər yaxın olsa, bir o qədər tez qaçarsan" və ya "rəqib nə qədər yaxınlaşsa, bir o qədər müdafiə edərsən" kimi qaydalar müəyyən edilir.

• Qazanc: Uşaqlar qeyri-səlis məntiqlə real vaxtda qərar qəbul etmə bacarıqlarını inkişaf etdirirlər.

**Qərar vermə oyunu**

• Məqsəd: Qeyri-səlis məntiqlə mürəkkəb qərarlar qəbul etmək.

• Necə Oynamaq olar:

• Uşaqlara müxtəlif ssenarilər verilir (məsələn, "tətil planlaşdırmaq" və ya "büdcə yaratmaq"). Bu ssenarilərdə onlardan qeyri-səlis məntiq qaydalarından istifadə edərək qərar vermələri xahiş olunur.

• Məsələn, "büdcə çox azdırsa, ucuz variantları seçin, orta səviyyədədirsə, bir qədər dəbdəbəli seçimlərə keçin" kimi qaydalar müəyyən edilir.

• Qazanc: Uşaqlar mürəkkəb qərar qəbul etmə proseslərində qeyri-səlis məntiqdən istifadə etməyi öyrənirlər.

**Sİ köməkçisinin layihələndirilməsi**

• Məqsəd: Qeyri-səlis məntiqli süni intellekt sistemlərini inkişaf etdirmək.

• Necə Oynamaq olar:

• Uşaqlar sadə Sİ köməkçisi dizayn edir. Məsələn, "istifadəçi xoşbəxtdirsə, müsbət cavab verin, istifadəçi kədərlidirsə, dəstəkləyici cavab verin" kimi qaydalar təyin edin.

• Bu köməkçi Scratch və ya oxşar platformadan istifadə etməklə proqramlaşdırıla bilər.

• Nəticə: Uşaqlar süni intellekt və qeyri-səlis məntiq arasındakı əlaqəni başa düşürlər.

**Qeyri-səlis məntiqlə musiqi bəstələmək**

• Məqsəd: Qeyri-səlis məntiqlə yaradıcı prosesləri dəstəkləmək.

• Necə Oynamaq olar:

• Uşaqlar Qeyri-səlis məntiq qaydalarından istifadə edərək musiqi parçası bəstələyirlər. Məsələn, "temp sürətlidirsə, yüksək notlardan istifadə edin; yavaşdırsa, aşağı notlardan istifadə edin" kimi qaydalar müəyyən edilir.

• Bu fəaliyyət rəqəmsal musiqi proqramları və ya alətləri ilə həyata keçirilə bilər.

• Qazanc: Uşaqlar qeyri-səlis məntiqi yaradıcılıqla birləşdirməyi öyrənirlər.

**Qeyri-səlis məntiqlə dil tərcüməsi**

• Məqsəd: Qeyri-səlis məntiqdən istifadə edərək dil tərcüməsi.

• Necə Oynamaq olar:

• Uşaqlar sadə dil tərcümə simulyasiyası yaradırlar. Məsələn, "cümlə müsbət olarsa, tərcümə də müsbət, mənfi olarsa, tərcümə də mənfi olmalıdır" kimi qaydalar müəyyən edilir.

• Bu fəaliyyət sadə proqramlaşdırma dili və ya cədvəllərlə həyata keçirilə bilər.

• Nəticə: Uşaqlar dilin işlənməsi və qeyri-səlis məntiq arasındakı əlaqəni başa düşürlər.

## Əlavə 5

## Kamal Abdulla, Rafiq Əliyev. "Kitabi-DədəQorqud" dastanı – bildiklərimiz və bilmədiklərimiz

### KDQ anaxronik mətn kimi

"Kitabi-Dədə Qorqud" dastanı qədim türk (oğuz) bədii yazılı mətnidir. Onun müəllifinin doğum tarixini Məhəmməd peyğəmbərin yaşadığı zamanla bağlamaq bir tərəfdən özünü doğruldur, çünki mətnin giriş hissəsində müəllifin, yəni Dədə Qorqudun məhz bu zaman doğulduğu xüsusi olaraq qeyd edilir. Dastan elə bu qeydlə də başlayır: "Rəsul əleyhüssəlam zamanına yaxın Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu". Bu cümlə Dədə Qorqudun nə zaman doğulduğunu aydın şəkildə bildirir.

Deməli, belə çıxır ki, Dastanın müəllifinin təxminən 1300 illik bir tarixi var. Amma Dastanın özünün yaranma tarixini aydınlaşdırmaq istəyəndə məsələnin başqa, daha gizli bir tərəfi özünü göstərir. Mətndə məhz Dədə Qorqudun özünün iştirakı ilə elə dövrlərə aid hadisələr təsvir edilir ki, bu dövrlər Rəsul əleyhüssəlam dövründən xeyli əvvəlki zamana, yaxud da bu dövrdən daha sonrakı zamana aiddirlər. Oğuz

Polifemi ilə, ona qalib gələn Oğuz qəhrəmanı Basatla bağlı süjet xətti insan cəmiyyətinin Təbiət dövründəki həyatını, Təbiətdən Mədəniyyətə keçidinin əzablı yolunu bədii şəkildə modelləşdirirsə, bir sıra digər xətlər orta əsrlərdəki türk – Bizans qarşıdurma dövrünə, artıq formalaşmış tayfadaxili mübarizələr dövrünə aparır. Bütün bu süjet xətlərində isə biz görürük ki, əsas yaradıcı məhz Dədə Qorqudun özüdür. Giriş hissəsində onun adından deyilən sözlər (hökmlər) hətta öz mahiyyəti etibarilə mağara dövründə mağaradaşlara verilən həyat, dünya, insani münasibətlər haqqında dərsləri xatırladır. Beləliklə, Dədə Qorqudun özünün zaman baxımından yaşam diapazonu xeyli böyük və hətta ağlasığmazdır.

Bu dediklərimizə əsasən belə bir nəticəyə gəlmək olar ki, Dastan bütövlükdə anaxronik bir mətndir. Onun müəllifi kimi təqdim edilən Dədə Qorqud özü isə tarixi şəxsiyyət deyil. Real yanaşsaq əsərin müəllifi kimi göstərilən Dədə Qorqud belə böyük bir zaman kəsiyində yaşayıb fəaliyyət göstərə bilməzdi. İtalyan mədəniyyətşünası C. Vikonun və alman filosofu Şellinqin Homerin şəxsiyyət deyil, bir prinsip olmasına dair dediklərinə uyğun olaraq Dədə Qorqudu da bir prinsip və əxlaq etalonu kimi səciyyələndirmək mümkün və qaçılmazdır. Doğrudan da, dərindən baxdıqda Dədə Qorqud, əslində, bir prinsipdir. Oğuz elini müxtəlif tarixi dövrlərdə birləşdirən, onun vahid əxlaqi-etik dəyərlər ətrafında birliyini təmin edən bir

prinsip. Ta qədim mif dövründən bu günə qədər yaşayan, bəzən aşkar, bəzən də gizli şəkildə öz yaşamına davam edən prinsip. Sadəcə, bu prinsipin adı Dədə Qorquddur.

Oğuz cəmiyyəti bu prinsiplər və etalonlar əsasında aldığı yaşam dərslərini zaman-zaman əxz etmiş və bu gün də müasir azərbaycanlıların, Türkiyə türklərinin, türkmənlərin timsalında onları yaşadırlar. Eyni zamanda bu prinsiplər bir çox hallarda digər türk dilləri və xalqları üçün də keçərli olmuş, Dədə Qorqud haqqında əfsanələri qıpçaq və karluk türkləri də bu və ya başqa şəkildə öz şifai yaradıcılıqlarında yaşatmışlar. Bu prinsipləri biz digər türk xalqlarının həyatında da müşahidə edə bilirik. Dədə Qorquda bir şəxsiyyət kimi deyil, bir prinsip kimi yanaşdıqda onun tarixinin də təbii olaraq daha qədim mifoloji dövrə aidliyini daha asanlıqla əsaslandırmaq olar.

## F.H. fon Dits və KDQ

Xüsusi olaraq qeyd eləmək lazımdır ki, bu qədim Oğuz dastanı ilə dünya xalqlarının bir sıra qədim mifoloji mətnləri arasında özünü göstərən süjet oxşarlığına, paralellik durumuna tez-tez rast gəlmək olur. Bu sırada ən çox diqqəti çəkən mifoloji məkan qədim yunan mifoloji mətnləridir. Eyni süjet xətti, qəhrəmanların oxşar səciyyəsi Oğuz və yunan mifoloji məkanları üçün çox səciyyəvidir. Oğuz dastanını dünyaya tanıdan, onun

haqqında ilk dəfə elmi ictimaiyyətə məlumat verən alman diplomatı və şərqşünası Fridrix Haynrix fon Ditsin diqqətini də ilk növbədə bu dastandakı bir sıra süjet xətlərinin yunan mifoloji məkanındakı süjet xətlərilə oxşarlığı (eyniliyi) cəlb etmişdi.

19-cu əsrin əvvəllərində Türkiyədə Prussiyanın ilk səfiri kimi fəaliyyət göstərən fon Dits Türkiyəni, türk dünyasını ürəkdən sevmişdi. Fon Dits İstanbulda səfir kimi çalışdığı zaman çoxlu qədim Şərq əlyazmaları əldə etmişdi və Türkiyədən qayıdarkən özü ilə bir çox əlyazma ilə bərabər "Kitabi-Dədə Qorqud"un da əlyazmasını gətirmişdi.

Fon Dits bu dastanda yer alan bir boya xüsusi diqqət yetirirdi. Bu, yunan mifləri ilə süjet oxşarlığının bariz nümunəsi olan "Basat Təpəgözü öldürdüyü boy" idi. Dits məhz bu boyu elmi ictimaiyyətə təqdim etmək niyyətində idi. O bu boyun alman dilinə tərcüməsini həyata keçirməyə və bütövlükdə dastan haqda, konkret olaraq bu boy haqda özünün əhatəli giriş məqaləsini yazmağa qərar verdi. Dediyimiz kimi "Basat Təpəgözü öldürdüyü" boyun əsas ana xətti yunan mifologiyasından və Homerin "Odisseya"sından avropalı oxucuya yaxşı tanış olan "Odissey və Polifem" xəttinin, demək olar ki, eyni idi. Dastan haqqında öz geniş təhlilinin adını Fon Dits elə belə də qoydu: "Homerinki ilə müqayisədə yeni aşkar edilmiş Oğuz siklopu". Türkiyədən qayıtdıqdan sonra fon Dits bu əsərini Drezdendə 1815-ci ildə nəşr etdirdi.

Fon Dits bu məqaləsində “Kitabi-Dədə Qorqud” dastanına böyük rəğbətlə yanaşır. Öz təhlilində o hətta Təpəgözü bir obraz kimi Polifemdən daha qədim hesab edir. Bu ideyasını Fon Dits belə əsaslandırır ki, Homerdə Polifem ancaq Odisseylə görüşdüyü andan etibarən təsvir edilməyə başlayır və təbii ki, yarımçıqdır. Bunun əksi olaraq Oğuz dastanında isə Təpəgözün və yaxud fon Dits deyən kimi Oğuz siklopunun həyatı doğuluşundan ölümünə qədər tam olaraq təsvir edilir.

Qeyd eləmək lazımdır ki, fon Ditsin bu ideyası, əslində, tənqidə dözmür, çünki korrekt deyil. Belə ki, Polifemin Homerdəki yarımçıq təsvirini əsaslandırmaq mümkündür. Bu ona görə belədir ki, Polifem geniş yunan mifoloji kontekstindən yunan auditoriyasına yaxşı tanış idi. Homer buna sadəcə ehtiyac duymamış ola bilirdi.

Ümumilikdə isə alman aliminin qədim oğuz dastanına bu münasibətini böyük təşəkkür hissi ilə anmaq lazımdır. “Kitabi-Dədə Qorqud”un tədqiqatçıları üçün Dastanın doğum tarixi məhz Fridrix Haynrix fon Ditsin məqaləsinin işıq üzü gördüyü  bu zamandan, 1815-ci ildən başlayır.

## **KDQ-da dil və dil “xəstəliyi”**

Dastanın dili mətnin yazıya alındığı 16-cı əsrin Oğuz (qədim Azərbaycan) dili olmaqla yanaşı, eyni zamanda, daha qədim dil xüsusiyyətlərini də özündə saxlayır. Bu xüsusiyyətlər dilin hələ kifayət qədər güc yığa bilməməsi ilə bağlıdır.

Zaman-zaman tədqiqatçılar arasında dastanın dilinin nəsr, yaxud nəzm dili olması ətrafında mübahisələr gedib. Əslində isə Dastanın dilinə nə təmiz nəzm, nə də təmiz nəsr dili kimi baxmaq olar. Onun dili bu iki reallığın hələ bir-birindən ayrılmadığı birgə *"nəzm-nəsr"* dilidir. Bir növ mifoloji kentavrdır. Bu dil eyni zamanda həm(!) nəzm, həm də(!) nəsr dilidir. Belə bir birikmiş *"nəzm-nəsr"* dili Dastanın qədimliyinin daha bir göstəricisidir, deyə bilərik.

Daha sonrakı inkişaf zamanı bu dildən nəzm və nəsr istiqamətləri şaxələnir. "Kitabi-Dədə Qorqud"un dili bu şaxələnməyə qədərki dövrün dili kimi diqqəti cəlb edir. Dastanın dili və üslubu ilə bağlı ən maraqlı məqam dil vahidlərinin müəyyən dizaynı ilə bağlı olan paralelizm prinsipidir. "Kitabi-Dədə Qorqud" dastanında paralelizmin ən müxtəlif təzahür formalarına rast gələ bilirik. Sintaktik paralelizm, pilləli paralelizm, tərsinə paralelizm, variantların paralelizmi kimi ümumi paralelizm formaları Dastanın bədii quruluşunu kifayət qədər süslənmiş halda olmasını təsəvvür etmək üçün konkret imkanlar verir.

Bu qədim oğuz dilində özünü göstərən son dərəcə önəmli məsələlərdən biri "dil xəstəliyi" ilə bağlı məsələdir. Mifoloji təsəvvürün dəstəklədiyi bu məqam qədim insanın əhatəsində yaşadığı mühit üçün çox xarakterikdir. Dil yeni anlayışın adını verməkdə çətinlik çəkdiyi zaman onu artıq öhdəsində (arsenalında) olan hazır bir işarə ilə adlandırmağa məcburdur. Bu işarə-

nin ilkin mənası isə, unutmayaq ki, mifoloji təsəvvürdə yaşamaqdadır. Məsələn, bu məqamda "qarşı yatan Qara dağ" ifadəsinə diqqət yetirək. İlk ağla gələn odur ki, "yatmaq" feili bu məqamda öz yerində işlənməmişdir. Onun ilkin mənası işarənin alt qatından özünü göstərir. Qədim insan dağın sadəcə görünüşünü deyil, onun yatdığını da beynində fiksə edir. Və buna inanır. İnanır ki, yatmış dağ nə zamansa yuxudan oyanacaq. Mifoloji təsəvvür onun şüuruna bu şəkildə müdaxilə edir.

Amma nəzərə almaq lazımdır ki, Dastan mətninin yarandığı zaman bu cümləyə "yerləşən" kimi ("qarşıda yerləşən dağ" strukturunu əldə etmək üçün) bir feil lazım idi. O isə dil müstəvisində hələ mövcud olmadığından "yatmaq" feili köməyə gəlir və onu əvəz edir. Çünki dastan müəllifi mağarada hər gecə yanında yuxuya getmiş və hərəkətsiz bir mağaradaş görürdü. Bu mağaradaş səhər yuxudan oyanırdı. Buna görə də onu müşahidə edən digər mağaradaşda dağın da yuxudan oyanacağına inam vardı. Dilin "xəstəliyinin" (əslində, qədimdəki yoxsulluğunun) nəticəsidir ki, "yatmaq" feili ortaya atılır və hələ dildə olmayan bir ünsürü əvəz edir. Təbii ki, o özü ilə öz semantikasının da vacib bir komponentini gətirir, onun unudulmasına imkan vermir. Bu, "yatmaq" semantikasıdır. Mifoloji təsəvvür də elə burdan qaynaqlanır və güc yığır.

Dastanda "dil xəstəliyi" özünü yer-yer göstərməkdədir. Biz bu xususiyyəti nəzərə alarkən qeyri-səlis düşün-

cə tərzinin dastanın dil qatına nüfuz etməsini öyrənməklə yanaşı, bəzi leksik-qrammatik elementlərin qədimlik yaşını da müəyyən etmiş olarıq.

**KDQ-da Mif və Yazı**

Dastanda mifoloji təsəvvürlərlə Yazı mədəniyyətinin təzahürünü bəzən bir-birinin yanında görürük. Qədim, primitiv insanın dünyanı dərk etməsinin tarixəqədərki mərhələsi məhz mifoloji mərhələdir. Özünəxas cəhətləri təbiətdə araması və "tapması" bu insanın əxlaqını və dünyagörüşünü formalaşdırır. Dastanın dilində bu qədim dövrün əlamətləri relikt şəklində donub qalmışdır. Əgər biz Dastan dilində "Qarşı yatan Qara dağ" ifadəsinə rast gəliriksə, bu o deməkdir ki, bu ifadə yaranan zaman Qara dağın yatmasına və nə zamansa oyanacağına həqiqətən inanıblar. Bu şəkildə özünə aid bir cəhətin, yəni yatmağın təbiətə aid olan dağa şamil edilməsi Dastan dilinin qədimliyinin ən bariz ifadəsidir. Mifoloji dünya dastanı yaradan insanın təfəkkürünün məhsuludur. Bu mənada başdan ayağa mifoloji təsəvvürün məhsulu olan "de, görüm, nə deyirsən" kimi ifadələr də deyilənin, yəni sözün real, fiziki bir tutuma malik dəyər olaraq qəbul edilməsinin təzahürü olaraq qiymətləndirilə bilər. Mifoloji təfəkkür sahibi olan qədim insan bədii təfəkkürün astanasına gəlib çatana qədər qarşı yatan dağın nə zamansa yuxudan oyanacağına inanır. Çıxan canın geri qayıdacağına inanır. İnanır ki, ölən adam diriləcək və s. və i.a.

İnsan inkişaf etdikcə, onun ətraf mühiti qavraması, beynində paralel dünyalar (süjetlər şəklində) yaranması prosesi reallığa oxşar cizgilər kəsb etdikcə bədiilik dövrü başlayır. Yazı mədəniyyəti mifoloji təsəvvürlərin dərinliyindən ürkək-ürkək baş qaldırır. Bu zaman hətta mifoloji süjetlər belə bədii şəkildə cilalanmağa məruz qala bilir. Yazı mədəniyyətinin "süsləmələr" dövrü başlayır.

Yazı dövrü yazının özünün meydana çıxması ilə başlayır və təşəkkül tapır. Yazı öz yaranışı ilə insan beyninə müxtəlif yeni kodlar gətirmiş olur. Mifin hakimi-mütləqi olan Söz cümlə içində yavaş-yavaş görünməz olmağa başlayır. Yazı mədəniyyətinin əsas dayağı olan cümlənin ümumi məzmunu, siqləti Sözü öz bətnində əridir, Sözü sözə çevirir. Beləliklə, mətnin ağırlıq yükünü öz çiyinlərinə cümlə götürür. Müxtəlif dil səviyyələrində cilalanma prosesi getməyə başlayır. Üslubi rəngarəngliyə meyil möhkəmlənir. Bənzətmələr, şişirtmələr, süsləmələr mətnin artıq daimi atributlarına çevrilir. "Kimi" qoşmasının hakimiyyəti başlanır. Yazı mədəniyyəti "Kitabi-Dədə Qorqud" kimi mətnlər üçün yeni, geniş imkanlar açır. Böyük Füzulinin möhtəşəm misrasının ("Aldanma ki, şair sözü, əlbəttə, yalandır") doğuşdan öncəki həyatı başlanır.

"Kitabi-Dədə Qorqud" mətnində mifoloji təsəvvür elementləri ilə yazı mədəniyətinin elementlərini bir-birinin yanında görürük. Amma əlbəttə ki, onu da unutmaq olmaz ki, dastanın son formalaşma mər-

hələsi Yazı mədəniyyətinin artıq çiçəkləndiyi dövrün təsiri ilə baş vermişdir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, mifoloji elementlər də asan-asan mətndən silinib kənara atılmamışdır. Hətta bəzən bu elementlər dilimizdə özünə rahat sığınacaq taparaq bu günümüzə qədər gəlib çıxmışdır. Məsələn, müasir dilmizdə özünü göstərən bir qədər yuxarıda qeyd etdiyimiz "de, görüm, nə deyirsən?!" ifadəsi dastandakı "de, baxaq görək, nə deyirsən?!" ifadəsinin bu gün də yaşayan formasıdır. Bu şəkildə artıq mənəvi dəyərə çevrilmiş söz ilkin dərk edildiyi zaman real, personə edilmiş varlıq kimi, görünən bir varlıq kimi, başqa sözlə, mifoloji təsəvvürün məhsulu olan bir varlıq kimi özünü göstərir.

## KDQ-da nizam, sahman və sistemlilik

Bəzən biz Dastandan çatdırılan hər hansı (bəlkə də, vacib) informaiyanı onun aşkar qatından almırıq. Müəllif onu bizdən sanki gizlədir. Bu informasiya lazım olduğu yerdə xüsusi olaraq nəzərə çatdırılmır. Müəllif onu başqa bir gözlənilməz qata keçirir. Bəzən də başqa boya keçirir. Bu halın özünü, yəni informasiyanın "gizlədilməsi", onun başqa bir narrativ müstəvidə üzə çıxmasını qeyri-səlis məntiqin təzahürü kimi də qiymətləndirmək olar. Bu, eyni zamanda, boylar arasındakı əlaqənin daha möhkəm olmasını təmin edir. Dastanın qəhrəmanlarından biri olan Beyrəyin taleyi buna bariz misal ola bilər.

Dastanda müəllif tərəfindən ölümə məhkum edilən və ölümü təsvir edilən yeganə cəngavər Beyrəkdir. Onun ölümünün səbəbi isə başqa boydakı konkret bir hərəkəti ilə əlaqəlidir. Bu başqa boyda Beyrək 16 il düşmən əsirliyindədir. O bu əsirlikdən ona aşiq olmuş düşmən bəyinin qızının köməyilə qaçır və qaçarkən bu qıza söz verir ki, geri qayıdıb onu özünə arvad olaraq alacaq. O çox dəhşətli bir and içir: *"Qılıncıma doğranım. Oxuma sancılım. Əgər Oğuza sağ-salamat gedib çatarsam, geri gəlib səni halallığa almazsam..."*

Burdan başlayaraq süjet xətti Odisseyin İtaka adasına qayıdışından sonra baş verənlərlə səsləşir. Beyrək də Odissey kimi sağ-salamat öz elinə-obasına qayıdır. Onu heç kim, öz bacıları belə gördüyündə tanımır. Nişanlısının başqasına ərə getməsi günü Beyrək toya gəlib öz tanınmazlığı ilə dost-düşmənini ayırd etmək istəyir. O elə bu tanınmaz şəklində də toy məclisinə gəlir. Belə bir hala İtaka adasında Odissey də düşür. O da öz arvadı Penelopanın toy məclisinə özünü yetirir. Penelopanın əlinə və ürəyinə, əslində, taxtına iddialı olan itakalı gənclər Odisseyi tanımırlar.

Toy zamanı Beyrək bir sıra lokal sınaqlardan keçir və nəhayət, o özünü onu tanımayanlara (eynən Odissey kimi) tanıdır, nişanlısı Banuçiçəklə qovuşur. Penelopa Odisseyi tanımadığı kimi Banuçiçək də əvvəl-əvvəl Beyrəyi tanımır. Odissey kimi Beyrək də sevgilisinə onların nişanlı vaxtlarının bəzi sirlərini açır və məsələ beləliklə həll olunur.

Odisseyin sirri yataq otağındakı carpayı ilə bağlı idi. Bu sirri onunla Penelopadan başqa bir kimsə bilmirdi. Carpayını yerindən tərpətmək mümkün deyildi, çünki o, palıd ağacının kötüyündə düzəldilmişdi və onun ayaqları (kökü!) torpağın dərinliklərinə qədər uzanırdı. Beyrək isə Banuçiçəyə ona yarışdıqları zaman qalib gəlməsini və "üç öpüb bir dişləıdiyini, sevişdiklərini" xatırladır. Bu xatırlatmalar kifayət edir ki, sevgililərin bir-birini tanıması üçün daha heç bir əngəl qalmasın və vüsal saatı gəlib çatır.

Oğuz mifoloji məkanında Beyrək bir qədər əvvəl verdiyi vədinə – sağ-salamat Oğuza gələrsə, geri dönüb kafir qızını halallığa alması vədinə əməl etmir. O and içmişdi və mifoloji prinsiplərə uyğun olaraq Söz (dastanı yazan Söz!) onu cəzalandırır. Belə ki, başqa bir boyda Beyrək, Xanlar xanı Salur Qazana sədaqətinə görə İç Oğuza üsyan etmiş Dış Oğuz bəyləri tərəfindən öldürülür. Nə üçün Məhz Beyrəyin öldürülməsilə bağlı "gizlədilmiş" informasiya qeyri-səlis məntiqin prinsiplərinə tam uyğun şəkildə Dastan mətninin başqa bir narrativ məkanında bu şəkildə yerbəyer edilir, ordan baş qaldırır.

Dastan mətnində nizam və sahman hər şeydən əvvəl məzmundakı iyerarxiyanı tənzimləyir. Bayandur xanın məclisində bu iyerarxiya belə təsvir edilir. Sağda oturan "sağ bəylər" ilə solda oturan "sol bəylər", eşikdə duran "inağlar" (favoritlər) bir-birindən fərqləndirilir.

Savaşdan öncə qırımların seçilməsi də son dərəcə önəmlidir. Belə ki, Oğuz qəhrəmanlarından biri olan Şir-

şəmsəddinin Bayındur xanın qırımına qarşı çıxıb onunla "icazəsiz" döyüşməsi Xan tərəfindən heç də rəğbətlə qarşılanmır.

Buradakı cəngavərlik kodekslərindən biri də budur ki, savaş zamanı hər bir Oğuz qəhrəmanı əvvəlcədən razılaşdırılmış şəkildə öz qırımı ilə döyüşür. Bu, savaşın əsas prinsiplərindən biridir.

Boyların bir-birilə dərin və sıx əlaqəsi var. Bir boyda göstərilən səbəb başqa bir boyda nəticə kimi özünü göstərə bilir. Bu hal eyni zamanda boylararası əlaqənin möhkəmliyinə dəlalət edir. Nəticədə, ayrı-ayrılıqda on iki boyla deyil, bir bütöv mətnlə qarşı-qarşıyayıq ideyası oxucunu tərk eləmir.

## **Homer və Dədə Qorqud**

Bu iki qüdrətli şairin yaratdığı möhtəşəm abidələrdə qədim mofoloji təsəvvürlərin ən müxtəlif məkanlarda belə bir-birinə yaxın olduğu dövr təsvir edilir. Ona görə də bu əsərlərdə bəzən kifayət qədər oxşar və eyni məqamların təsviri qələmə alınır.

Deyilənlərin işığında Homerin "İliada"da və Dədə Qorqudun "Kitabi-Dədə Qorqud"da təsvir etdikləri savaş səhnələrini müqayisə etmək maraqlı olardı. Bu müqayisə bizə imkan verərdi ki, bu ölməz mətnlərdə qeyri-səlislik və səlislik qütblərinin dediyimiz müstəvidə (savaş səhnələrinin təsvirində) özlərini necə göstərdiyini ortaya qoyaq.

Döyüşlərin təsviri zamanı kimin kimə qalib gəldiyini hər iki dastanda müşahidə edirik.

Bu şairlərdən biri savaş səhnələrinin təsvirində geniş təfərrüat nümayiş etdirir, ölən və öldürən yunanlı və troyalı qəhrəmanların ailə üzvlərinə qədər informasiya verir – bu, Homerdir. Döyüş təsvirlərində Homer daha əhatəlidir. Məsələn, əgər "İliada"da cəsur Diomedin qəhrəmanlıqlarına hətta ayrıca bir fəsil (nəğmə) həsr edilirsə, "Kitabi-Dədə Qorqud"da hər bir Oğuz qəhrəmanının savaş zamanı öz qarşısındakı düşmən müqabilinə qalib gəlməsini sadəcə qeyd etmək Oğuz müəllifi üçün kifayətdir. O bunu bircə cümlə vasitəsilə bəyan edir. Təfərrüata ehtiyac duymur.

Homer savaşdan əvvəl hətta döyüşçünün öz döyüş libasını necə və hansı ardıcıllıqla geyinməsini səbirlə və şövqlə təsvir edir. Paris Menelayla döyüşdən əvvəl libasını belə bir ardıcıllıqda geyinir. O, əvvəlcə parlaq dizliklərini taxır. Sonra gümüş telli bağlar ilə onları ayağına bərk-bərk sarıyır. Daha sonra döşlüyünü geyinir. Qılıncına qurşanır. Nəhəng qalxanını əlinə alır. Başına qalın dəbilqəsini qoyur. Əlinə nizəsini götürür. Bu konkret və uzun təsvirdən hətta Homer belə bezərək Parisin döyüş səhnəsindəki tərəf-müqabili Menelayın geyinməsini "Dədə Qorqudvari" bir misra ilə təqdim edir, "Menelay da onun kimi silahlanıb geyinmişdi" deyir.

"Kitabi-Dədə Qorqud"da savaş zamanı tərəf-müqabillər arasında dəqiq qarşıdurmalar savaşdan öncə təyin edilir. Əgər döyüşçü savaş zamanı öz qırımına, yəni tərəf-müqabilinə qalıb gəlirsə, Dastan mətnində təsvir

bitir. Savaşın bilavasitə təsviri zamanı isə Dədə Qorqud, sanki tələsir, Okkam ülgücü ilə bir çox ixtisarlara yol verir, sadəcə olaraq savaşdan öncə müəyyən edilən tərəf-müqabildən "kim kimi öldürdü?" xəbərini çatdırır.

Belə bir halın özü bütövlükdə savaşın Homerdə olan kimi xaotik, "kim kimi harda tapdı" şəklində deyil, daha sahmanlı (planlı) şəkildə baş verməsindən xəbər verir. Dədə Qorqud dastanında bu cür "sahmanlı" təsvir qeyri-səlis olaraq konkret seçim etmək prinsipindən xəbər verir.

Homerdə isə "xaotik" təsvir bütün döyüş səhnəsini əhatə etmək cəhdi kimi özünü göstərir. Homerin əhatəliyi və Dədə Qorqudun lakonikliyi qarşı-qarşıya durur və burada biz Dədə Qorqud mətninin qeyri-səlis düşüncə məhsulu olduğunun bir daha şahidi oluruq.

Beləliklə, biz görürük ki, savaş səhnələrində Dədə Qorqud tam olaraq qeyri-səlis məntiq prinsipi ilə hərəkət edir və təqribi təsvirlər verir.

Homer isə bunun əksi olaraq qeyri-səlisliyi aradan qaldırmağa, reallığı tam olaraq əks etdirməyə çalışır.

Əlbəttə ki, məsələ bu cür idisə, təəccüblənmək lazım deyil ki, niyə antik dünyanın yetişdirməsi olan dahi Aristotel qeyri-səlis düşüncə ilə dünyaya baxa bilmir. Ona tanış olan, onun tərbiyə aldığı bədii model səlis düşüncə modeli idi. Aristotel iki əks qütbün arasında üçüncünün varlığını heç cür  qəbul edə bilməzdi.

Başqa bir fərqli cəhəti də qeyd etmək olar. Homerin təfərrüata meyli və Dədə Qorqudun lakoniklik cəhdi (əs-

lində, qeyri-səlisliyə meyli) özünü qəhrəmanların təqdimatında da göstərir.

Homer Elladadan Troya sahillərinə üzüb gələn igid axeylərin, demək olar ki, bütün gəmilərini sanayır, sərkərdələrdən əsas olanların adını çəkir. Hər sərkərdə özü ilə neçə gəmi gətirmişdir sualına Homerin konkret cavabı var. Yenə də burada Homerin dəqiqliyinə heyran qalmamaq olmur. Bəzən gəmilərin sayı yüz, bəzən əlli, bəzən qırx, on iki, yeddi, otuz iki, hətta üç belə ola bilir. Homer "ümumiyyətlə", "çoxlu", "xeyli" kimi hedclərdən istifadə etmir. Homerin belə dəqiqliyi qeyri-müəyyənlikdən qaçmaq cəhdi kimi də qiymətləndirilə bilər.

Homerin təfərrüata meyli "Odisseya" poemasında da özünü göstərir. Odisseyin ölülər səltənətindəki ruhlarla görüşündə biz bunun şahidi oluruq. Ölülərin ruhu ilə görüşən Odissey bir-bir onlarla söhbət edir və bu zaman Homer ölülərin hər birinin nəsli, şəcərəsi barədə kifayət qədər geniş məlumat verməyi də unutmur. Axillesin, Aqamemnonun ruhları ilə söhbəti xüsusi olaraq qeyd etmək olar. Axillesin oğlu ilə bağlı Odisseyin ona verdiyi məlumat, Aqamemnonun evinə dönərkən arvadı və məşuqu Egist tərəfindən öldürülməsi ilə bağlı Aqamemnonun Odisseyə verdiyi məlumat diqqəti cəlb edir. Təfərrüata belə meyil Homerin səlis məntiq rejimində "işlədiyini" bir daha sübut edir.

Dədə Qorqud isə bir-birinə dar ayaqda köməyə gələn Oğuz qəhrəmanlarının bəzilərinin (!!) adını ancaq sada-

lamaqla kifayətlənir. Düzdür, bu zaman Dədə Qorqud bu qəhrəmanın ən səciyyəvi, Oğuzda yaxşı bilinən bir səciyyəsini qeyd etməyi də unutmur. Məsələn, Şirşəmsəddin barədə deyilir ki, bu Oğuz cəngavəri Bayandır xanın ondan icazə almadan düşməninə hücum edib məhv etmişdir. Bu cür hər bəy haqqında çox lakonik məlumat verdikdən sonra Dədə Qorqud "saymaqla saya gəlməz" hedci ilə əməlli-başlı bir qeyri-səlis çoxluq sistemi yaradır. O bütün oğuz bəylərinin adını çəkməyə ehtiyac duymur. Yenə də biz burada Dədə Qorqud tərəfindən qeyri-səlisliyə meylin nümayiş etdirilməsini hiss etməyə bilmirik.

Dünyaca məşhur argentinalı yazar X.L.Borxesin belə bir gözəl hekayəsi var: "Funes – yaddaşın möcüzəsi". Bu hekayə gənc oğlan olan Funesin qəribə və möhtəşəm bir bacarığından bəhs edir. Funes ətrafında baş verən hər bir şeyi yaddaşına yaza bilir. O, 24 saat ərzində nə olubsa, düz 24 saat ərzində bircə-bircə təkrar edə bilir. Funes üçün hedc anlayışı yoxdur. O, ətraf mühiti tam olaraq təqdim edə bilir. Funes qeyri-səlis məntiqdən qara boşluq qədər uzaqdır. Funes Homer məntiqinin davamçısıdır. Dədə Qorqud isə Funes fenomenini qəbul edə bilməzdi.

**KDQ-da demokratiya**

Dastan mətnində aşkar demokratik elementlərlə gizli demokratik rüşeymləri bir-birindən fərqləndirmək lazımdır. Aşkar elementlər mətnin üst qatında görünənlərdir. Məsələn, Təpəgözlə mübarizə zamanı ona yemək

üçün hər ailədən bir övlad verilməli idi. Bu bölgü bütün Oğuz cəmiyyətinə aid idi. Dastan deyir ki, dörd oğlu olan birin verdi, üçü qaldı. Üç oğlu olan birin verdi, ikisi qaldı. İki oğlu olan birin verdi, biri qaldı. Növbə dövrə vurub yenə həmən heç bir övladı qalmayan ailənin üstünə gələ bilərdi. Əsir vermək hesabına olsa da ailə bu borcunu verməli idi. Heç bir ailə, kim olursa olsun, cəmiyyət daxilində hansı mövqe tutursa tutsun, bu bölgüdən kənara çıxa bilməzdi. Bu halın özü primitiv demokratik tərzdən xəbər verir.

Başqa bir misal bəylərlə söhbət zamanı Salur Qazanın onlara tez-tez "Bəylər!" deyə müraciət etməsilə ortaya çıxır. Bu müraciət Salur Qazanın – Oğuz elinin baş sərkərdəsinin bəylərdən məsləhət alması ilə bağlı niyyətinin bir növ açar sözünə çevrilir. Məhz "Bəylər!" xitabından sonra oğuz bəyləri bir-bir söz deməyə, təklif etməyə başlayırlar. Bu da qəbul edilmiş qərarın hamılıqla dəstəklənməsini göstərir.

Və yaxud belə bir bəsit misal da, zənnimizcə, primitiv demokratik ənənənin mövcudluğundan xəbər verir. Toy ərəfəsində Beyrəyə nişanlısı Banuçiçək tərəfindən bir ipək köynək hədiyyə olaraq göndərilir. Beyrəyin qırx yoldaşı bunu görüb pərişan olur, çünki onların köynəyi belə gözəl deyil. Beyrək bunu hiss edib məsələni belə çözür: *"Bu gün mən geydim. Yarın sıra ilə hər biriniz geyərsiniz. Sonra bir dərvişə verəlim."*

Təsvir edilən dövr üçün bariz demokratik yanaşmadır. Bütün bunlar primitiv demokratiyanın təzahürünün

xarici əlamətləridir. Gizli rüşeymlər isə dil və təfəkkür münasibətlərinin dərinliklərində gizlənmiş şəkildədir.

Gizli demokratik rüşeymlər daha çox qeyri-səlis məntiq elementlərinin dastan mətninə səpələnmiş nümunələri vasitəsilə aşkar edilir. Misal olaraq onu göstərmək olar ki, "Kitabi-Dədə Qorqud" mətnində (özü də çox yayılmış halda) iki əks müddəa ilə dolmuş qütblər arasına Aristotel məntiqindən fərqli olaraq üçüncü, hətta dördüncü, bəzən beşinci də daxil edilə bilir. Resipiyent üçün seçim imkanı genişlənir, beləliklə, əsl demokratik mənzərə özünü göstərir. Qədim oğuzların düşüncə tərzində belə məqamların olması onların obyektiv aləmi adekvat rəngarəngliyində görmək cəhdindən xəbər verir.

Dastanın təsvir etdiyi cəmiyyətdə demokratik rüşeymlərin olmasını belə bir fakt da təsdiqləyir. Təsvir edilən qədim dövr üçün səciyyəvi olan demokratik "qaydalar" pozulan zaman ortalığa nifaq düşür. Belə bir halı oğuz cəngavərləri bir-birinə bağışlamır. Dastanda təsvir edilən Dış Oğuz – İç Oğuz savaşının əsl səbəbi də məhz qədim demokratik prinsipin pozulması nəticəsində baş verir. O prinsip budur.

İldə bir dəfə Qalın Oğuz sərkərdəsi Salur Qazan evini Qalın Oğuz birliyinə daxil olan İç Oğuz və Dış Oğuz bəylərinə yağmaladardı. Bu zaman o, halalı Boyu uzun Burla xatunun əlindən tutub evindən çıxardı. İç Oğuz və Dış Oğuz bəyləri Qazanın evinə girib kim nə istərsə alıb gedərdi. Bu, aydındır ki, qədim demokratik münasibətin dastandakı primitiv büruzəsi idi.

Bir dəfə isə Qazan bu "demokratik" adəti pozur və evini yağmaladarkən Dış Oğuz bəylərini bu mərasimə çağırmır. Səbəb məlum deyil. Nəticədə, Dış Oğuz bəyləri Qazan xana küsürlər və Qazana, təbii ki, İç Oğuza düşmən kəsilirlər, əsas hakimiyyətə qarşı üsyan edirlər. İç Oğuzla Dış Oğuz arasında savaş baş verir. Qazan bu savaşda Dış Oğuz bəylərinə və onların başçısı At ağızlı Aruz Qocaya qalib gəlir. Demokratik ənənənin pozulmasına etiraz yatırılsa da, bu etirazın baş tutmasının özü haman demokratik prinsipin mövcudluğunu dolayısı ilə olsa da təsdiq edir.

Bu deyilənlərdən isə ilk baxışda təəccüb doğuran belə bir nəticə çıxır ki, Dış Oğuz bəylərinin nifaq salma cəhdləri, əslində, demokratiyanın bərpası uğrunda verdikləri çabalardan ibarət imiş. Hətta Beyrəyin onların tərəfinə keçmədiyi üçün öldürülməsini belə özlərinə rəva görən Dış Oğuz bəyləri, dərindən nəzər salsaq, əslində, bir tərəfdən mifoloji təsəvvürlərin Beyrəyi cəzalandırmaq missiyasını həyata keçirirlər, digər tərəfdən demokratik ənənənin bərpası üçün qan tökürlər, deyə bilərik. Belə bir yanaşma indiyə qədər oxucuya Dış Oğuz bəyləri tərəfindən Oğuzun birliyini pozmaq cəhdi kimi qələmə verilən Dış Oğuz üsyanını tamam başqa yöndən dəyərləndirməyə imkan verir. Biz bu üsyanı demokratiya uğrunda qədim oğuzların ilk mücadiləsi kimi qəbul edə bilərik. Aruz Qoca və onun arxasında duran Dış Oğuz bəyləri kortəbii şəkildə olsa da, demokratik bir ənənənin aradan götürülməsinə qarşı çıxırdılar. Və bu yolda Aruz

Qoca demokratik ənənəni pozan Salur Qazanla ölüm-dirim savaşına qalxmış bir Oğuz qəhrəmanı kimi diqqəti cəlb edir.

"Kitabi-Dədə Qorqud" dastanı dünya mifoloji dastançılıq sistemində önəmli bir mövqe tutur. Onun bir sıra xətlərinin Homer poemaları, "Gilqameş" ilə, daha sonrakı dövrə aid "Nibelunqlar haqqında nəğmə" dastanı ilə oxşarlığı bunu söyləməyə əsas verir ki, oğuz dastanı tarixən xeyli qədim mifoloji dövrdə formalaşmağa başlamış, zaman-zaman müxtəlif redaktələrdən keçmiş, "Təbiət-Mədəniyyət" qarşılığında birindən o birinə keçidi hətta öz timsalında ədəbi-bədii aspektdə modelləşdirmiş, şüurda gedən prosesləri adekvat şəkildə təsvir etmiş bir mətndir. Bu mətndə səlis məntiq öz əhəmiyyətli sözünü dediyi kimi qeyri-səlis məntiqin də təzahürləri özünü göstərmişdir. Qeyri-səlis məntiq bu Dastanda özünün müxtəlif fasetlərində (özüllərində) təzahür edir. Biz aydın şəkildə görürük ki, qədim əcdadlarımız onların təfəkküründə özünü göstərən tolerantlıq, yumşaqlıq hislərinə sadiq qalaraq həyatını bunlara uyğun qurmuş, dünyaya, ətraf mühitə demokratik bucaqdan baxmağa çalışmışlar. Dastanda qeyri-səlis məntiqin müxtəlif təzahür formaları əcdadımızın obyektiv aləmi daha adekvat görmə cəhdini ortaya qoyur. Bu cəhd, aydındır ki, onun dünyagörüşünə, psixologiyasına, şüuruna təsir etməmiş deyil. Xalqımızın xislətinə çevrilmiş bugünkü multikultural əhvalın köklərini də elə burada axtarmaq lazımdır.

**KDQ-da qeyri-səlis məntiq elementləri**

20-ci əsrin 50-ci illərinin ortalarından başlayaraq "Kitabi-Dədə Qorqud"un öyrənilməsilə bağlı repressiya buzu sınmağa və əriməyə başladı və "Kitabi-Dədə Qorqud" dastanının bütün türkdilli respublikalarda, özəlliklə də, Azərbaycanda geniş şəkildə, frontal öyrənilməsi prosesi başladı. Bu gün onun dil və üslub, tarixçilik, fəlsəfi, psixoloji, etnoqrafik xüsusiyyətləri böyük həvəs və maraqla tədqiq edilir. Və nəhayət, bu gün artıq oxucunun diqqətinə təqdim edilən bu kitabla "Dədə Qorqud" mətninin qeyri-səlis məntiq prinsipləri baxımından araşdırılması işinə başlanmışdır, deyə bilərik.

"Kitabi-Dədə Qorqud" və "qeyri-səlis məntiq" bu şəkildə ilk dəfə bir-birinin yanında axan qüdrətli çaylar kimi diqqəti cəlb edir. Daha doğrusu, bu çaylar bir-birinin yanında axmırlar, onlar bir məcrada bir-birinin yanında, amma hələ ki, hərəsi öz rəngində axmağa davam edirlər. Bunu ilk qovuşma saymaq olar. Ehtiyatlı və ürkək əsl qovuşma isə bir qədər sonra baş verir. Bu gün artıq bu iki dəyər bir-birinin içində bir elmi baxış müstəvisində "əriməyə" başlayıblar.

Azərbaycanın gözəl guşələrinin biri olan Sabirabad bölgəsində Suqovuşan adlı bir yer var. Suqovuşan, adından da göründüyü kimi, iki nəhəng Qafqaz çayının birləşdiyi və Xəzər dənizinə sarı birlikdə yol aldığı məkandır. Bu çaylar Kür və Araz çaylarıdır. Kürün suyunun boz rəngi normal, adi çay rəngidir. Arazın rəngi isə fərqlidir. O, dağlardan gəlir və arası ilə axdığı dağların

sumaxı rəngini özündə qoruyub saxlayır. Bu iki çay bir-birinə qovuşandan sonra bir müddət beləcə – hər biri öz rəngində yanaşı axmaqda davam edirlər. Hələ ki, sumaxı rəngli Arazı boz rəngli Kürdən bir baxışla da fərqləndirmək mümkündür. Amma bir müddət sonra, təxminən bir kilometr yol keçdikdən sonra bu nəhəng çaylar bir-birinin içində əriyir, hər birinin öz rəngi itir, vahid çay ruhu və rəngdəki əsl qovuşma da elə bu zaman baş verir. Onlar Xəzər dənizi ilə bir çay olaraq qovuşurlar.

Eləcə də, "Dədə Qorqud" mətni ilə qeyri-səlis düşüncə prinsiplərini qeyd etmək olar. Onları məhz bir-birinin içində, bir-birilə müqayisəli şəkildə öyrənmək, qeyri-səlis düşüncə tərzinin prinsiplərini dastana tətbiq etmək həm maraqlı, həm də faydalıdır. Onlar iki nəhəng çay kimidirlər. Birinin digərinə (qeyri-səlis məntiqin və düşüncə tərzinin Dastan mətninə) tətbiqi zamanı ilkin olaraq bu iki möhtəşəm çay hər biri öz rəng-rufu ilə, amma artıq yanaşı yol getməyinə davam edir. Və bir müddət sonra onların həqiqi birləşməsi, bir-birinin içində əriməsi baş verir. Biz indi hətta təəccüb edə bilərik. Necə ola bilib ki, Dastan mətnindəki bu aparıcı düşüncə tərzini, qeyri-səlisliyin prinsiplərini ehtiva edən münasibətlər kələfini biz əvvəllər görməmiş olmuşuq?!

Və nəhayət. Bu yazının sonunda bizə onu qeyd etmək qalır ki, qeyri-səlis məntiqin yaradıcısı Lütfizadə öz nəzəriyyəsinin ilkin olaraq sosial elmlər sahəsinə tətbiq

edilməsini arzulardı. Bu baxımdan oxucunun diqqətinə təqdim edilən bu kitab Lütfizadənin arzusunun müəyyən mənada gerçəkləşməsidir, deyə bilərik. “Kitabi-Dədə Qorqud” kimi qədim dil və təfəkkür nümunəsinə belə tətbiq digər ədəbi nümunələrdə də qeyri-səlis məntiq axtarışlarına gətirəcəkdir deyə düşünürük.

Müəlliflər ümid edirlər ki, qeyri-səlis məntiq prinsipləri folklorumuzun digər nümunələrində də özünü göstərir. Belə bir tətbiq ədəbi düşüncəmizin sərhədlərini xeyli böyüdər və inanırıq ki, qeyri-səlis məntiq sahəsinə də faydalı perspektivlər gətirərdi. Biz bu kitabda haman gələcək tətbiqlərin nəzəri-metodik yollarını mümkün qədər müəyyənləşdirməyə çalışdıq.

## Əlavə 6

## Kamal Abdulla, Rafiq Əliyev. "Kitabi-Dədə Qorqud"da ilkin demokratik prinsiplər

Bugünkü demokratik meyarlar "Kitabi-Dədə Qorqud"da yazılan tək "ol zamanlarda" olan kimi, əlbəttə ki, deyildir. Xalqın hakimiyyəti hətta qədim demokratiya vətəni olan Elladada da bugünkü kimi deyildi. Volterin məşhur disturunun ("Mən sənə nifrət edə bilərəm, amma mən həyatımı verərəm ki, sən sərbəst şəkildə öz düşündüklərini deyə biləsən") müasir demokratiyanın himninə çevrilməzdən çox-çox əvvəl də bu və ya başqa, bəzən primitiv, bəzən pərakəndə halda müxtəlif cəmiyyətlərdə demokratik yanaşma cəhdlərinə rast gəlmək olurdu. Çünki demokratiya insanlığın kodlaşdırılması elementlərindən biridir və ona qədim inkişaf dövründən məxsusdur. Demokratiyaya, yəni böyük əksəriyyətin mənafeyinə uyğun olan həyat tərzinə, münasibətlər məcmuyuna meyil insanlıq tarixində özünün müxtəlif təzahür formaları ilə hansısa şəkildə özünü göstərməlidir. Bu əlamətlər hər bir xalqın ədəbi-mədəni sərvət daşıyıcısı olan qədim nümunələrində bu və ya başqa şəkildə yaşamaya bilməzdi.

"Kitabi-Dədə Qorqud" dastanında biz qədim (bunu primitiv, pərakəndə, ilkin də adlandıra bilərik) demokratik elementlərin ciddi "axtarışına" heç zaman çıxmamışdıq. Bu barədə düşünmək ağlımıza belə gəlməmişdi. Amma dastanın bədii materialının dərinliklərinə endikcə, burada başqa elm sahələrinə məxsus dəyərləndirici materialla və yeni elmi apparatura ilə işlədikcə onun potensialında yeni-yeni nüansların mövcudluğu ilə qarşılaşırıq və indi haqqında danışdığımız məqamın, yəni demokratiya elementlərinin orada yer alması bizi təəccübləndirməyə bilmir. Qeyri-səlis məntiq prinsiplərinin "Kitabi-Dədə Qorqud" dastanına ilkin tətbiqindən sonra dastandakı yeni, indiyə qədər diqqəti cəlb etməyən belə bir vacib məsələnin ortaya çıxması bizi sözün yaxşı mənasında heyrətləndirdi. Bu, demokratiya prinsiplərinin təsvirinin, əlbəttə ki, "ol zamanlara" aid prinsiplərin "ol zamanlara" aid təsviri zamanı mətnin alt qatında "gizlənib" qalması idi.

İlk öncə qeyri-səlis məntiqdə Aristotel məntiqindəki "üçüncünü istisna" qanununun qüvvədən düşməsi məqamına diqqət edək. Aristotelin dediyi kimi dünya, obyektiv gerçəklik heç də iki əks qütbdən ibarət deyilmiş. Böyük alim Zadə bunu 1965-ci ildə sübut etdi. İnsan ya ölü, ya diri olmaya da bilərmiş. "Kitabi-Dədə Qorqud" mətnində deyildiyi kimi o bu iki qütbün ortasında da ola bilərmiş. Dastanda bu məqam "küçücük ölüm" adlandırılır. Dastan deyir: "Ol zamanlar" igidlər yatanda yeddi gün yeddi gecə yatardılar. Heç nə onları o yuxudan oya-

da bilməzdi". Müasir tibbdə buna "koma" deyilir. "Ölü və "diri" qütbləri arasında üçüncünün (küçücük ölümün) yer alması, əslində, təsəvvürdə gedən demokratikləşmə prosesindən xəbər verir. Yəni qədim əcdadımızın iki əks qütbdən əlavə daha bir haldan xəbərdar olması özünü göstərir. Deməli, qədim əcdadımız demokratikliyin əsas şərtlərindən birinin – variantların olmasını  ümumi şəkildə qəbul edir və bunu hətta adı ilə (küçücük ölüm) adlandırır. Bununla da o, özünün seçim imkanını genişləndirmiş olurdu.

Qeyd etmək lazımdır ki, iki qütb arasında başqa halların olması və bununla seçim imkanının genişlənməsi Dastanın mətnində adi düşüncə tərzi əlaməti kimi özünü göstərir. Burda, hətta üçüncü ilə yanaşı dördüncü, beşinci hallar da özünü göstərə bilir. Deməli, seçim imkanları daha geniş, müxtılif "rənglərdə" mövcud imiş.

Məsələn, belə bir misala diqqət edək. Bayındır xanın məclisində oğlu-qızı olmadığı üçün Dirsə xanı qara çadıra yerləşdirirlər. O bunun səbəbini ya özündən, ya da arvadından görür. Arvadı isə ona başqa səbəblər göstərir. Acları doyuzdurmadıqlarını, donsuzları geyindirmədiklərini, pulsuzlara mal-dövlət verməmələrini "məndən-səndən" səbəbli qütblərin arasına salır. Deməli, seçim imkanı yenə də genişləndirilmiş şəkildə nəzərə çarpdırılır. Dirsə xan xatunu ilə söhbətdə səbəbkarı axtarır və ona "bu bəla ya səndəndir, ya məndən" deyir. O özündən xəbərsiz Aristotel məntiqinin sadiq davamçısıdır. Xatunu isə məsələnin qoyuluşunu daha geniş müstəviyə keçi-

rir. İki qütb arasına başqa hallar qoyur və Zadədən əvvəl onun ideologiyasının nümayəndəsi kimi çıxış edir. Zadə özü də təsəvvür etməzdi ki, onun ideyalarını (iki qütb arasında sonsuz halların olmasını) ondan çox-çox əvvəl "Kitabi-Dədə-Qorqud" dastanındakı Dirsə xanun xatunu bu cür gözəl şəkildə ifadə edəcək. Beləliklə, məsələ özünün "ağ-qara" təsvirindən çıxaraq, prinsip etibarilə, başqa, rəngli təsvirə qədəm qoyur.

Seçim imkanının genişləndirilməsi (hətta təkcə "üçüncü" hesabına olsa da), obyektiv aləmdəki rəngarəngliyin yavaş-yavaş artıq qədim əcdadımızın diqqət orbitinə keçməsi demək idi. Bu isə aydındır ki, demokratik yanaşmanın ilkin şərtlərindən biridir.

Demokratik düşüncə tərzi Dastanda başqa cür təsvirlərdə də özünün təzahür formasını tapır. Burada qeyri-səlis düşüncə tərzinin çox-çox dərinliklərdəki büruzəsini görmək mümkün olur.

Qeyri-səlis məntiqin inersiyası ilə demokratik düşüncə tərzinin axtarışı bizi digər aspektlərdə özünü göstərən başqa maraqlı hallarla da qarşılaşdırır. Əhəmiyyətli olan budur ki, indiyə qədər bəzən dastanın ideoloji qatında son dərəcə mənfi dəyərli keyfiyyət kəsb etmiş bir obraz belə bir tədqiq nəticəsində tamamilə yeni, müsbət keyfiyyətlərə malik əlavə çalarlar kəsb edə bilir.

Məsələn, biz At ağızlı Aruz Qocanı Qalin Oğuza təfriqə salan, İç Oğuzla Dış Oğuz arasında qanlı münaqişəyə səbəb olan bir Dış Oğuz ağsaqqalı kimi dəyərləndirirdik. Məhz o, Dış Oğuzu İç Oğuza qarşı üsyana

qaldırmışdı. Bu üsyan Oğuzdaxili qarşıdurmanın "Kitabi-Dədə Qorqud" dastanı vasitəsilə birinci bədii təsviri idi. "Kitabi-Dədə Qorqud"la bağlı bütün tədqiqlərdə bu qarşıdurma, belə deyək, lənətlənib. Bu münaqişənin bizim tədqiq obyektimizlə bağlı maraqlı səbəbini bu yeni yanaşma rakursundan qiymətləndirməyə çalışaq. Dastanın üst qatı bu münaqişənin səbəbini belə təqdim edir.

Qalın Oğuzun sərkərdəsi Salur Qazan ildə bir dəfə İç Oğuz və Dış Oğuz bir yerdə olarkən evini onlara yağmaladardı. Halalı Boyu Uzun Burla xatunun əlindən tutub şölə çıxar, bundan sonra İç Oğuz, Dış Oğuz bəyləri onun evinə girib istədikləri nə varsa alıb gedərlərdi. Oğuz cəmiyyətinin bundan daha qədim, özəyində demokratik düşüncə tərzi ilə formalaşmış başqa bir ritualı, yəqin ki, yoxdur. Düzdür, kifayət qədər primitiv demokratik nümunədir, amma hər halda bundan daha yaxşısı "ol zamanlarda" özünü göstərmir. Bəs nə baş verir ki, belə bir münasibət hökm sürən cəmiyyətdə daxili qarşıdurma baş verir, hətta əsas qəhrəmanlardan ikisi – Beyrək və Aruz Qoca bu münaqişə gedişatında məhv edilirlər?! Dastanın gizli qatında bu hadisənin belə bir səbəbini ortaya çıxarmaq mümkündür.

Bunun gizli səbəbi Salur Qazanın izahedilməz (hər halda mətndə bununla bağlı heç bir izah yoxdur!) hərəkətidir. Son yağmaya o, Dış Oğuz bəylərini çağırmır, evini yalnız İç Oğuz bəylərinə yağmaladır. Deməli, əslində, demokratik təmələ bağlı ritualın pozucusu Salur Qazandır. Bəs belə isə, o zaman Aruz Qoca kimdir?!

Mətnin dərin sinergetikasından məlum olur ki, Aruz Qoca qədim demokratik ritualin pozulmasına qarşı çıxan, onun pozulması ilə barışmayan Dış Oğuz bəyidir. Əslində, demokratiya uğrunda mücadilə aparan, həyatını qurban verən ilk Oğuz bəyidir. Onun hərəkətini ən ümumi şəkildə bu cür qiymətləndirmək olar.

İllər boyu ən müxtəlif yönlərdən tədqiq zamanı Salur Qazan Oğuzun birliyini qoruyan sərkərdə kimi qələmə verilib, Aruz qocanı isə bu birliyə zərbə vuran şəxs kimi qiymətləndiriblər. Sadəcə öyrənmə rakursunu bir qədər dəyişsək və məsələlərə yeni demokratiya axtarışları işığında baxsaq, yeni nəticələrlə qarşılaşacağıq. Qeyri-səlis məntiqin işığında baxdıqda yaxşıların yamana, yamanların isə yaxşıya çevrilməsi o qədər də qeyri-təbii görünmür.

Sonda isə bir daha onu qeyd etmək istərdik ki, "Kitabi-Dədə Qorqud" dastanında qədim demokratik prinsiplərin axtarışına çıxmamıza səbəb yenə də qeyri-səlis məntiq ideyalarının bu dastana tətbiqi oldu. Digər bədii nümunələrimizin də bu aspektdən (qeyri-səlis məntiq prinsiplərindən) qiymətləndirilməsi, inanırıq ki, bəzi ehkamlaşmış qəhrəmanlarımıza yeni baxış sərgiləyən yanaşmalar verə bilər.